www.kitabxana.net
Milli Virtual-Elektron Kitabxananın təqdimatında

Rəna Qurbanlı - Qılıcova

Zəhərli tikan

Poemalar kitabı

YYSİB - 2025

www.kitabxana.net Milli Virtual-Elektron
Kitabxananın təqdimatında

Yeni Yazarlar və Sənətçilər İctimai Birliyi

www.kitabxana.net

Mir Cəlal Paşayev adına Milli Virtual Kitabxananın təqdimatında

"Çağdaş Azərbaycan poeziyası" seriyasından

Elektron kitab N 24 (12 - 2025)

Bu elektron nəşrlər kulturoloji-ədəbi layihəsini həyata keçirən Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin "Çağdaş Azərbaycan poeziyası" e-nəşrlər seriyası çərçivəsində hazırlanaraq yayımlanır.

Rəsmi FB səhifəmiz:

www.facebook.com/groups/kitabxana

Rəna Qurbanlı - Qılıcova

Zəhərli tikan

Poemalar kitabı

Elektron kitab YYSİB tərəfindən e-nəşrə hazırlanıb

Milli Virtual-Elektron Kitabxananın e-nəşri - 2025

Virtual redaktoru və e-nəşrə hazırlayanı:

**Aydın Xan Əbilov, yazıçı-kulturoloq,
Prezident təqaüdçüsü**

Müəllifin digər elektron kitabları burada:

https://kitabxana.net/author.php?author=961

Azərbaycan ədəbiyyatının istedadlı nümayəndəsinin yeni elektron kitabı. Şairənin yeni kitabında müxtəlif mövzulu epik-lirik əsərlər – üç poema toplanıb. Saf məhəbbət aləmi, insana sevgi, həyata maraq kimi duyğular irihəcmli lirik-poetik əsərlərin əsas mövzusunu təşkil edir. Müəllifin özünəxas poetik üslubu, maraqlı dəst-xətti, oxunaqlı forma və məzmun rəngarəngliy, fərqli deyim tərzi, ifadə zənginliyi bu əsərlərində də əks olunub.
Şairənin indiyə qədər 10 toplusu - "Hər ömürdən bircə gün", "Yaralı məhəbbət", "Tənha çiçək", "Yuxumda gördüyüm ev", "Qəlbimdən qopan incilər", "Zəhərli tikan", "Ana ürəyi", "44 günün səsası", "Sülh istəyirik", "Sirli ölüm" adlı kitabları işıq üzü görüb.

DİQQƏT!

Müəlliflik hüququ Azərbaycan Respublikasının qanunvericiliyinə və əlaqədar beynəlxalq sənədlərə uyğun qorunur. Müəllifin razılığı olmadan kitabın bütöv halda, yaxud hər hansı bir hissəsinin nəşri, eləcə də elektron informasiya daşıyıcılarında, İnternetdə yayımı yasaqdır. Bu qadağa kitabın elmi mənbə kimi istifadəsinə, araşdırma və tədqiqatlar üçün ədəbiyyat kimi göstərilməsinə şamil olunmur.

Təkrar e-nəşr

Bakı – YYSİB – 2025

www.kitabxana.net Milli Virtual-Elektron
Kitabxananın təqdimatında

ÖN SÖZ

İstedadlı şairə Rəna Qurbanlı - Qılıcovanın "Zəhərli tikan" adlı kitabı ilə oxucuları ilə altıncı dəfə görüşə gəlib. Şairə xanım uzun illər ərzində gördüyü, eşitdiyi və müşahidə etdiyi hadisələri sadə və oxunaqlı bir tərzdə qələmə almışdır. Onun poemalarında bir qadın ürəyinin çırpıntıları duyulur. O, poeziyanın dili ilə insan həyatındakı ovqatı özünün zəngin daxili aləmindən gələn bir həssaslıqla tərənnüm etmiş və oxucusunu da o aləmə cəlb etməyə çalışmışdır.

Şairənin kövrəkliklə, incə, həsas hisslərlə qələmə aldığı misralar onun vətənə, torpağa , elinə obasına və ən əsası yer üzünün əşrəfi sayılan insana, insanlığa olan məhəbbətinin təzahürüdür.

Kitabda bir necə poema yer almışdır ki, onların hər birində şairənin insan həyatında baş verən neqativ hadisələrə olan münasibəti aydın görünür. O, "Xəyanət" adlı poemasında kökü əsrlərdən gələn, lakin müasir dövrümüzün bəlasına çevrilən

kişilərin öz ailəsinə olan xəyanətindən bəhs etməklə, onun gətirdiyi bəladan, rəzillikdən, alcaqlıqdan söhbət acmışdır. Natavan adlı saf bir qadının simasında yüzlərlə xəyanətə tuş gələn qadın obrazı yaradıb ki, həmin qadın bütün xoş əməllərinə rəğmən hər addımda Bəşir kimi şərəfsiz, simasız bir insanın bəd əməllərinin oyuncusuna cevrilir. Şairə xanım xəyanətin bir ailəyə gətirdiyi bəlanı bütün xırdalıqları ilə oxucusuna çatdıra bilmişdir.

"Zəhərli tikan" poemasında insanın pula olan hərisliyinin onun ailəsinə, daha doğrusu əziz, xələf, ağıllı qızı Ceyranın ölümünə səbəb olduğunu qələmə almaqla, pul hərisliyinin xoşbəxtlik deyil, bədbəxlik gətirdiyini bəyan etmişdir.

"Evimizdə qopan tufan" adlı poema Rəna xanımın qəlbindən qopan hisslərin harayıdır. O, bir ailənin əziz bir insanını itirəndə kecirdiyi hissləri ürək ağrısı ilə qələmə almışdır. Bu həm də bir bacının qardaşına olan məhəbbətinin incə tərənnümüdür.

Rəna xanıma yeni yaradıcılıq uğurları arzulayıram. Ümidvaram ki, sadə, oxunaqlı dilə yazmış olduğu bu kitabı da "Hər ömürdən bircə gün", "Yaralı məhəbbət", "Tənha çiçək", "Könlümdən qopan incilər" kitabları qədər oxuçu rəğbəti qazanacaq.

Azər Kərimov,

Texnika elmləri doktoru, professor,

Çexiya-Azərbaycan Mədəni

Əlaqələr Mərkəzinin sədri,

Beynəlxalq Diaspor Mərkəzinin Avropa təmsilçisi

Həyat eşqini poeziyaya çevirən

Şairə-publisit Rəna Qurbanlı (Qılıcova): Məhsuldar yaradıcılığı və şeirləri

Şairə-publisist Rəna Bahadur qızı Qurbanlı (Qılıcova) 1960-cı ildə, iyunun 26-da Sumqayıt şəhərində anadan olub. 1977-ci ildə Tovuz rayonunda Puşkin adına orta məktəbi bitirib. Azərbaycan Dövlət İqtisad Universitetinə daxil olub, 1994-cü ildə oranın bitirib.

Hələ erkən yaşlarından sözə, ədəbiyyata meyl edən Raəna xanım son illər fəal ədəbi prosesə qoşularaq aktiv poetik-ədəbi fəaliyyəti ilə oxucuların marağını öz yaradıcılığına yönəldə bilib.

Şairənin indiyə qədər 10 kitabı işıq üzü görüb, çoxsaylı poetik-publisitik yazıları İnternet saytlarında, dövrü mətbuatda, ədəbiyyat jurnallarında verilib.

Xanım şairənin "Hər ömürdən bircə gün", "Yaralı məhəbbət", "Tənha çiçək", "Yuxumda gördüyüm ev", "Qəlbimdən qopan incilər", "Zəhərli tikan", "Ana

ürəyi", "44 günün sədası", "Sülh istəyirik", "Sirli ölüm" topluları ədəbiyyat həvəskarlarının, poeziya sevər oxucuların diqqətini cəlb edib.

Rəna xanımın poeziyası sənət adamlarının da marağını kəsb edib: onun 3 şerinə mahnı bəstələnib. "Atilla torpağı" (tanınmış sənətçi Şəmistan Əlizamanlının ifasında), "Gözəl xanımsan" və "Ömür yolumuz" (istedadlı ifaçı Ülvi Qılıçın ifasında) şahnıları dinləyicilərin könlünü oxşayıb.

Yazıçı-araşdırmaçı Vaqif İsaqoğlu tərəfindən Rəna Qurbanlı haqqında "Rəna Qurbanlının söz dünyası" adlı araşdırma kitab qələmə alınıb. Bu ədəbi-publisitik araşdırmada şairənin sənət-poeziya dünyasına ekskurs edilir, onun həyatı və yaradıcılığı tədqiq edilir.

Müəllifin müxtəlif səpkili şeirləri "Zirvə", "Vətən", "Canım Azərbaycanım", "Buta", "Şərqin səsi", "Xarıbülbül" və s. ədəbi məcmuələrdə, bir sıra qəzet və jurnallarda dərc olunub.

Rəna Qurbanlı (Qılıcova) həm də ictimai-mədəni aktivliyi ilə seçilir. O, Azərbaycan Yazıçılar Birliyinin, Dünya Şairlər və Yazıçılar İttifaqının, eləcə də Dünya

Jurnalistlər Birliyinin üzvüdür. Şairə-publisit yaradıcılıq uğurlarına görə bir neçə dəfə Fəxri fərman və mükafatlarla təltif olunub, "Qızıl Qələm" mükafatına layıq görülüb, həmçinin, Prezident təqaüdçüsüdür.

Alilələdir, 3 övladı var.

Ayxan – Hidayət Əbilli,

YYSİB sədr müavini,

Publisit/bloqqer

www.kitabxana.net Milli Virtual-Elektron
Kitabxananın təqdimatında

Zəhərli tikan!

Poema

Səhər açılıbdı, günəş boylanır.

Aləm işıqlanıb nura boyanır.

Günəşin şüası düşür hər yana.

Hava ləzzət edir indi insana.

Yuxudan oyanıb, baxırdı Telnaz.

Onun oyandığı olardı bir az.

Gəlmişdi işinə getmək zamanı.

Telnaz gözləyirdi elə bu anı.

Əvvəlcə aynadan o, çölə baxdı.

Tələsik donunu əyninə taxdı.

Mətbəxə keçəndə gördü ki, ana,

Çox gözəl bir süfrə düzəldib ona.

O öpdü ananın nurlu üzündən.

Heç zaman çıxmırdı onun sözündən.

Əlini süfrəyə uzatdi Telnaz.

Həmin yeməklərdən o yedi bir az.

Artıq yetişirdi işin zamanı,

Xəstə gözləyirdi, bax, bu insanı.

Bütün xəstələrə o verirdi can.

Onların yanında olurdu hər an.

İşə gecikməyi heç xoşlamazdı.

Müdürdən tənəli sözlər almazdı.

Hamıdan tez gəlib, o gec gedərdi.

Qayda-qanunlara əməl edərdi.

İşində var idi səliqə-səhman.

Hər şeyə nəzarət edərdi hər an.

İşə yeni gəlib catmışdı Telnaz.

Gördü səs-küy gəlir həyətdən bir az.

Getdikcə artırdı həmin bu səslər.

Səsə mat qalırdı eşidən kəslər.

Qapını açdılar onlar qəfildən.

Otağa doldular gələnlər birdən.

Ortaya qoydular kiçik körpəni.

Dəhşətə salmışdı uşaq görəni.

Mürəbbə bişirib meyvə dəyəndə.

Onu da qoyubdu ana ləyəndə.

Xəbərdar edibdi ana hər kəsi.

Deyibdi soyusun bu mürəbbəsi.

Tapşırıb dəyməyin o, uşaqlara.

Soyusun yığacam onu qablara.

Qarışıb ananın başı iş-gücə.

Bir də görür uşaq qışqırır necə.

Körpə bir əlini ləyənə salıb.

Özünü itirib ordaca qalıb.

Həkimlər töküldü onun başına.

Fikir vermədilər axan yaşına.

Uşağa hər cürə yardım etdilər.

Yardımdan sonra da onlar getdilər.

Telnaz bir andaca qəmə batmışdı.

Artıq həyacanı tamam atmışdı.

Üzündə varıydı sevinc üzləri.

Onun parıldadı gözəl gözləri.

Çünki bir körpəyə həyat vermişdi.

Həmin o körpəni doğma bilmişdi.

Yoxuydu sevincin həddi-hüdudu.

Əsl həkimlik də əslində, bax, budu.

Telnaz oturmuşdu öz otağında.

Pürrəngi çayı da düz qabağında.

Çayını içib o xəyala daldı.

Axşamkı söhbətdə fikiri qaldı.

Axşam nənəsinə getmişdi Telnaz.

Nənə cavanlıqdan danışdı bir az.

Hər gündə gedərdi onun yanına.

Minnətdar olardı hər bir anına.

Nənənin keşmişi çox maraqlıydı.

Həmişə bəzəkli, həm daraqlıydı.

İmkanlı kişinin tək övladıydı.

Evin görən gözü, ağız dadıydı.

Onlar yaşayırdı kəndin özündə.

Oğlan tək böyüdü ata gözündə.

Atası evində tək aman-zaman,

Bircə uşaq idi həmin Xuraman.

Onların kəndində bazar yoxuydu.

Rayonla məsafə bir az çoxuydu.

Bazar yerləşirdi həmin rayonda.

Ürək nə istəsə, tapardın onda.

Həftədə bir dəfə hamı gedərdi.

Bütün alverini orda edərdi.

Bu qızın atası çox imkanlıydı.

Qızına bağlıydı, övlad canlıydı.

Hər gündə bazara gedərdi kişi.

Orda yerləşirdi onun da işi.

Varıydı bazarda böyük dükanı.

Dükana bağlıydı kişinin canı.

Bir xəbər yayıldı bir gün hər yana.

Yoxlama gəlmişdi həmin dükana.

Bir bazar atası tezdən oyandı.

Qızının önündə gəlib dayandı.

Mənim gözəl qızım, bazara gəl sən.

Dükanda oturub gözləyəcəm mən.

Gələndə özünlə pul götürərsən.

Sən mənə onları tez yetirərsən.

Bu gün qurtaracaq yoxlama bizdə.

Mənə pul lazımdır, tez gəlin siz də.

Mən yola salacam o müfəttişi.

Xeyrimə nə qədər iş görüb kişi.

Məhəmməd yollandı işinə yenə.

Dedi ki, pulları çatdırın mənə.

Onların varıydı gözəl faytonu.

Foytonçu getməyə çıxartdı onu.

Aslan boylanırdı sağa, gah sola.

Xuraman Aslanla tez düşdü yola.

Onlara rast gəldi yolda Bənövşə.

Bazara gedirəm, - dedi, həmişə.

Əlində tutmuşdu torbada süzmə.

Söylədi , Xuraman, gəl məni üzmə.

Sən Allah, bunu da atın faytona.

Bir aləm əziyyət çəkmişəm ona.

Siz gedin, arxadan gələcəyəm mən.

Əmimin yanında gözləyərsən sən.

İncimə, sən Allah, ay canım, gözüm.

Sizlərə mən gəlib çatacam özüm.

Süzməni qoydular onlar faytona.

Narahat olma sən, dedilər ona.

Nəyin var gətir qoy, apararam mən.

Nə zaman istəsən, götürərsən sən.

Əmisi qızıydı onun Bənövşə.

Bir yerdə olurdu qızlar həmişə.

Ən yaxın rəfiqə, dost olmuşdular.

Yetkinlik yaşına lap dolmuşdular.

Onlar yollarına davam edirdi.

Üz tutub bazara doğru gedirdi.

Bu zaman Xuraman gördü ki, birdən,

Süzmənin torbası düşüb qəfildən.

Aslanı səslədi tezcə Xuraman.

Torba yox olubdu, - dedi həmin an.

Aslan dayandırdı tezcə faytonu.

Bir kədər bürüdü o dəmdə onu.

Fayton yoxuşları qalxdığı zaman,

Torba sürüşübdü yerə həmin an.

Hər yerə, qayıdıb, onlar baxdılar.

Özlərini oda, közə çaxdılar.

Gedəndən, gələndən xəbər aldılar.

Bu işə tamam məətəl qaldılar.

Bir kişi onlara yanaşdı bu an.

Ondan da soruşdu faytonçu Aslan.

Onlara baxaraq söylədi kişi,

Gördüm mən onların tutduğu işi.

Faytondan düşən tək gördüm torbanı.

Unuda bilmərəm mən həmin anı.

Bir qadın, bir oğlan keçirdi yoldan.

Süzmə yerə düşdü elə həmən an.

Onlar boylandılar o yan, bu yana.

Bir kisə çıxartdı çantadan ana.

Ana, tez torbanı kisəyə saldı.

Tələsik kisəni dalına aldı.

Kiçik bir keçiddən tezcə keçdilər.

Kəsə yol getməyi onlar seçdilər.

İtdilər, getdilər mənim gözümdən.

Bunları demirəm, vallah, özümdən.

Xuraman Aslana söylədi ki, sən,

Bu saat keçiddən gərək keçəsən.

Düşəsən onların tezcə izinə.

Əvvəlcə bir yaxşı tüpür üzünə.

Onlardan alarsan, Aslan süzməni.

Sonra da bazara çatdır sən məni.

Aslan da boylandı o yan, bu yana.

Yazıq-yazıq baxdı tez Xuramana.

Onları mən hardan tapım, ay xanım?

Gecikirik, gedək sən mənim canım.

Qamışlıq o üzdən baş alıb gedir.

Fızıllıq içində arvad nə edir?

Xuraman olduqca çox əsəbləşdi.

Bu sözün üstündə yaman dirəşdi.

Aləmi Xuraman tamamən qatdı.

Əlindən pulları o yerə atdı.

İstədi faytondan tez atı açsın,

Onların dalınca qız özü qaçsın.

Aslan bu hikkəyə yenə də dözdü.

Ağ atı faytondan o özü çözdü.

Atlandı tələsik atın belinə.

Aldı qamçısını tezcə əlinə.

Keçidin üstündən qatar gedirdi.

Keçid kiçik idi, darlıq edirdi.

Başını əyərək keçdi keçiddən.

Bir xəbər gəlmədi xeyli igiddən.

Xuraman bu yanda var-gəl edirdi.

O başa-bu başa tez-tez gedirdi.

Artıq sıxılırdı onun ürəyi.

Aslanın dəymədi, deyən, köməyi.

Hər yeri bu kişi gəzdi, dolaşdı.

Tükəndi səbri də, həddini aşdı.

Geriyə döndü o, tamam kor-peşman.

Bu zaman tərpəndi otluqda ilan.

At hürkdü, başladı möhkəm qaçmağa.

Qaçdıqca başladı həddin aşmağa.

Nə qədər cilovu çəksə də Aslan,

İldırım gücüylə gedirdi inan.

At gəlib sürətlə keçdi keçiddən.

Xuraman gördü ki, at gəlir birdən.

Baxdı ki, ay Allah, hardadı Aslan?

Gördü ki, uzanıb yerdə həmin an.

Üz-gözü batıbdı tamamən qana.

Lazımdı ağlasın onu bir ana.

Başını əyməmiş keçdiyi zaman.

Divara dəyərək yıxılıb o an.

Xuraman tez qaçdı onun yanına.

Qorxaraq baxırdı axan qanına.

Yığıldı Aslanın hamı başına.

Baxdılar bu qızın axan yaşına.

Yudular Aslanın tez üz-gözünü.

Tamam itirmişdi kişi özünü.

***

Bənövşə onları tez yola saldı.

Hələlik özü də evində qaldı.

Varıydı evində bir xeyli işi.

Qapıda durmuşdu bir qoca kişi.

Kişi gözləyirdi bu Bənövşəni.

Deyirdi, ay qızım, yola sal məni.

Nə qədər yumurta vardısa hində.

Yığıb gətirmişəm hamsını mən də.

Qonşuda olurdu o qoca kişi.

Heyvana, toyuğa baxmaqdı işi.

Bənövşə ondan da yumurta aldı.

Kişini evinə tez yola saldı.

Satası şeyləri yığdı çantaya.

Evində işləri qoydu qaydaya.

Piyada nə qədər getsə də birdən,

Bir xeyli yığıncaq gördü qəfildən.

Uzaqdan tanıdı o, Xuramanı.

Qorxuya düşdü qız, sıxıldı çanı.

Bildi ki, onlara nələrsə olub.

Onunçün yanları adamla dolub.

Od düşdü elə bil onun canına.

Özünü yetirdi qızın yanına.

Bənövşə oraya çatdığı zaman.

Gözündən yaşları tökdü Xuraman.

Bənövşə torbanı qoydu faytona.

Nə olub, deyərək, soruşdu ona.

Xuraman anlatdı olub, keçəni.

Dedi ki, bu işlər yandırır məni.

Bənövşə söyləndi, olanlar olub.

Nə qədər qəm, qüssə içinə dolub.

Bəs əmim bazarda gözləyir səni.

Sən də axtarırsan hələ süzməni.

Bənövşə bu sözü söylədiyi an,

Elə bil özünə gəldi Xuraman.

Tez qaçdı o yana, bir də bu yana.

Hönkürüb ağlamaq gəlmişdi ona.

Bənövşə mat qaldı özü-özünə.

Sakitcə baxırdı onun üzünə.

Nə oldu, Xuraman, de görüm, sənə?

Süzmədən ötəri ağlama yenə.

İtibsə, qoy itsin, olsun haramı.

Allah göydən görür elə adamı.

Xuraman söylədi tez Bənövşəyə.

Getmişdim Aslana mən də köməyə.

O zaman pulları qoydum faytona.

Hansı bir oğru da tuş gəlib ona.

Deyəsən, pulları kimsə götürüb.

Süzmətək onu da burdan ötürüb.

Baxdılar nə qədər ora, buraya.

Məhəmməd özü də gəldi haraya.

Artıq aparmışdı həmin o pulu,

Əli əyri olan bir Allah qulu.

***

Bazarda almışdı xəbəri, kişi.

Artıq öyrənmişdi olan hər işi.

Özünü yetirdi tezcə oraya.

Gəlmişdi qızına o da haraya.

Atası gördü ki, ağlayır qızı.

Gözləri olubdu tamam qırmızı.

Söylədi: ağlama, ayıbdı sənə.

Pis təsir eyləyir ağlamaq mənə.

Fəxr etdim sənlə özüm hər zaman.

Qız deyil, oğuldu, dedim, Xuraman.

Pul nədir, onuncün ağlayırsan, sən?

Arxanda dağ kimi dayanmışam mən.

Olacaq olubdu, daha nə edək?

Oturun faytona biz evə gedək.

Əvvəlcə Məhəmməd mindi faytona.

Bu anda Bənövşə yanaşdı ona.

Üzünə çökmüşdü dünyanın qəmi.

Altında yumurta var, dedi, əmi.

Elə bil kişini vurmuşdu ilan.

Tərs-tərs Bənövşəyə baxdı həmin an.

Qız, bu nə sözdü, sən deyirsən mənə?

Gic-gic sözlər demək yaraşmır sənə.

Başını aşağı dikdi Bənövşə.

Özü də düşmüşdü onun təşvişə.

Əsəblə ayağa durdu bu kişi.

O zaman anladı ordakı işi.

Bir torba yumurta xəşil olmuşdu.

Həlməşik su ilə torba dolmuşdu.

Kişinin şalvarı tamam batmışdı.

Bütün yumurtanı qırıb, qatmışdı.

Kişi tez torbanı atdı kənara.

Həlməşik dağıldı daşa, divara.

Gördü Bənövşənin qaralıb qanı.

Sıxıldı, bu halı görəndə, canı.

Cibinə uzatdı əlini kişi.

Yarımçıq qoymazdı heç zaman işi.

Bu qızın könlünü o alsın, deyə,

Pulları uzatdı tez Bənövşəyə.

Söylədi, al qızım, halalın olsun!

Həmişə ciblərin pullarla dolsun!

Unut, gəl, bu günü, burda olanı.

Elə bil satıbsan, sən yumurtanı.

Nə də ki, itməyib bir torba süzmə.

Baş verən şeylərə özünü üzmə.

***

Şirin xəyallara dalmışdı Telnaz.

Onun yorğunluğu çıxmışdı bir az.

Xəyaldan ayırdı zəng səsi onu.

Çim suya batmışdı əynində donu.

Artıq yetişirdi toyun zamanı.

Tələşlə dolurdu bu qızın canı.

Narahat olurdu getdikcə özü.

Saatda qalmışdı Telnazın gözü.

Gəlinlik donunu xəyal edirdi.

Donu götürməyə indi gedirdi.

Telnaz ilə nişanlı həkim oğlan,

Çöldə gözləyirdi onu həmin an.

Onlar yollandılar alış-verişə.

Hazırlıq gedirdi bu xeyir işə.

Nəhayət, yetişdi toyun zamanı.

Gül-çiçək bəzədi o gün hər yanı.

Hamı hazırlaşıb toya gedirdi.

Onlar toylarını bu gün edirdi.

Maşınlar düzüldü bir-bir cərgəyə

Üz tutdu, gəlini gətirsin, deyə.

Gəlin hazırlaşıb, hazır durmuşdu.

Özünə çox gözəl bəzək vurmuşdu.

Varıydı çox gözəl gəlinlik donu.

Gözəl göstərirdi gəlinlik onu.

Aradan keçmişdi azca bir zaman.

Çalğının səsləri yayıldı bu an.

Oynayan oynadı həyətdə bir az.

Gözünün yaşını silirdi Telnaz.

Qızcığaz boylandı o yan, bu yana.

Titrəmə gəlmişdi şirin bir cana.

Onlar bağladılar qızın belını.

Əlinə almışdı Kənan əlini.

Xeyir-duasını verdi nənəsi.

Nənəni öpdülər onlar hərəsi.

Quran kitabını qaldırdı nənə.

Altından keçdilər birlikdə yenə.

Bəy-gəlin üz tutdu birgə maşına.

Höküm edə bilmədi o, göz yaşına.

Vağzalı çalındı, ana ağladı.

Qızın ağlaması onu dağladı.

Ananı kiridə bilmədi heç kəs.

Sanki tükənirdi içində nəfəs.

Yığılmışdı hamı onun başına.

Kədərlə baxırdı axan yaşına.

Ananı təsəlli edirdi hamı.

Dedilər, tərk edir qızlar adamı.

Köçəri quşdular bu qızlarımız.

Onlardır bizlərin əsas varımız.

Elə ki, bərkiyir o qanadları.

Dünyaya gəlirlər öz övladları.

Bu gün bir körpədi, sabahsa ana.

Həyat bir yanadır, onlar bir yana.

Həmin bu zirvəyə çatmışdı Telnaz.

Yerə də, göyə də eyləyirdi naz.

Ehmalca qız girdi bəyin qoluna.

Maşınlar düzləndi həmən yoluna.

Göylərə yüksəldi siqnalın səsi.

Sanki sehirlədi o səs hər kəsi.

O səslər yayıldı bu gün hər yana.

Xoş təsir edirdi bu hər cavana.

Getdikcə artırdı onlar sürəti.

Görürdü hər bir kəs bu həqiqəti.

Kimisi keçirdi birdən qabağa.

Ayrılıb gedirdi xeyli uzağa.

Bir qədər getmişdi maşınlar birdən,

Bir "Kamaz" göründü tamam qəfildən.

Sürücü təntiyib basmışdı qazı.

İki, üç maşını çevirdi azı.

Bircə göz qırpımı buna bəs etdi.

Sonuncu maşının üstündən getdi.

Gəlin-bəy maşını yoldan çıxmışdı.

“Kamaz” hər bir şeyi əzib, yıxmışdı.

Hərə bir tərəfə çəkdi maşını.

Saxlaya bilmədilər göz yaşını.

Cavanlar töküldü yerə maşından

Kiminin axırdı qanlar başından.

Qışqırıq səsləri qalxdı cahana.

Hamı tez qaçırdı o yan, bu yana.

Kənanın dözmədi buna ürəyi.

Gördü ki, lazımdır həkim köməyi.

Atıldı, o saat düşdü maşından.

Alovlar qalxmışdı sanki başından.

Adamlar qışqırıb bərk ağlayırdı.

Gözlərdən sel kimi yaş çağlayırdı.

Aləm qarışmışdı biri-birinə.

Qaraldı gözləri, görmədi heç nə.

Nəhayət, o ələ aldı özünü.

Artıq dörd açmışdı Kənan gözünü.

Maşınlar əzilib çıxmışdı yoldan.

Yaralı varıydı başından, qoldan.

Hansı ki, maşını əzmişdi "Kamaz",

Baxdı ki, maşından heç maşın olmaz.

Heç əsər yoxuydu həmin maşından.

Ot kimi biçilmiş, sanki, başından.

Beş nəfər olmuşdu içində o an.

Gördü ki, heç biri sağ deyil, inan.

Başında tükləri biz-biz dururdu.

Ürəyi kədərlə tez-tez vururdu.

Dəhşətə gəlmişdi, dondu yerində.

Sağ bir yer yoxuydu onun birində.

Sanki məngənəylə sıxdılar onu.

Tələsik çıxartdı o, telefonu.

Təcili yardımı çağırdı Kənan.

Quruyub qalmışdı, elə bil, inan.

Su kimi axırdı yerdə qanları.

Həmin an çıxmışdı orda canları.

Hamı ağlayırdı bir nəfər kimi.

Gözləyirdi ora gələn həkimi.

Bir an da yumanda onlar gözünü

Yetirdi təcili yardım özünü.

Baxdılar ölübdü həmin beş nəfər.

Onlar o dünyaya eyləyib səfər.

Maşından onları güclə aldılar.

Təcili yardımla yola saldılar.

Hər tərəf batmışdı tamamən qana.

Əzrayıl qonmuşdu beş şirin cana.

Maşında olmuşdu beş subay oğlan.

Beşi də ölmüşdü elə həmən an.

Hərəsi bir evin şah dirəyiydi.

Ata-anasının öz ürəyiydi.

Onların yoxuydu heç xəbərləri.

Bilmirdi qurtarıb ömür, günləri.

Bəzənib beşi də gəlmişdi toya.

Bilmirdi toyları dönəcək vaya.

Quruyub yerində qalmışdı Telnaz,

Ona su verdilər toxdasın bir az.

Hamı ağlayırdı, qaraydı qanı.

Ölənə yanırdı onların canı.

Əzilən maşınlar ordan alındı.

Hamısı təmirə yola salındı.

Yenidən düzüldü maşın karvanı.

Hamı gözləyirdi bəs bunlar hanı?

Sürətlə yayıldı ölüm xəbəri.

Bu xəbər dolandı bütün yerləri.

Nəhayət, çatdılar onlar məclisə,

Heç gələ bilmirdi özünə kimsə.

Güç ilə keçdilər düz yerlərinə.

Kənan da baxırdı öz əllərinə.

Toy günü batmışdı əlləri qana.

Çox böyük bir kədər hopmuşdu cana.

Şoka düşüb, donub qalmışdı Telnaz.

Deyirdi, Allahım, belə iş olmaz.

Nə idi o işlər gəldi başıma?

Bəs nədən sən qıydın bu göz yaşıma?

Görəsən nə idi, axı günahım?

Sinəmi yandırdı çəkdiyim ahım.

Toy günü yaşatdın bunu bizlərə.

Ağlamaq bəxş etdin gözəl gözlərə.

Heç biri deyildi onlar ölməli.

Ömürlük biz olduq gözü kölgəli.

Şənlənə bilmədik biz heç doyunca.

Günahı bizimdir ömür boyunca.

Toy, düyün beləcə davam edirdi.

Narahat insanlar artıq gedirdi.

***

Beş evdə keçrildi yas mərasimi.

Yaş gözdən gedirdi gur leysan kimi.

Çadırlar quruldu, verildi ehsan.

Onların adına oxundu Quran.

Onlardan birinin Həsəndi adı.

Əcəl yaşamağa onu qoymadı.

Həsənin toyuna çox az qalmışdı.

Ancaq fələk onu vaxtsız almışdı.

Həlimə biləndə həmin xəbəri,

Kəlləyə çıxmışdı onun gözləri.

İnana bilmirdi həmin xəbərə.

Qışqırmaq istədi bütün ellərə.

Heç zaman öləmməz, dedi, Həsənim.

Ölübsə, qurtardı həyatım mənim.

Mən onu sevmişdim dünyalar qədər.

Allahım gör verdi nə qədər kədər.

Bu yükün altından çıxammaram mən.

Məni tərk eyləyib necə getdin sən?

Bəzəndi evimiz, yığıldı cehiz.

Nəzərə gəlmişik onda, yəqin, biz.

Mən sənsiz o evə baş salammaram.

İşıqlı dünyada heç qalammaram.

Sənsiz mən neylərəm axı dünyanı?

Məzara çevrilən bütün hər yanı.

Həlimə əliylə cırdı üzünü.

O, yerə qoymuşdu atrıq dizini.

Söylədi, vermərəm heç kimə səni.

Burda qoyub hara gedirsən məni.

O, aman vermirdi heç kimə inan.

Aləmlə biriydi səsi həmin an.

****

Artıq gecə keçib, açıldı səhər.

Yuxudan oyandı Telnaz birtəhər.

Ağlamaq tutmuşdu onun özünü.

Açmaq istəmirdi qara gözünü.

Küşmüşdü, elə bil, öz taleyindən.

Nədən bu şeyləri yaşadım ki, mən?

Yenə də baxıram o yan, bu yana.

Bir dəfə verilir həyat insana.

Çıxarda bilmədim toyun dadını.

Nə qoyum mən həmin günün adını?

Bir dəfə geyirsən gəlinlik donu.

Ölümlə qurtardı bu toyun sonu.

Həyat axarıyla davam edirdi.

Hər yeni gün Telnaz işə gedirdi.

Telnazın ayrı bir evi yoxuydu.

Problemlər, olduqca, hədsiz çoxuydu.

Kənanın varıydı subay qardaşı.

Aləmi qatırdı hər addım başı.

Evdə böyüyürdü bacısı Reyhan.

Çiçək tək açırdı sanki anbaan.

Atası Şəmistan, ana Zibeydə.

Yaşayırdı onlar hamsı bir evdə.

Bu evin varıydı üçcə otağı.

Aynabənd tutmuşdu bütün qabağı.

Başda yerləşmişdi mətbəx və hamam.

Orda yaşayırdı beş nəfər adam.

Hamının varıydı gözəl məsləyi.

Müftə gəlməyirdi yeyib, içməyi.

Zəhmətlə hər biri hey çalışırdı.

Telnaz çətinliyə tez alışırdı.

Bütün ağırlıqlar düşdü çiyninə.

Tələsik taxırdı donu əyninə.

Elə ki, obaşdan yerdən dururdu,

Əvvəlcə mətbəxdə süfrə qururdu.

Tez-tez yemək yeyib, tez gedirdilər.

Tələsik bu evi tərk edirdilər.

Telnazın işləri ağır olurdu.

Xəstəylə otağı hər gün dolurdu.

İşdən çıxan zaman evə qaçırdı.

Açarla kilidi Telnaz açırdı.

Əvvəlcə keçirdi tez otağına.

Bir az uzanırdı öz yatağına.

Azacıq uzanıb dincin alırdı.

Mətbəxə özünü sonra salırdı.

***

Telnaz gələn gündən həmin Zibeydə.

Artıq xanımıydı daha bu evdə.

Əlini vurmazdı ağdan, qaraya.

Gəlini səslərdi tezcə haraya.

Deyirdi, hər işi tez görməlisən.

Gəlinsən, öl desəm, sən ölməlisən.

O, boyda öğulu vermişəm sənə.

Sən ömrün boyunca borclusan mənə.

Dalına salırdı o, yun şalını.

Pozmurdu heç zaman öz əhvalını.

Divanın üstündə o, otururdu.

Bütün planları orda qururdu.

***

Yay gedib yerini payız almışdı.

Soyuqlar hər yerdə lövbər salmışdı.

Yağışlar yağırdı, külək əsirdi.

Sanki qış gəlməyə çox tələsirdi.

Bıçaq tək kəsirdi ayaz adamı.

Evlərə girmişdi soyuqdan hamı.

Divanda əyləşib yenə Zibeydə,

Təmizlik planı qururdu evdə.

Gəlini çağırıb dedi, ay Telnaz,

Evlərə əl gəzdir deyirəm bir az.

Əlinə al, götür şüşə siləni.

Çoxdandır silinmir, bax, mən biləni.

Tər-təmiz təmizlə, sil pəncərəni.

Narahat eyləyir bu tozlar məni.

Baxıb pəncərəyə söylədi Telnaz,

Onları silməyim heç on gün olmaz.

Yağışlı havadır, çöl də ki, soyuq.

Həyətdə gəzməyir bir dənə toyuq.

Soyuqdan giriblər küncə-bucağa.

Söykənib durublar qucaq-qucağa.

Yağışda süşəni mən necə silim?

Ağrıyır qulağım, tutulub belim.

Havalar düzəlsin, silərəm yenə.

Nasazam, soyuqdu, ay ana mənə.

Zibeydə divandan qalxdı ayağa.

Bir addım ataraq gəldi qabağa.

Əlini uzatdı bir az irəli.

Söylədi, ay gəlin, indi, deməli,

Vecinə almırsan daha sən məni.

Mən belə bilməzdim heç zaman səni.

Mən həkim oxudub vermişəm sənə.

Bu nə cür cavabdır verirsən mənə?

Necə qız böyüdüb, bilmirəm anan?

Eşitsə bunları nə deyər Kənan?

Bu evdə, deməli, qaynana sənsən.

Kənana cavabı özün verərsən.

Küləkdən olubdu hər tərəf bərbad.

De, heç yaraşarmı, mən qoca arvad.

Sən otur, mən silim bu pəncərəni.

Bax, bütün el-oba qınayar səni.

Telnaz mat qalmışdı qaynanasına.

Nə sözlər deyirdi, gör, anasına?

Özünü toplayıb, o aldı ələ.

Dözməyib, sonunda gəlmişdi dilə.

Dedi ki, ay ana, nə deyirsən sən?

Bu evə qulluqçu gəlməmişəm mən.

Heç cürə anlaya bilmədim səni.

Nə üçün Kənanla qorxutdun məni?

Axı sən, nə həkim, həkim, salmısan?

Anamdan bisavad qızmı almısan?

Sən həkim oğlanı veribsən mənə.

Anam da bir həkim qız verib sənə.

Çilədən çıxartma, ay ana məni.

Anamtək görürəm, hər zaman səni.

Qulluqçu deyiləm, gəlmişəm gəlin!

Biryolluq bunları deyirəm, bilin!

Möhkəmcə bağladı Telnaz başını.

Saxlaya bilmirdi o, göz yaşını.

Silməyə başladı pəncərələri.

Əsəbdən əsirdi onun əlləri.

O sildi qurtardı bütün şüşəni.

Ağrıdan yatmadı ancaq gecəni.

Möhkəm soyuqladı, qaldı yataqda.

Güc ilə gəzirdi Telnaz otaqda.

İynələr vuruldu, verildi dərman.

Yummadı gözünü Kənan bircə an.

Kənan bu işlərə çox əsəbləşdi.

Elə hey dərmanla gecə əlləşdi.

Güc-bəlayla gəlin gəldi özünə.

Kənan düz baxırdı onun gözünə.

Söylədi, ay Telnaz, uşaq deyilsən.

Bu işi hamıdan yaxşı bilirsən.

Pəncərə silərmi adam bu zaman?

Az qala, su donur eşikdə, inan.

Əməlli sətəlcəm olubsan daha.

Bir sey qalmayıbdı artıq sabaha.

Telnaz düz baxırdı onun gözünə.

Bir kəlmə demədi, amma özünə.

Deyə bilmədi ki, sənin bu anan,

Onunçün aləmi dağıtdı, inan.

Sanki tıxanmışdı ağzında sözlər.

Səssiz danışırdı elə bil gözlər.

Kənan şübhələndi , olub, keçəndən.

Söylədi, gizlətdin nəyisə məndən.

Yaxşı tanıyırdı o, Zibeydəni.

Bu günə o salıb, söylədi səni.

Həmin an Zibeydə girdi otağa.

Nifrətlə baxırdı orda yatağa.

Tez dönüb oğluna dedi, ay Kənan,

Nə qədər yalvardım mən ona, inan.

Söylədim, ay qızım, soyuqdur sənə.

Bir damcı o, qulaq asmadı mənə.

İstəyir nazlansın sənin yanında.

Bax, bir gör, nələr var onun canında?

Nə böyük dinləyir, nə də ağsaqqal.

Gəlin yox, evimə gəlibdi çaqqal.

Bilmirsən səhərdən o hara gedir?

Nə işlər çevirir, nə işlər edir?

Telnazı, elə bil, ildırım vurdu.

Gözünün önündə tək Kənan durdu.

Kənan him eyləyib dedi, ay Telnaz.

Sən ona, gəl, fikir vermə, bax, bir az.

Söylədi, ay ana, gör nə deyirsən?

Özün ki, onunla bir işləyirsən?

O, orda həkimdi, sən tibb bacısı.

Kaş heç olmayaydı, bax, dil acısı.

Axı neyləyibdi sənə, bu gəlin?

Özünü ağzına salma sən elin.

Əlini belinə qoydu Zibeydə.

Söylədi: mənimdi son söz bu evdə.

Sizlərə deyirəm, budur düz sözüm,

Bütün qərarları verəcəm özüm.

Ay ana, gör sənə nə deyirəm mən.

Bütün qərarları özün verərsən.

Sən Allah, Telnazda olmasın işin.

İşdən yorğun gəlir özünün kişin.

Qulluq et kişiyə, qat öz başını.

Telnazın axıtma sən göz yaşını.

Öpüb anasını bağrına basdı.

Qəlbinin səsinə o, qulaq asdı.

Zibeydə suçuqdu, qanı qaraldı.

Elə bil içini dərd, kədər aldı.

***

Aylar dolanırdı, illər gedirdi .

Hərə öz bildiyi işi edirdi.

Hər şeyin üstündə yenə Zibeydə,

Aləmi qatırdı həmin bu evdə.

Heç cürə gəlinlə yol getməyirdi.

Ondan heç razılıq o etməyirdi.

Telnaz hər bir şeyə əməl edirdi.

Hər zaman ona da hörmət edirdi.

Ancaq bu işə məətəl qalırdı.

Canını hər anda kədər alırdı.

Telnaz artıq özü ana olmuşdu.

Həm də bir qədər yaşa dolmuşdu.

Dünyaya gəlmişdi iki oğlanı.

Onlara bağlıydı Telnazın canı.

Telnaz çox sevirdi həm də Reyhanı.

Birlikdə keçirdi hər bir xoş anı.

Şipşirin, ağıllı qızıydı Reyhan.

O idi sinifdə gözəl oxuyan.

Bütün uşaqlardan o, seçilirdi.

Dərsləri hamıdan yaxşı bilirdi.

Bir gün bu məktəbə gəldiyi zaman.

Bir məktub gətirdi, ona bir oğlan.

Qardaşım vermişdi məktubu mənə.

Dedi ki, bu məktub çatacaq sənə.

Reyhan mat qalmışdı onun sözünə.

İnana bilmirdi özü-özünə.

Tanıya bilmədi heç bu oğlanı.

Təəccübdən əsirdi onun canı.

Canına düşmüşdü xəfif bir qorxu.

Kənandan qorxurdu həm də ən çoxu.

Məktub əlindəcə donub qalmışdı.

Həyəcan canını tamam almışdı.

Özünə gəlirdi, o, yavaş-yavaş.

Kənara çəkildi, təcili birbaş.

Titrətmə tutmuşdu onun əlini.

Saxlaya bilmirdi o, dik belini.

Qorxaraq baxırdı o yan, bu yana.

Bir tələş gəlmişdi indi Reynana.

Nəhayət, məktubu oxudu, Reyhan.

Bir sevgi məktubu yazmışdı oğlan.

Allandı Reyhanın tez yanaqları.

Titrədi o nəcib gül dodaqları.

Təxmini tanıdı həmin oğlanı.

Gözdən qoymayırdı o, heç Reyhanı.

Haraya getsə də, gəlsə də, Reyhan.

Onun arxasınca gəzirdi oğlan.

Fikirə getmişdi qız elə-belə.

Məktubu tez cırdı, atdı zibilə.

Özünə o verdi bir çəki-düzən.

Sinif otağına keçdi yenidən.

Aradan keçmişdi azca bir zaman.

Reyhanın dalınca gəldi o oğlan.

Göydən narın-narın yağırdı yağış.

Nəhayət, yaxından oldular tanış.

Hər gündə məktəbdən çıxdığı zaman,

Birlikdə gedirdi onunla Reyhan.

***

Zibeydə sevirdi oğlu Sənanı.

Onunçün gəzirdi bütün hər yanı.

Ehtiyac varıydı gözəl canana.

Deyirdi, yaraşsın gərək Sənana.

Məclisə gedirdi hər gün Zibeydə.

Söz-söhbət olurdu həmin bu evdə.

Sənan bəyənmirdi heç bir kimsəni.

Təntidmə, deyirdi, ay ana məni.

Evmi var, gətirim gəlini hara?

Gəl məni salma sən çətinə, dara.

Hər şeyin var, gözəl, doğru zamanı.

Gərək bir adamın ola imkanı.

Qulaq as,ay ana mənim sözümə.

İşləyim, ev alım, mən bir özümə.

Sonradan baxarıq həmin bu işə.

Darıxıb məni də salma təşvişə

***

Günlərin birində həmin bu Telnaz.

Dincəlmək istədi evində bir az.

Telnazın varıydı böyük qardaşı.

Qonaqlıq edərdi hər həftə başı.

Yığardı hamını evdə başına.

Göstəriş verərdi öz yoldaşına.

Yeməklər olurdu çox dadlı, ləziz.

Qonaqlar hamısı olduqca əziz.

Artıq şər qarışıb, düşmüşdü toran.

Onlara gedirdi Telnazla, Kənan.

Gördülər bu gündə məclis qurulub.

Hamının kefləri yaman durulub.

Telnaz anladı ki, burda nəsə var.

Səbəbsiz gəlməyib indi qonaqlar.

Qardaşı söylədi, yeni ev aldım.

Özümü bir qədər mən borca saldım.

Satmaq istəyirəm bu evimizi.

Borcdan qurtaracaq həmin ev bizi.

Dərin xəyallara dalmışdı Telnaz.

Susub danışmadı sakitcə bir az.

Nəhayət, özünü o, ələ aldı.

Söhbəti yenidən bu evdən saldı.

Gözünü zillədi öz yoldaşına.

Sözünü söylədi düz qardaşına.

Ev üçün bir qədər pul yığmışam mən.

Bu evi, bax, mənə satarsanmı sən?

Bilirsən kiçikdir bizim evimiz.

O evə yerləşə bilməyirik biz.

Qaynım evlənəcək günün birində.

Özümə ayrıca ev qurum mən də.

Mən verim əlimdə olan pulları.

Borcuna verərsən sən də onları.

Azacıq mən boşdu qalacam sənə.

Tezliklə düzəldib verəcəm yenə.

Qardaşı bu işə sevindi yaman.

Söylədi, çox gözəl fikirdi, inan.

Mənim də bir azca borcum qalıbdı.

Bu borc da bizləri dərdə salıbdı.

Heç kimdə pul yoxdu, mən də borc alım.

Ev satan kişini tez yola salım.

Pulun bir hissəsin əvvəl verərsən.

Köçüb öz işlərin rahat görərsən.

Əlinə nə vaxtsa pul düşən zaman.

Qalan borclarını qaytar sən o an.

Bilmirdi sevincdən nə etsin, Telnaz?

İşlər düzəlirdi, deyəsən, az-maz.

Yedilər, içdilər, deyib-güldülər.

Sevinc hisslərini birgə böldülər.

Aradan keçmişdi azca bir zaman.

Hədsiz sevinirdi Telnazgil, inan.

Artıq köçmüşdülər öz evlərinə.

Rahatlıq düşmüşdü tam əllərinə.

***

Sevdiyi oğlanla birlikdə Reyhan,

Görüşə gedirdi istədiyi an.

Gizli bir məhəbbət yaşıyırdılar.

Bu sirri ürəkdə daşıyırdılar.

Reyhan çox qorxurdu qardaşlarından.

Ehtiyat edirdi onunçün hər an.

Dərsdən çıxan zaman bir gedirdilər.

Onlar bir-birini seyr edirdilər.

Qurtarmaq bilmirdi onların sözü.

Hürkərək baxırdı hər yana gözü.

Natavan adında bir qonşu vardı.

Həmişə küçədə, yolda olardı.

Məktəbdə rus dili dərsi deyirdi.

Həmişə çox ciddi, təmiz geyirdi.

Varıydı yeganə, tək bir övladı.

Sevinc idi həmin o qızın adı.

Reyhan bu Sevinclə dostluq edirdi.

Çox zaman məktəbə birgə gedirdi.

Varıydı onların gediş-gəlişi.

Ürəklə görürdü qızlar ev işi.

Ancaq son zamanlar görüşmürdülər.

Nə də heç bir dərdi bölüşmürdülər.

Günlərin birində bir axşam çağı.

Natavan yığırdı tez-tez otağı.

Tələsik işləri görüb qurtardı.

Zibili tökməyə çölə apardı.

Gördü ki, dayanıb lap küncdə Reyhan.

Önündə durubdu, hündür bir oğlan.

Adamlar küçədə gəlib-gedirdi.

Onlar şirin-şirin söhbət edirdi.

Reyhan gah qızarıb, gah bozarırdı.

Əlini üzünə çox aparırdı.

Natavan hiss etdi bu qızla oğlan.

Hamıdan çəkinir, utanır bu an.

Bir azca dayanıb o, fikir etdi.

Sonra da onların yanına getdi.

Bu qonşu qadını görəndə Reyhan,

Özünü itirdi elə həmin an.

Əsməyə başladı al dodaqları.

Alma tək qızardı tez yanaqları.

İstədi toxdatsın Reyhan özünü.

Utandı, çəkmədi yerdən gözünü.

Natavan boylandı o yan, bu yana.

Yavaşdan söyləyib, dedi, Reyhana.

Mənim gözəl qızım, gözəl Reyhanım.

Sənə qurban olsun, bu şirin canım.

Bilirsən xətrini istəyirəm mən.

Sevincə lap əziz bir bacısan sən.

Xətrini istərəm mən qağlar qədər.

Allahım verməsin sənə bir kədər.

Mən razı olmaram, yolda qalasan.

Oğlanı həyətdən yola salasan.

Deyirəm, ölməyib sənin bu xalan.

Gəlin gedək evə, elə bax, bu an.

Keçib evimizdə oturarsız siz.

Əyləşib rahatca söhbət edərsiz.

Kimsənin bu işdən olmaz xəbəri.

Ehmallı tutarıq bütün işləri.

Bu sirri heç kimə demərəm, inan.

Oğlanın qeydinə qalarsan hər an.

Reyhan fikirləşdi, düşündü bir az.

Söylədi, bu işin qorxusu olmaz.

Oğlanla tutdular onlar əl-ələ.

Söylədilər düz deyir, qonşu elə.

Natavan tez düşdü özü qabağa.

Onları gətirdi kiçik otağa.

Doğrusu, otaq yox, bir zirzəmiydi.

Qaranlıq, darıskal türmə kimiydi.

İçində varıydı çox kartof, soğan.

Onlara yer etdi orda Natavan.

Söylədi, siz burda söhbət edərsiz.

Nə vaxt istəsəniz çıxıb gedərsiz.

Qapını örtərək o, çölə çıxdı.

Möhkəm bağlayaraq onu kip sıxdı.

Açarla qapını tezcə bağladı.

Sonra da çibində gizli saxladı.

Natavan həyətdə oturdu bir az.

Düşünüb dedi ki, bu belə olmaz.

Zibeydə xanımın getdi yanına.

Od qoydu qonşunun şirin canına.

Sənə bir sözüm var, dedi, ay bacı.

Bu xəbər olduqca acıdır, acı.

Bir parça uşaqdı, deyirəm, Reyhan.

Onunla fırlanır sevdiyi oğlan.

Həmişə hər yerə birgə gedirlər.

Görüşüb birlikdə söhbət edirlər.

Utanmır, bu qızın, eldən, obadan.

Oğlanla bir yerdə oturub bu an.

İnanmırsan əgər mənim sözümə,

Gəl gedək, göstərim, inan, gözünə.

Sənan uzanmışdı, evdə divanda.

Ayağa sıçradı eşidən anda.

Tələsik o, keçdi həmin otağa.

Bir az da irəli durdu qabağa.

De görüm, bu nədi deyirsən, xala?

Az qaldı sözlərin canımı ala.

İnana bilmərəm, sənin sözünə.

Ancaq inanaram mən öz gözümə.

Zibeydə yerində donub qalmışdı.

Üzünə bir qorxu kölgə salmışdı.

Üçü də tələsik çıxdı qapıdan.

Ananın ürəyi əsirdi o an.

Ayağı dəyirdi, ağaca, daşa.

Qonşuya gəldilər onlar birbaşa.

Cibindən çıxartdı arvad açarı.

Tələsik içəri saldı onları.

Sənanın tükləri dim-dik dururdu.

Ürəyi sürətlə möhkəm vururdu.

Onları görəndə yumdu gözünü.

Qəfildən itirdi sanki özünü.

Əvvəlcə oğlana bir şillə vurdu.

Sonra da Reyhanın önündə durdu.

Yapışdı saçından vurdu divara.

Bilmirdi yumruqlar heç dəyir hara.

Yerdən-yerə dəydi Reyhanın başı.

Pələngə dönmüşdü onun qardaşı.

Yıxılmışdı artıq yerə, o Reyhan.

Bilmirdi, Zibeydə neyləsin bu an.

Aləmi bürüyüb axırdı qanı,

Kömürtək qaralıb yanmışdı canı.

Təpiklər dəyirdi qabırğasına.

Sığınmaq istədi qız anasına.

Anadır, dözmədi onun ürəyi.

Heç yerdən yoxuydu qızın köməyi.

Dözmədi, o keçdi aralarına.

Sarıldı qızının yaralarına.

Artıq şillə, təpik ona dəyirdi.

Ana yalvarırdı, boynun əyirdi.

Deyirdi, keç onun sən günahından.

Qurtara bilməzsən heç vaxt ahından.

Ay oğul, uşaqdır, o, səhv eyləyib.

Mənə heç bir kəlmə söz də deməyib.

Yerdə hərəkətsiz qalmışdı Reyhan.

Zibeydə özünü döyürdü o an.

Heç nəyi görmürdü Sənanın gözü.

Reyhanı bayıra atdı tez özü.

Tələsik gəldilər evə birbaşa.

Baxmırdı gözlərdən tökülən yaşa.

Zibeydə su səpdi qızın üzünə.

Dikilib qalmışdı gözü-gözünə.

Buzlu su qoymuşdu qızın dizinə.

Güc ilə gətirdi onu özünə.

Reyhanın üz-gözü yaralanmışdı.

Kəlləsi arxadan paralanmışdı.

Zibeydə boylandi, o yan, bu yana.

Sonunda Telnazı çağırdı ana.

Telnaz tez yetirdi ora özünü.

Qorxdu o, görəndə onun üzünü.

Ay ana, nə olub axı Reyhana?

Hər tərəf batıbdı qırmızı qana.

Zibeydə söylədi olub-keçəni.

Dedi ki, Natavan yandırdı məni.

Axı nə düşmüşdü, bu Natavana?

Söylədi, hər şeyi gəlib Sənana.

Xəlvətcə deyərdi mənim özümə.

Hər şeyi o, soxdu indi gözümə.

Telnaz tez Reyhana eylədi yardım.

Gördü ki, atammır o, bircə addım.

Bağladı Reyhanın yaralarını.

Sildi üz-gözünün qaralarını.

Apardı Reyhanı öz otağına.

Uzatdı ehmalca tez yatağına.

Reyhan bu yataqdan qalxa bilmədi.

Ürəkdən heç zaman daha gülmədi.

Ondakı o şuxluq artıq yox oldu.

Ürəyi kədərlə, qəm ilə doldu.

Bircə gün rahat bir nəfəs almadı.

Oğlanı o, daha yada salmadı.

Arıqlayıb çöpə dönmüşdü, Reyhan.

Canı ağrıyırdı, onun hər zaman.

Heç zaman əmələ gəlməyirdi qız.

Uzanıb qalırdı, otaqda yalqız.

Onun bu halını görəndə Telnaz,

İstədi havaya çıxartsın bir az.

Gördü ki, heç onun qalmayıb halı.

Getdikcə dəyişir qızın əhvalı.

Onu götürdülər xəstəxanaya.

Böyük bir zərbəydi, bunlar anaya.

Qızı yoxladılar, verdilər qərar.

Dedilər, daxilə qan sızması var.

Yazdılar nə qədər dava-dərmanı.

Ancaq sağalmadı Reyhanın canı.

Daxili orqanlar zədə almışdı.

Zərbələr daxildə izlər salmışdı.

İçəri sızan qan çirk eyləmişdi.

Daxildə orqanlar hamsı şişmişdi.

Heç nəyin olmadı ona əlacı.

Bir xəbər yayıldı, olduqca acı.

Günlərin birində ana oyandı.

Reyhnın yanında gəlib dayandı.

Gördü ki, çıxmayır qızdan səs-səmir.

Dayanıb ürəyi, nəfəsi gəlmir.

Şoka düşdü artıq özü, Zibeydə,

Qışqırıb aləmi oyatdı evdə.

Hamı yığılırdı həmin otağa.

Ağlayıb, baxırdı orda yatağa.

Elə bil sakitcə yatırdı Reyhan.

Heç kimdən xəbəri yoxuydu bu an.

Az qaldı, ananın dursun ürəyi.

Bildi ki, heç nədən yoxdu köməyi.

Qaynar su töküldü sanki başından.

Sinəsi islandı gələn yaşından.

Kənarda dayanıb baxırdı, Sənan.

Gözyaşı su kimi axırdı, unan.

Zibeydə görəndə orda Sənanı,

Daha da odlandı, alışdı canı.

Söylədi: gəl, dincəl, indi, ay Sənan.

Artıq bu həyatdan gedibdi Reyhan.

Bax, onu döyməklə öldürübsən sən.

Bunu əminliklə söyləyirəm mən.

Nə idi balamın, axı, günahı?

Tutacaq səni də çəkdiyi ahı.

Hər şeyin yeri var, öz təhəri var.

Adamın ölmünə döyməkmi olar?

Allah lənət etsin, o Natavana.

Dünya bir yanaydı, Reyhan bir yana.

Qoy mənim sağ əlim olsun başına.

Soyuq su qatılsın onun aşına.

Görsün ki, necədir, bax, bala dağı.

Mənim tək söyləsin Natavan ağı.

Ananın ürəyi sanki yanmışdı.

Ağac tək quruyub orda qalmışdı.

Zibeydə Reyhana layla çalırdı.

Qışqırıb aləmə haray salırdı.

Yoxuydu heç nəyin daha faydası.

Tətbiq olunurdu yasın qaydası.

Nəhayət, yetişdi getmə zamanı.

Saxlamaq olmurdu daha ananı.

Güc ilə Reyhanı ondan aldılar.

Artıq məzarlığa yola saldılar.

***

Aradan keçmişdi bir xeyli zaman.

Dayanıb, susmurdu, Zibeydə bir an.

İmkanı olan tək bircə anlığa,

Bu qadın gedirdi qəbirsanlığa.

Unuda bilmirdi ana, Reyhanı.

Məzarın yanında qalırdı canı.

Daşı qucaqlayıb, əzizləyirdi.

Orada Reyhanı o gözləyirdi.

Doğrudan, Reyhan da dönmüşdü daşa.

Baxmırdı gözündən tökülən yaşa.

Susurdu, dinmirdi həm danışmırdı.

Anayla heç cürə o barışmırdı.

Günahkar görürdü həm Zibeydəni.

Nədən öldürdünüz, deyirdi, məni?

***

Günlərin birində gördü Zibeydə.

Musiqi çalınır o qonşu evdə.

Dedilər, veribdi qızı, Natavan!

Çalıb, oynayırlar, bax, elə bu an.

Zibeydə itirdi əvvəl özünü.

Ehmalca sildi o, nəmli gözünü.

Allah xeyir versin, dedi, Sevincə.

Eşitdim xəbəri elə indicə.

Çox pislik eylədi Natavan mənə.

Mən xeyir-duamı verirəm yenə.

***

Günlər yavaş-yavaş keçib gedirdi.

Aylar bir-birini əvəz edirdi.

Günlərin birində onlar toy etdi.

Oğlangil Sevinci götürüb getdi.

Natavan Sevincçün çox darıxırdı.

O gedən yollara tez-tez baxırdı.

Evdə tək qalmışdı daha Natavan.

Qızgilə gedirdi o da çox zaman.

Sevincin günləri çox xoş keçirdi.

Anayla birlikdə yeyib-içirdi.

Sevincin bətnində vardı körpəsi.

Bu da sevindirdi orda hər kəsi.

Günlərin birində vaxt tamam oldu.

Uşağın yetişmə zamanı doldu.

Artıq gəlib çatdı doğum zamanı.

Artmışdı Sevincin tez həyəcanı.

Həkimlər növbəylə gəlib dururdu.

Sevincə nə qədər iynə vururdu.

Getdikcə artırdı onun sancısı.

Çoxalırdı qızın ağrı-acısı.

Həkimlər durmadan çalışırdılar.

Səmada ulduzlar sayrışırdılar.

Çöldə də artırdı daha qaranlıq.

Həyat dayanmışdı, sanki, bir anlıq.

Getdikcə vəziyyət ağırlaşırdı.

Həyəcan daha da aşıb-daşırdı.

Həkimlər deyirdi, güc ver, Sevincə.

Düşəcək yoluna hər şey indicə.

Birdən bu Sevincin kəsildi səsi.

Bir yolluq dayandı onun nəfəsi.

Həkimlər düşdülər tez əl-ayağa.

Sevinci çəkdilər bir az qabağa.

Hər cürə yardımı etdilər ona.

Bu qızın həyatı çatmışdı sona.

Heç nəyin olmadı ona köməyi.

Puç oldu hər kəsın sonda əməyi.

Körpə də ölmüşdü həmin o anda.

Hərəkət yoxuydu hər iki canda.

Natavan bilmirdi olub-keçəni.

Çöldə gözləyirdi təzə körpəni.

Həyətdə gedirdi o baş, bu başa.

Bilmirdi arzular dəyibdi daşa.

Üstəlik qızı da gedib əlindən.

Yoxuydu xəbəri ölən gəlindən.

Gördü ki, heç kəsdən çıxmır səs-səmir.

Ordakı doğuşdan xəbər də gəlmir.

Heç kimsə dəymirdi orda gözünə.

Narahat olurdu özü-özünə.

Artıq, az qalırdı, açılsın səhər.

Güc ilə dururdu çöldə birtəhər.

Nəhayət, dözmədi ana ürəyi.

Hamıdan umurdu ona köməyi.

Sonunda qışqırıb hay-haray saldı.

Axırda onlardan bir xəbər aldı.

Kaş ki, bu xəbəri heç almayaydı.

Qızından aralı o qalmayaydı.

Ananın o saat getdi ürəyi.

Heç nəyin olmadı ona köməyi.

Onun tək balası artıq getmişdi.

Ömürlük ananı o, tərk etmişdi.

Ananın ağzında dili də yandı.

Özünü biryolluq o, ölü sandı.

Heç nəyin yoxuydu daha mənası.

Yaşaya bilərmi onun anası?

***

Ən ağır bir dərddir, övlad yarası.

Heç kimin ölməsin heç vaxt balası.

Natavan hər zaman hey ağlayırdı.

Başına qapqara şal bağlayırdı.

Bir gün o ağladı özü-özünə.

Allahım, qulaq as, dedi, sözümə.

De görüm, nə idi mənim günahım?

Yandırır aləmi çəkdiyim ahım.

Nədən sən balamı əlimdən aldın?

Məni bu günlərə, de, nədən saldın?

Natavan özünü yatağa atdı.

Ağlayıb-ağlayıb ordaca yatdı.

O, sual edirdi özü-özünə.

Bir kişi göründü onun gözünə.

Qar kimi ağıydı kişinin başı.

Yüzə yaxınıydı elə bil yaşı.

Kişinin üzündən nur süzülürdü.

İnci tək aləmə tez düzülürdü.

Əynində varıydı qar kimi xalat.

Sürətlə gedirdi altındakı at.

Boylandı o yana, bir də bu yana.

Kişi yaxınlaşdı tez Natavana.

Söylədi,: baxıram, gözün yaşına.

Bu qədər iş gəldi sənin başına.

Anlaya bilmədin günahını sən.

Bəs necə anladım onu sənə mən?

De görüm, Reyhanın nədir günahı?

Çünki tutub səni o qızın ahı.

Reyhanı balıq tək sən tora saldın.

Aldadıb sən ondan nə qisas aldın.

Günaha batırdın həm qardaşını,

Həm də ki, axıtdın gözün yaşını.

İşıqlı dünyada yandı anası.

Onların sənlə nə idi davası?

Bax, ona görə də cəzalandın sən.

Gəlmişəm bunları söyləməyə mən.

Deməli, bilmirsən, sən günahını.

Üstəlik səslədin öz Allahını.

Bax, ona görə də cəzalanıbsan.

Zibeydə düşdüyü hala qalıbsan.

Sən necə yandırdın, gör, Zibeydənı?

Onunçün yandırdı Yaradan səni.

Natavan tələsik açdı gözünü.

Qorxudan itirdi tamam özünü.

Hər yana boylanmaq oldu ilk işi.

Baxdı ki, nə at var, nə də ki, kişi.

Axır ki, anladı o, Zibeydənı.

Allahım günahkar bilibdi məni.

Tutduğum o işə olmuşam peşman.

Peşmanlıq bir fayda verməyir bu an.

***

Sənan istəmirdi ölsün bacısı.

Qəlbindən çıxmırdı bir an acısı.

Ağlına gəlmirdi, heç ölər, Reyhan.

Günahkar olmuşdu ömürlük, inan.

Görürdü hər gündə ana ağlayır.

Gözündən bulaq tək yaşlar qaynayır.

Evdən kəsilmişdi Reyhanın səsi.

İsitmirdi evi onun nəfəsi.

Evin şənliyini apardı Reyhan.

Qəm-kədər varıydı bu evdə hər an.

Elə bil bacısı köç edən zaman,

Hər şeyi özüylə apardı, inan.

Ananın naləsi göyə qalxırdı.

Gözündən həmisə yaşlar axırdı.

Qalmadı bu evdə heç nəyin dadı.

Ananın dilindən düşmürdü adı.

Reyhanın yoxluğu onu üzürdü.

Hər gündə qəbrinə çiçək düzürdü.

Heç bir şey Reyhanı əvəz etmirdi.

Xəyalı gözündən bir an getmirdi.

Bulud tək hər gündə ana dolurdu.

Sussuz çiçək kimi hər an solurdu.

Sənanın gözləri önündə ana.

Gündəcə olurdu əhvalı fəna.

Özünə heç gələ bilmirdi Sənan.

Çox peşman olurdu bu işə hər an.

Əfsuslar olsun ki, dönmürdü Reyhan.

O da ağlayırdı gizli çox zaman.

***

Artıq il üstündən keçirdi illər.

Açılır, solurdu hər yanda güllər.

Həyat axarıyl davam edirdi.

Hərə öz işinə çıxıb gedirdi.

Bir gün işdən evə dönəndə Sənan.

Bir qızı gördü o, elə həmin an.

Elə bil Sənanı cərəyan vurdu.

Gözündə qığılcım oynadı, durdu.

Sənan itirmişdi tamam özünü.

O, cəkə bilmirdi qızdan gözünü.

Sual eyləyirdi özü-özünə.

İnana bilmirdi heç cür gözünə.

Axı kimdir görən bu gözəl pəri?

Harda keçiribdi ötən illəri?

Qarşıma çıxmayıb mənim heç zaman.

Heykəltək dayanıb baxırdı Sənan.

Qəfildən qaldırdı bu qız başını.

Gülümsəyib çatdı, incə qaşını.

O, naz eyləyərək, keçdi yanından.

Od çıxdı Sənanın sankı canından.

Qızın arxasınca bir nəzər saldı.

Bu işə özü lap məətəl qaldı.

Hardan tanıyırdı Sənan Ceyranı?

Qız şoka salmışdı, sanki, Sənanı.

Oğlan gəldi evə, gördü ki, evdə,

Fırlanıb, iş görür təkcə Zibeydə.

Sakitcə o keçdi tez otağına.

Ehmalca uzandı öz yatağına.

Suallar baş alıb artıq gedirdi.

O qızın fikrini oğlan edirdi.

Anadan utanıb ehtiyat etdi.

Xəyallar içində yuxuya getdi.

Anası gördü ki, gəlmədi Sənan.

Tələsik dalınca getdi həmin an.

Gördü ki, yatıbdı onun Sənanı.

Rahatlıq tapıbdı, deyəsən, canı.

Üstünə ehmalca atdı bir yorğan.

Dünyadan xəbərsiz yatırdı oğlan.

***

Hər gündə bu oğlan fikrə dalırdı.

Xəyallar içində itib qalırdı.

Günlərin birində gördü ki, Sənan.

Qapıda həmin qız göründü bir an.

İnana bilmədi Sənan gözünə.

Qız gəlib çıxmışdı özü-özünə.

Həyətə çağırdı qız, Zibeydəni.

Anam göndəribdi, söylədi, məni.

Qonşular hamısı toplasıb bizə.

Yığışıb gəliblər düz evimizə.

Simovar qaynayıb çay dəmlənibdi.

Ev-eşik, hər tərəf çox şənlənibdi.

Anam söyləyir ki, gəlsin Zibeydə,

Birlikdə oturaq qoy bizim evdə.

Bizimlə danışsın, gülsün o, bir az.

Bu qədər özünə qapanmaq olmaz.

Zibeydə boylandı o yan, bu yana.

Üzünü çevirdi gözəl Ceyrana.

Bu gün yox, başqa gün gələrəm sizə.

Çox şərəf verdiniz, olduqca, bizə.

Salam söylə məndən, sən öz anana.

Çatdır sözlərimi mənlə yanana.

Ceyran sağollaşıb onlardan getdi.

Bir anda onları bu qız tərk etdi.

Zibeydə gördü ki, boylanır Sənan.

Ağlına gəldi ki, elə həmin an,

Bəlkə bəyənibdi oğlu, o qızı.

Çünki onun rəngi olmuş qırmızı.

Zibeydə söylədi oğlu Sənana,

Sən nədən baxırsan o yan, bu yana?

O bizim qonşunun qızı Ceyrandı.

Hamı bu Ceyrana, vallah, heyrandı.

Ay oğul, yığılaq məsləhət edək.

İstəsən o, qıza biz elçi gedək.

Ay Sənan, qalmayıb heç taqət məndə.

Elə ona görə bir tərpən sən də.

Evin şənliyini apardı Reyhan.

Unuda bilmirəm onu heç zaman.

Evlənmək vaxtındır sənin, ay bala.

Onsuz da hər şeydən qalmışıq dala.

Reyhanın ölümü məhv etdi bizi.

İndi evləndirək o qızla sizi.

Həyat əbədidir, qısadı ömür.

İnsanlar doğulur, bir yandan ölür.

Yəqin ki, tükənir mənim zamanım.

Səni evləndirim rahat uzanım.

İstəmirəm səndən gedəm nigaran.

Sənə qurban olsun bu bədbəxt anan.

Sənan dillənmədi, sakit dayandı.

Xəcalət çəkərək yaman utandı.

İstədi toplasın bir az özünü,

Anaya söyləsin o da sözünü.

İstədi söyləsin, ürəyimdəndi.

Bu qız sən istəyən, həm mən deyəndi.

Ancaq yer yarılsa, girərdi yerə.

Qızlar istəyərdi getsinlər ərə.

Onlardan biri də öz bacısıydı.

Bacının yoxluğu qəlb acısıydı.

Yoxuydu Reyhanın, axı, günahı.

Nə dünya malında, onun tamahı.

Ancaq istəyirdi ailə qursun.

Sevdiyi insanla bərabər dursun.

Dünyaya gətirsin öz övladını.

Həvəslə böyütsün, qoysun adını.

İstədi o dadsın sevgi dadını.

Olsun öz evinin gözəl qadını.

Qardaşı heç ona vermədi imkan.

Bilən tək məhv etdi hər şeyi o an.

***

Həmişə çəkirdi Sənan peşmanlıq.

Yadından çıxmırdı Reyhan bir anlıq.

Sonrakı peşmanlıq vermirdi fayda.

Ziyarət edirdi qəbri hər ayda.

Məzarın önündə o dayanırdı.

Xəcalət hissləri lap oyanırdı.

Bir gün o özünə verdi bir qərar.

Bu haqda düşünmək nə qədər olar?

Xəcalət hissləri məhv etdi məni.

Günüm gün deyil ki, Reyhan öləni.

Son dəfə gedəcəm qəbirsanlığa.

İçimi tökəcəm mən bir anlığa.

Heç bir şey görünmür mənim gözümə.

Hər şeyi, deyəcəm, onun özünə.

Axı səhv etmişdi, Reyhanın özü.

Heç nəyi gömürdü o qızın gözü.

Qayda-qanunlara əməl etmədi.

Elin adətiylə Reyhan getmədi.

Gedib oxuyaydı o, dərslərini.

Bu qədər günaha salmazdı məni.

Evlənmək zamanı deyildi hələ.

Üstəlik qonşu da qurdu bir tələ.

Hər şeyin özünün vardı zamanı.

Sevəsi deyildi hələ oğlanı.

Onun bu işlərə çatmırdı yaşı.

Bununçün bəlalar çəkdi o, başı.

***

Dayanıb, düşündü o, bir anlığa.

Üz tutdu sonradan qəbirsanlığa.

Fikirli-fikirli yolla gedirdi.

Heç özü bilmirdi o, nə edirdi.

Sənan öz-özünə gah danışırdı.

Taleyindən küsür, gah barışırdı.

Nəhayət, o çatdı qəbirsanlığa.

Soyuq bir tər basdı, düz bir anlığa.

Boylandı o yana, gah da bu yana.

Qəribə bir səslər gəldi Sənana.

Güclü bir vahimə oğlanı basdı.

Gələn o səslərə o, qulaq asdı.

Anlaya bilmədi olub-keçəni.

Düşündü vahimə basıbdı məni.

Baxdı ki, hər tərəf məzar daşıdı.

Yanağı isladan öz göz yaşıdı.

Gözünün yaşları sel tək axırdı.

Daşların birindən Reyhan baxırdı.

Sənan qucaqladı həmin o daşı.

Daşı islatmışdı gözünün yaşı.

Sonradan topladı artıq özünü.

Reyhana söylədi bütün sözünü.

Bu qızdan çıxmadı bircə kəlmə söz.

Sakitcə baxırdı, şəkildəki göz.

Susdu, danışmadı, Sənan da birdən.

Sanki bir səs gəldı ona qəfildən.

Sanki daşların hamısı yelləndi.

Ən yaxın olanı birdən dilləndi.

Söylədi, ay oğul, küsübdü səndən.

Bunları söyləmək qoy olsun məndən.

Bir sual verəcəm indi mən sənə.

Gərək cavabını verəsən mənə.

Sənə kim veribdi, bu ixtiyarı?

Dünyadan yox etdin gözəl bir yarı.

Sən ey, bu Allahın gözəl bəndəsi.

Allahım yaradıb burda hər kəsi.

Gəlib bu dünyaya o gözəl insan.

Bütün bu gözəllikdən hər kəs dadsın.

Sən məhrum eylədin onu həyatdan.

Bir azdan çıxacaq bunlar da yaddan.

Bəs niyə evlənmək istəyirsən sən?

Səhvini görmürsən, axı, deyəsən?

Sənintək Reyhan da axı, insandır.

Onunku can deyil, sənինki candır?

Sənan dik qaldırdı tezcə başını.

Əliylə sildi o axan yaşını.

Titrəyirdi onun əli, ayağı.

Az qala görmürdü gözü qabağı.

Sənan itirmişdi artıq özünü.

Tələşla döyürdü tez-tez gözünü.

Nəhayət, özünü o ələ aldı.

Həm də ki, tələsik maşına saldı.

***

O bir az boylandı sağa, gah sola.

Ehmalca düzəldi sonradan yola.

Hər tərəf olmuşdu tamam qaranlıq.

Qaraltı göründü ona bir anlıq.

Nə qədər irəli getmişdi Sənan.

Maşını döndərdi elə həmin an.

İşığı yandırıb saldı hər yana.

Gözləri sataşdı kiçik oğlana.

Bir qızın əlindən tutmuşdu oğlan.

Dayanıb Sənana baxırdı o an.

Bu qızın olardı düz üç-dörd yaşı.

Böyük görsənirdi ondan qardaşı.

Sənan inanmadı artıq gözünə.

Məəttəl qalmışdı özü-özünə.

Hər tərəf adamsız, qaranlıq gecə.

Uşaqlar oraya düşmüşdü necə?

Maşını saxlayıb soruşdu ki, siz,

Bu vədə burada neyləyirsiniz?

Dedilər, gedirik evimizə biz.

Yaxında yerləşir bizim evimiz.

Sənan boylanırdı o yan, bu yana.

Üzünü çevirdi qızla, oğlana.

Əgər tanısaydız siz evinizi,

Aparıb qoyardım oraya sizi.

Dedilər, yolları göstərərik biz.

Həmin o yollarla gedərsiniz siz.

Onlardan adını soruşdu Sənan.

Adını söylədi onlar həmin an.

Uşaqlar yol boyu bələdlik etdi.

Sənan da həmin o yollarla getdi.

Nəhayət, çatdılar mənzil başına.

Qızcığaz tez baxdı öz qardaşına.

Tutdular əl-ələ onlar yenidən.

Qapını açaraq düşdülər birdən.

Evin qapısında çadır qurmuşlar.

Hər yerə qaralar asıb, vurmuşlar.

Adamlar yığılıb söhbət edirdi.

O başa, bu başa var-gəl edirdi.

Uşaqlar kəsə bir yolu seçdilər.

Adamlar yanından sakit keçdilər.

İçəri keçdilər onlar qapıdan.

Maşını fırladıb dayandı Sənan.

Soruşdu onlardan burda nə olub?

Kədər, qəm hamının içinə dolub.

Ehmalca bir kişi keçdi qabağa.

Gözünü zillədi xeyli uzağa.

Gördüyün bu evdə olur bir kişi.

Müşgülə düşübdü yazığın işi.

Kişinin varıydı iki övladı.

Bilmədi övladın necədi dadı?

Bir maşın onların bir gün qəfildən,

Üstündən kecmişdi ikisinin birdən.

Həm qızı, həm oğlu yox olub getdi.

Bu işlər hamını çox məyus etdi.

Sənanın gözləri şəklə sataşdı.

Onun həyəcanı lap aşdı-daşdı.

Oğlan mat qalmışdı özü-özünə.

İnana bilmədi ancaq gözünə.

Həmin uşaqların şəkilləriydi.

Axı o uşaqlar indi diriydi.

And-aman eylədi, bu zaman oğlan.

Onları bu evə gətirdim bu an.

Özləri göstərdi bu yolu mənə.

Onları gətirdim, deyirəm, sənə.

Axı kor deyil ki, mənim bu gözüm.

İçəri keçirtdim indicə özüm.

Onları gətirib gəlmişəm indi.

Məni görən zaman onlar sevindi.

Görmüşdüm onları yol kənarında.

Ürəyim dözməzdi mənim bir anda.

Mindirdim onları mən tez maşına.

Gətirdim şəhərin, bax, bu başına.

Kişi dilləndi ki, xarabdı başın?

Deyirəm, onları vurubdu maşın.

Yenə de deyirsən, elə sözünü.

Sabah get, həkimə göstər özünü.

Bu zaman küçədə aləm qatışdı.

Hamı bir-biriylə sözlə dartışdı.

Molla da söhbətə qulaq asırdı.

Kənarda səbrini güclə basırdı.

Nəhayət, qoşuldu bu hay-haraya.

Bilmədi heç necə girdi araya.

Səsini ucaltdı kişi bir qədər.

Boğurdu mollanı acı bir qəhər.

Söylədi, dayan, söz güləşdirməyin.

Düzünü sizlərə deyəcəyəm mən.

Onları doğurdan maşın vurubdu.

Bu gecə ruhları yolda durubdu.

Sənlə bura gələn həmin ruhlardır.

Dünyada nə qədər möcüzə vardır.

***

Heç gələ bilmirdi, Sənan, özünə.

İnana bilmirdi nə də gözünə.

Deyirdi, Allahım, gördüm möcüzə.

Bu axşam nə ilə gəldim üz-üzə?

Axı mən onları gördüm gözümlə?

Bacara bilmirəm daha özümlə.

Sənanı görəndə ana mat qaldı.

Özünü Sənanın üstünə saldı.

Nə olub, ay bala, de görüm, sənə?

İncitmə, düzünü söylə, bax, mənə.

Nə günə düşübdü rəngin, ay Sənan?

Elə bil üzündə qalmayıbdı qan.

Söylədi bu oğlan olub-keçəni.

Unuda bilmədi heç vaxt gecəni.

Zibeydə qorxuya düşdü doğrudan.

Nə günə düşübdü bu axşam oğlan.

Ruh nədi nə deyir, bu nə danışır?

Beynində fikirlər yəqin qarışır.

Ay oğul, yaxşıca sən düşün, daşın.

Kədərdən deyəsən pozulub başın.

Gəl, evlən, sənin də açılsın eynin.

Kədərli işlərlə yoruldu beynin.

Bu işdən dəhşətə gəlmişdi Sənan.

Hadisə çıxmırdı yadından bir an.

Xəsdələndi Sənan yatdı yataqda.

Bir müddət uzandı sakit otaqda.

O, evdən çıxmadı bir müddət çölə.

Atası əsəbdən, az qaldı, ölə.

Çatdırdı Sənana bir gün özünü.

Söylədi ürəkdən gələn sözünü.

Bu nədir, ay bala, sən nə edirsən?

Günlərdir burada fikrə gedirsən.

Mənim tək bir atan, bax, ola-ola,

Heç nəyin fikrini eyləmə, bala.

O günlər söylədi bu anan mənə,

Gözəl qız tapıbdı qonşudan sənə.

Gəl, otur bizimlə məsləhət edək.

Qonşumuz Ceyrana biz elçı gedək.

Onu da söyləyib, dedi ki, anan.

Bilirəm razıdı bu işə Sənan.

www.kitabxana.net Milli Virtual-Elektron
Kitabxananın təqdimatında

***

Aradan keçmişdi bir xeyli zaman.

Artıq görüşürdü Sənanla Ceyran.

Ürəkdən sevirdi oğlan, Ceyranı.

Bu qıza bağlıydı elə bil canı.

Getdikcə artırdı onun ilgisi.

Aləmlə biriydi daha sevgisi.

Ceyran da sevirdi onun özünü.

Görmək istəyirdi hər an üzünü.

Qız elə bilirdi, olmasa, Sənan.

Dünya məhv olacaq, sanki, həmən an.

Çox vaxt düşünürdü, yumub gözünü.

Təsəvvür etmirdi onsuz özünü.

***

Günlərin birində bir axşam çağı.

Maşınla dolmuşdu, evin qabağı.

Ceyranın artırdı lap həyəcanı.

Çoxdan gözləyirdi həmin bu anı.

Həmin o gündür ki, o gözləyirdi.

Həsrətlə Sənanı hey izləyirdi.

Ceyranın arzusu bu gün çin oldu.

Ürəyi sevinclə, fərəhlə doldu.

Üzük gətirirdi onlar Ceyrana.

Bu xəbər yayıldı, o an hər yana.

Nəhayət, o məclis, artıq, quruldu.

Onların kefləri yaman duruldu.

Yedilər, içdilər, şadlıq etdilər.

Üzüyü taxdılar, sonra getdilər.

Olduqca çox gözəl məclis keçmişdi.

Ceyran öz yarını artıq seçmişdi.

Yoxuydu, sevincin həddi-hüdudu.

Düşündü, xoşbəxtlik, bax, elə budu.

Ceyran keçdi sonda öz otağına.

Rahatca uzandı tez yatağına.

Sevincdən yummurdu Ceyran gözünü.

Xəyallar içində gördü özünü.

Üzükdə qalmışdı, elə bil, gözü.

Ayrıla bilmirdi üzükdən özü.

Sevinclə baxırdı qız barmağına.

Sürtürdü əlini öz dodağına.

Arada üzüyü tumarlayırdı.

Sanki xoşbəxtliyi haraylayırdı.

Bu gecə nə qədər xəyallar qurdu.

Gözünün önündə çox şeylər durdu.

Arada, bir azca, yumdu gözünü.

Gəlinlik donunda gördü özünü.

Xəyala daldıqca, dalırdı, Ceyran.

Ayrıla bilmirdi, xəyaldan bir an.

Dünyanın xoşbəxti bildi özünü.

Xəyallar içində yumdu gözünü.

***

Qaranlıq çəkildi, sabah açıldı.

Aləmə nur kimi işıq saçıldı.

Günəş boylanırdı indi səmadan.

Sərin meh əsirdi artıq durmadan.

Telefon zənginə oyandı, Ceyran.

Gördü zəng eyləyir sevdiyi oğlan.

Nişanlı qız kimi yuxudan durdu.

Gözləri önündə üzük bərq vurdu.

Bu zənglər hər gündə davam edirdi.

Hərə öz işinə çıxıb gedirdi.

Artıq yetişirdi toyun zamanı.

Boş görmək olmurdu heç vaxt Ceyranı.

Anası qızına cehiz alırdı.

Yorğan sırıyırdı, döşək salırdı.

Axşam da onların vardı qonağı.

Qudalar gəlirdi bu toy qabağı.

Hər yerə düşmüşdü daha qaranlıq.

Artıq başlamışdı evdə qonaqlıq.

Onlar təyin etdi toy zamanını.

Həm qeyd eylədilər həmin anını.

Son sözü verdilər ev yiyəsinə.

Əlini qoydu o, düz sinəsinə.

Qürurla boylandı kişi ətrafa.

Söz aldı, ayağa durdu, Mustafa.

Söylədi, bilirsiz, var adətimiz.

Başlıq pullarını verməlisiz siz.

Beş min istəyirəm mən Ceyranıma.

Çox deyil, and olsun, mənim canıma.

Əzabla böyütdüm bu qızımı mən.

Haqqıma düşəni verməlisən sən.

Nə qədər cehizlik almalıyıq biz.

Bunları hamınız yaxşı bilirsiz.

Dərin bir səssizlik çökdü ətrafa.

Ancaq danışırdı hələ Mustafa.

Sənanın atası buna mat qaldı.

Qızardı, rəng verib, kişi rəng aldı.

Söylədi, Mustafa, sən nə deyirsən?

Bu qədər pulları hardan alım mən?

Bunların hamısı keçmişdə qalıb.

Onları zəmanə həm dəbdən salıb.

Nə gəzir o qədər məndə pul-para?

Mən verən deyiləm, getsən də hara.

Sən qızı böyütdün, mən də oğlanı.

Sağ olsun, deyirəm, onların canı.

Yerdən çıxmayıb ki, mənim Sənanım?

Onunçün gör nələr çəkibdi canım?

Mən də böyütmüşəm çox əziyyətlə.

Barışa bilmirəm bu vəziyyətlə.

Sən köhnə fikirdən əl çək, ay kişi.

Pul üstə pozma, bax, gəl, bizim işi.

Mustafa acıqlı görkəm almışdı.

Qudanın sözünə çox mat qalmışdı.

Başlıqsız qızımı verməyəcəm mən.

Məsləhət sənindir, özün bilərsən.

Kimdən əskikdir ki, mənim Ceyranım?

Böyütdüm, ağıllı, gözəl bir xanım.

Hamı öz qızına başlıq alacaq,

Mustafa başlıqsız yola salacaq?

Əgər gətirsəniz dediyim pulu,

Sizə söz deyəmməz, bir Allah qulu.

Dediyim pulları gətirərsiniz.

O zaman qızımı götürərsiniz.

Getdikcə qızışdı bu pul söhbəti.

Onlar ayaqladı xətir, hörməti.

Daha da uzandı pulun davası.

Artıq pozulurdu dostluq havası.

Hər kəs dediyini deyib, dururdu.

Ayrılıq möhrünü sanki vururdu.

Dil tapa bilmədi onların özü.

Heç kimin deməyə qalmadı sözü.

Hamının olduqca qaraldı qanı.

Sıxıldı bu işdən onların canı.

Nəhayət, qonaqlar çıxıb getdilər.

Hamısı oranı tez tərk etdilər.

Ətrafa çökmüşdü qatı qaranlıq.

Özünü itirdi Ceyran bir anlıq.

Sel kimi tökürdü yaşı gözündən.

Xəbəri yoxuydu, sanki, özündən.

Ceyranın anası quruyub qaldı.

Özünü Ceyranın üstünə saldı.

Söylədi, ağlama, gözəl Ceyranım.

Qurbandır, bax, sənə özümün canım.

Nədənsə çəpləşdi onların sözü.

Peşmandır yəqin ki, atanın özü.

Onlar istəməzlər pozsunlar işi.

Hər şeyi məhv etdi, bu iki kişi.

Elə ki, gün çıxdı, açıldı səhər.

Fikrini dəyişər onlar birtəhər.

Üzünü tutdu o sonra ərinə.

Söylədi, ay kişi, getmə dərinə.

Maldırmı, bu qıza qoyursan qiymət?

Dünyadan xəbərin yoxdur, bax, əlbət.

Sən deyən o şeylər keçmişdə qalıb.

Lap təzə qaydalar indi kök salıb.

Bir də ki, çox sevir Ceyran oğlanı.

Qoy qübar etməsin bu qızın canı.

Bu nədir, pul üstə dava salmısan?

Hər şeydən sən niyə dala qalmısan?

Ay kişi, doğrudan sən bir eşit, bil.

Başlığı istəmək heç doğru deyil.

Özümçün böyütdüm mən gözəl övlad.

İşləri korlayıb eylədin bərbad.

Ceyrana veririk biz cer-cehizi.

Biabır eyləmə, Mustafa, bizi.

Bununçün onlardan biz pulmu alaq?

Bu eldən, obadan gerimi qalaq?

Mustafa başını aşağı saldı.

Bir qədər yerində beləcə qaldı...

***

Səmistan boylandı, o yan, bu yana.

Özünü çatdırdı güclə divana.

Getdikcə dəyişdi kişinin halı.

Daha da pis oldu indi əhvalı.

Kişi, rəng verirdi, gah rəng alırdı.

Sus düşüb yerində dinməz qalırdı.

Az sonra təpidi dili, dodağı.

Qaranlıq içində gördü otağı.

Şəmistan topladı azca özünü.

Yumurdu, açırdı tez-tez gözünü.

Telnazı yanına çağırdı Kənan.

Dedi ki, pisləşir halı durmadan.

Tez mənə sən gətir iynə, dərmanı.

Əsəbdən məhv oldu atamın canı.

Yanından getmədi o, bircə addım.

Tələsik çağırdı “Təcili Yardım”.

Bütün həkimləri tökdülər ora.

Hamı qaçışırdı tez ora, bura.

Özünü bilmirdi artıq Şəmistan.

Bir torba ətiydi sanki həmin an.

Dili tutmayırdı bir kəlmə sözü.

Kədərlə baxırdı hamıya gözü.

Həkim durmadan tezcə çalışdı.

Bütün dünya, aləm sanki qarışdı.

Nə qədər qoluna sistem vurdular.

Növbəylə yanında onlar durdular.

Dedilər, qalxmasın gərək, yataqdan.

Çıxmaq olmaz ona hələ otaqdan...

***

Aradan keçmişdi bir xeyli zaman.

Ayağa qalxmışdı artıq, Şəmistan.

İynə-dərmanları davam edirdi.

Daha həkimlərə özü gedirdi.

Yarımçıq qalmışdı Sənanın işi.

Yumşalmaq bilmirdi heç cürə kişi.

Düzələ bilmədi başlıq davası.

Dəyişdi onlarda toyun havası.

Köhnə qudalığa nifrət etdilər.

Başqa bir qapıya elçi getdilər.

Düzəldi onların indiki işi.

Razılıq eylədi onlara kişi.

Üzünü tutdu o öz qudasına,

Sözünü söylədi, qız atasına.

Verməyin, gəlinə bir dənə cehiz.

İndi hər bir şeyi edəcəyik biz.

Kənanın var gözəl evi-eşiyi.

Evsizmi qoyarıq biz sonbeşiyi?!?

Hər şeyi vermişəm onun özünə.

Biz qurban olarıq qara gözünə.

Onların heç nəyə yox ehtiyacı.

Allahım verməsin heç zaman acı.

Biz bu gün varıq, bəlkə yoxuq sabah.

Bax, nəyə lazımdır, insanda tamah?

Bu dünya malları burda qalacaq.

Əzrayıl bizləri yola salacaq.

Bu işə razılıq verərsizsə siz,

Tezliklə edərik toyumuzu biz.

Ölümlü, itimli olur dünyamız.

İştirak eyləyək toyda hamımız.

Nəhayət, verdilər belə bir qərar.

Bir aya bu toyu eyləmək olar.

***

Onların başları toya qarışdı.

Ceyran bu xəbərdən yandı, alışdı.

İnana bilmədi qız qulağına.

Günlərlə qapandı öz otağına.

Dəymədi bu qızın ağzına çörək.

Deyirdi, Sənanı mən görüm gərək.

Toxuna bilməzlər bu sevgimizə.

Düşmən kəsilibdi insanlar bizə.

Mən sevdim Sənanı dünyalar qədər.

Bu sevgi gətirdi mənə çox kədər.

İstərdim Sənanın görəm özünü.

Özündən eşidəm mən son sözünü.

O, xəbər göndərdi tez-tez Sənana.

Heç müsbət bir cavab gəlmədi ona.

Bir gün də həyətdə oturdu Ceyran.

Musiqi səsləri eşitdi o an.

Elə bil başından ildırım vurdu.

Gözləri önündə çox şeylər durdu.

Bildi ki, toyudu bu gün Sənanın!

Bir hala düşdü ki, dəhşət, inanın,

Bəlkə də tanıya bilməzdiz onu.

Elə bil gəlmişdi həyatın sonu.

Rəng alıb, rəng verdi, qaraldı gözü.

Əhvalı dəyişdi, hiss etdi özü.

Başına fırlandı, dünya bir anda.

O gəlib uzandı tezcə divanda.

Sakitcə yumdu o, qara gözünü.

Gəlinlik donunda gördü özünü.

Əynində varıydı gəlinlik donu.

Mələyə bənzətdi bu paltar onu.

Fata bir gözəllik verirdi ona.

Həm də çox yaraşdı geydiyi dona.

Girmişdi Sənanın sanki qoluna.

Üz tutub gedirdi, o öz yoluna.

Hiss etdi ağrıdı birdən kürəyi.

Elə bil deşildi sanki ürəyi.

O çəkə bilmədi heç nəfəsini.

Çıxarda bilmədi bu qız səsini.

Zəhərli bir tikan deşdi ürəyi.

Zəhəri bürüdü bütün kürəyi.

Bu zəhər keçmişdi onun qanına.

Qan ilə yayıldı bütün canına.

Hökmünə baxın ki, siz bu tikanın.

Necə də sonuna çıxdı bir canın?

Bir daha açmadı Ceyran gözünü.

Sevgiyə o, qurban etdi özünü.

Elə bil yuxuya getmişdi Ceyran.

Oyanıb duracaq sanki qız bu an.

Heç kimin yoxuydu bundan xəbəri.

Hamının özünün vardı işləri.

Bir azdan səslədi ana Ceyranı.

Bilmirdi köç edib qızının canı.

Qızı səs vermədi onun səsinə.

Dağ çəkdi ananın düz sinəsinə.

Naləsi göylərə qalxdı ananın.

Xəbəri olmadı ancaq Ceyranın.

Özünü çatdırdı ora Mustafa.

Qorxaraq boylandı kişi ətrafa.

Anladı burada olub-keçəni.

Məhv etdim, ay qızım, söylədi səni.

Bu xəbər hamını yandırdı, yaxdı.

Hər yerə qaralar bağlayıb, taxdı.

Qaldıra bilmədi bu yükü Ceyran.

Onu tərk etmişdi sevdiyi oğlan.

Anası kişiyə tutdu üzünü.

Söylədi: de mənə indi düzünü.

Balamı qaytara bilərsənmi sən?

Ceyransız yaşaya bilmərəm ki, mən.

Pul ilə olarmı almaq Ceyranı?

Qaytar sən balamı, bəs yavrum hanı?

Mən sənə söylədim, sözün düzünü.

Anlatdım dünyanın iki üzünü.

Dedim ki, bu qədər eyləmə inad.

İndi get ömürlük sən rahatca yat.

Nəhayət verdilər onu torpağa,

Başını salmışdı ata aşağa...

***

Sənan da eşitdi həmin xəbəri.

Kövrəldi, yaş ilə doldu gözləri.

Məəttəl qalmışdı özü-özünə.

İnana bilmədi qonşu sözünə.

Özünə durmadan sual edirdi.

O başa, bu başa tez-tez gedirdi.

Deyirdi, Allahım, keç günahımdan.

Hifz eylə sən məni onun ahından.

Ürəklə sevmişdi Sənan Ceyranı.

Bunu eşidən tək qaraldı qanı.

Onun da sevgisi dəymişdi daşa.

Yenidən başladı hər şey birbaşa.

Başlığın üstündə aləm qarışdı.

Bu sevgi məhv oldu, yandı, alışdı.

Selcanı görəndə bəyəndi Sənan.

O qızı heç vaxt unutmurdu bir an

Qəlbində yüksəkdə dururdu Ceyran.

Dedilər, uşağa qalıbdı Selcan.

Dünyaya gətirdi bir cüt oğlanı.

Təbrik eyləyirdi hamı Sənanı.

Günlər bir-birini əvəz edirdi.

Ömürdən su kimi axıb gedirdi.

Sənanın işləri yaxşı getmirdi.

Qazancı onları qane etmirdi.

İş tapmaq olmuşdu çətindən cətin.

Qiyməti artırdı hey yağın, ətin.

Dolanmaq getdikcə çətinləşirdi.

Həmişə iş ilə o, əlləşirdi....

***

Zibeydə qalmırdı məsləhətindən.

Gəlin də deyirdi: ağıl vermə sən.

Bax, mənə demə, gəl, axır sözünü.

Telnaz deyiləm, yığışdır özünü.

Heç kimdə yoxdu ki, məndəki ağıl.

Boş yerə sən mənə söyləmə nağıl.

İş görmək lazımsa, görərsən ozün.

Hələ ki, görürsən kor deyil gözün.

Bişir yeməkləri, sən dəmlə, çayı.

Bizə də saxlarsan ən gözəl payı.

Bilmirəm, bu evdə sən nə edirsən.

Yalandan gah ora, bura gedirsən.

Getdikcə açıldı gəlinin üzü.

Nifrət eyləyirdi Zibeydə, düzü.

Həmişə deyirdi o, Şəmistana,

Kimiydi sən bunu aldın Sənana?

Oğlumun həyatı olubdu zəhər.

Uşağın xətrinə dözür birtəhər.

Çeyranın ahına düşdük, ay kişi.

Xəsislik eylədin, pozdun o işi.

Nə qədər dedimsə, qulaq asmadın.

Bir damcı səbrini sən də basmadın.

Bu başlıq parası qalıb qədimdən.

Adəti dəyişə bilərsənmi sən?

Atalar görübdü doğrunu özü.

Çox da düz söylədi dediyi sözü.

Onlar söyləyiblər, palaza bürün.

Sən, yeri gələndə, el ilə sürün.

Adəti dəyişmək sənəmi qaldı?

Adətlər bizləri bu günə saldı.

Bu nədir, diliylə o, adam yeyir.

Birini deyirsən, beşini deyir.

Zəhər tuluğu tək evdə dolaşır.

Getdikcə bu gəlin həddini aşır.

Öhdəsindən gələ bilməyir Sənan.

Elə hey dalaşır, onunla hər an.

Nahaqdan adını qoyublar Selcan.

Gərək qoyardılar zəhərli tikan.

Vallah, tikan kimi sancır adamı.

Yaxşı tanıyırlar bu qızı hamı.

***

Şəmistan boylandı o yan, bu yana.

Gördü ki, düz deyir hər şeyi ana.

Onsuz da işimiz olubdu bərbad.

Düz sözə nə deyim, axı, ay arvad?

Lənətə gəlsin bu qayda, qanunu.

Kim salıb görəsən ortaya bunu?

Beş min də olarmı başlıq parası?

Heç zaman qurtarmaz onun yarası.

Çəpləşdi nədənsə bizim sözümüz.

Hər seyi məhv etdik sonra özümüz.

Daha olan olub, keçibdi keçən.

Bu işlər düzələn deyil, yenıdən.

Yaradan yazıbdı qədərimizı.

Heç zaman siləmməz kədərimizi.

***

Elə bil bu gəlin çox qudurmuşdu.

Əzrayıl donunda orda durmuşdu.

Ağlına nə düşsə, onu edirdi.

Haraya istəsə ora gedirdi.

Onun hər bir işi olmuşdu kələk.

Sənanın yanında olurdu mələk.

Bir kəlmə demirdi oğluna ana.

İçindən qalırdı o, yana-yana.

Yaxşı tanıyırdı ana, Sənanı.

Bilirdi, yanacaq oğlunun canı.

Hər şeyin üstündən ötüb gedirdi.

Gəlin də bildiyi işi edirdi.

Heç kimə verməzdi bir stəkan çay.

Nə də ki, kimsəyə qoymazdı bir pay.

Bir gün Sənan evə gəldiyi zaman.

Gördü ki, səs-küydü bu evdə yaman.

O, ayaq saxlayıb dayandı bir an.

Gördü ki, anaya dil tökür Selcan.

O, məətəl qalmışdı öz-özünə.

İnana bilmədi indi gözünə.

Allahım, bu nədir, nə görürəm mən?

Heç nədən xəbərim yoxdu, deyəsən?

Hələ mən illərdi görmədim, düzü.

Selcanda gördüyüm indiki üzü.

Qəfildən içəri girəndə Sənan,

Qorxudan büzüşdü gəlin həmin an.

Ağlına gəlməzdi gələcək əri,

Hər şeydən olacaq onun xəbəri.

Əsəbdən Sənanın böyüdü gözü.

Ağzında dolaşdı dediyi sözü.

Bu nədir, ay Selcan, nə görürəm mən?

Anama nə sözlər söyləyirsən sən?

Gəlin yox, almışıq zəhərli tikan.

Səndən çox yaxşıdır bir əfi ilan.

Eşitdim, dediyin hər bir kəlməni.

Yerimdən oynatdı sözlərin məni.

Batdı tikanların mənim çanıma.

Zəhərtək yayıldı sözlər qanıma.

Deyirəm, mən sənə doğru sözümü.

Adamtək, yığışdır indi özünü.

Bax, sənə dəyməsin əlim, ayağım.

Əsəbdən quruyub mənim dodağım.

Qarşında görünür iki yol sənin.

Bununla həll olar indi qədərin.

Ya gərək doğrudan adam olasan,

O zaman mənimlə burda qalarsan.

Ya da dəyişməsən xarakterini,

Biləsən, itirdin onda ərini.

Gəlin qorxusundan donub qalmışdı.

Canını tamamən kədər almışdı.

Ağlına gəlmirdi eşidə əri,

Bu gün hər bir şeydən ola xəbəri.

Yalvarıb dedi ki, gəlin, Sənana,

Pis gözlə baxmaram sənin anana.

Nədənsə itirdim bu gün özümü.

Yüksəkdən söylədim ona sözümü.

Ömrümdə bu səhvi bir də etmərəm.

Evimdən bir addım kənar getmərəm.

***

Bəlkə də gün keçib, gələcək zaman.

Doğrudan dəyişər, düzələr Selcan.

Qızlar böyüyürlər, olurlar gəlin.

Qocalıb qaynana olurlar, bilin!

Gəlinlər cürbəcür olur həyatda.

Hərəsi tanınır müxtəlif adda.

Bəzisi lap olur doğrudan mələk.

Xasiyyət həlimdi, özləri ipək.

Bəzisisə olur zəhərli tikan.

Tikanı insana batırır hər an.

Zəhər damcı-damcı işləyir qana.

Qan ilə yayılır, o bütün cana.

Dəyişir xarakter onlarda bəzən.

Bəzisi dəyişmir heç sən də deyən...

www.kitabxana.net Milli Virtual-Elektron
Kitabxananın təqdimatında

Xəyanət

Poema

Bu gün narın-narın külək əsirdi.

Azacıq bir soyuq adam kəsirdi.

Sanki yaxınlığa yağmışdı çox qar.

Onunçün havada buzlu şaxta var.

Əynini çox qalın geyindi Ayaz.

Düşündü havaya çıxım mən bir az.

Ayaz soyuqlayıb evdə yatırdı.

Ürəyi sürətlə tez-tez atırdı.

Qəbul eyləmişdi nə qədər dərman.

Yaxşı hiss edirdi özünü bu an.

Qapını açaraq çıxdı evindən.

Sükan arxasına keçdi yenidən.

Anası baxırdı böyük eyvandan.

Oğlunu görəntək səsləndi o an.

Ay bala, soyuqda hara gedirsən?

Axı sən xəstəsən, gör nə edirsən?

Ağzından düşməyib indi dərmanın.

Hələ sağalmayıb, xəstədir canın.

Fikir ver, ay oğlum, sən də özünə.

Qulaq as bir az da ana sözünə.

Boylandı o yana, bu yana Ayaz.

Söylədi, ay ana, heç bir şey olmaz.

Günlərlə uzandım, yataqda qaldım.

Artıq mən tamamən indi sağaldım.

İşim var, yoldaşlar gözləyir məni.

Gör neçə gündür mən lap yordum səni.

İndi sən bir azca get dincəl özün.

Yuxusuz qalmaqdan şişibdi gözün.

Dolansam hər yeri, getsəm də hara,

Mütləq mən gələcəm, evdə nahara.

Maşını yerindən tərpətdi Ayaz.

Getdikcə maşına o, verirdi qaz.

O, şose yolunda quş tək uçurdu.

Heç özü bilmirdi hara qaçırdı.

Gözünü o, yumdu, açdı və birdən,

Önünə bir maşın çıxdı qəfildən.

Ayazın gözləri alacalandı.

Maşınlar gözündə balacalandı.

İstədi maşını çəksin kənara.

Az qaldı onda da dəysin divara.

Ayaz o maşını vurdu yanından.

Elə bil tələtüm qopdu canından.

Maşını saxlayıb düşdü maşından.

Bərk ağrı qalxmışdı onun başından.

Əvvəlcə eynəyi gözünə taxdı.

Tələsik vurduğu maşına baxdı.

Gördü ki, xanımdı maşını sürən.

Düşündü, bu işdə günahkaram mən.

Baxdı ki, yan tərəf vurulub bir az.

Heç nəyə etmədi Ayaz etiraz.

Söylədi, narahat olma xanım, sən.

Bütün ziyanlığı ödəyəcəm mən.

Sürücü çox tərs-tərs baxdı Ayaza.

Üzünü çevirdi yandakı qıza.

Zəng elə atana sən ver xəbəri .

Qoy gəlib yoluna qoysun işləri.

Anaya, gah qıza baxırdı Ayaz.

Kənarda dayanıb boylandı bir az.

Gördü ki, qızcığaz yığdı nömrəni.

Aşağı saldı o, azca şüşəni.

Anlatdı ataya olub-keçəni.

Burda gözləyirik, söylədi, səni.

Donub yerindəcə qalmışdı oğlan.

Yığılan nömrəni görmüşdü o an.

Heç cürə gəlmirdi Ayaz özünə.

İnana bilmirdi nə də gözünə.

Təəccüblə ona baxdı yenidən.

Allahım, bax, burda nə görürəm mən?

O, başdan-ayağa onları süzdü.

Duyduğu hissləri Ayazı üzdü.

Çəkilib kənarda sakit dayandı.

Bütün əsəbləri birdən oyandı.

Aradan keçmişdi azca bir zaman.

Gözünə inana bilmədi oğlan.

Gördü ki, bir maşın gəlib dayandı.

Artıq gözlərinə indi inandı.

Təəccüblə baxdı həmin maşına.

Qorxduğu fikirlər gəldi başına.

Düz gəlib oraya çıxmışdı kişi.

Maşına baxmağı oldu ilk işi.

Qız, “Ata”, deyərək üstünə qaçdı.

Ayazın əsəbdən ürəyi sancdı.

Donub yerindəcə qalmışdı oğlan.

Çünki atasıydı orda dayanan.

Artıq o, öyrəndi burda indicə.

Atası evlənib coxdan gizlicə.

Olmayıb heç kimin bundan xəbəri.

O, alt-üst eyləyib bütün işləri.

Bu qızın olardı artıq on yaşı.

Xanım da deməli, onun yoldaşı.

Anam heç bilməyib neynəyir əri.

Bax, necə olacaq bilsə xəbəri?

Özünü saxlaya bilmədi Ayaz.

Səsinin tonunu qaldırdı bir az.

De görüm, sən burda neynirsən, ata?

Atalıq edirsən bu camaata?

Donub yerindəcə qalmışdı Bəşir.

Oğlu dayanmadan saldı hay-həşir.

Ağlına gəlməyən gəldi başına.

Evdə nə deyəcək öz yoldaşına?

Aləmlə biriydi Ayazın səsi.

Dinməyə qoymadı orda heç kəsi.

Deməli, sən bizə xəyanət etdin.

Gizlicə başqa bir qadına getdin.

Artıq qalmayıbdı deyəcək sözüm.

Görmək istəmirəm mən səni özüm.

Anamın yanına özün gedərsən.

Onunla hər şeyi sən həll edərsən.

Mən daha xətt çəkdim sənin üstündən.

Sənincün yox oldum, həm də bu gündən.

Ayazın heç nəyi görmürdü gözü.

Məəttəl qalmışdı bu işə özü.

O, hədsiz sevirdi öz atasını.

Heç zaman görmürdü bir xatasını.

Alçaqdan gəlirdi Bəşirin səsi.

Sanki kəsiləcək indi nəfəsi.

Bilmirdi oğluna nə desin kişi?

Necə rədd eləsin başından işi?

Olduqca pis yerdə axşamlamışdı.

İllərdi bu sirri o, saxlamışdı.

O çıxa bilmirdi işin içindən.

Deyə bilməyirdi günahsızam mən.

Bir yanda dayanıb baxırdı qızı.

Bu qədər olarmı yalan qırmızı?

Nəhayət, özünü topladı Bəşir.

Söylədi oğluna salma hay-həşir.

Qınaya bilmirəm, ay oğlum səni.

Vaxt gələr sən özün anlarsan məni.

Bircə xahişim var, ay bala, səndən.

Anana söyləmə, inciyər məndən.

Qırxillik yoldaşam onun özüylə.

İnciyə bilmədim heç vaxt sözüylə.

Bir işdir nə isə gəldi başıma.

Xəyanət etməzdim mən yoldaşıma.

Ayaz artıq ona asmadı qulaq.

Döndü evlərinə atadan qabaq.

***

Yamənin bərələ qaldı gözləri.

İlişdi boğazda bütün sözləri.

Elə bil başından çıxırdı tüstü.

Bildi ki, açıldı bu işin üstü.

Əslində bu işə sevindi Yamən.

Nə qədər gizlicə qalasıydım mən.

Bəşir deyəcəkdi daha son sözü.

İndi həll edəcək hər şeyi özü.

Mənim qalmayıbdı burda bir işim.

Biryolluq yanımda olacaq kişim.

Mənim də yoxdumu göydə Allahım?

Bu işdə nədir ki, indi günahım?

Bəşir sevib məni, evlənib özü.

Vecimə almıram, mən heç bir sözü.

Özümçün doğmuşam gözəl Aytacı.

Lazımdı indi də qızıma bacı.

Ev alıb, veribdi mənə bir maşın.

Hər gündə qazanda dəmlənir aşım.

Bunlardan kim qaçsa, bax, odur axmaq.

Onunçün nə lazım kiməsə baxmaq?

Hamıya budur ki, deyəcək sözüm.

Bu həyat mənimdi, bilərəm özüm!

Arvadı salacaq onsuz hay-həşir.

Özü həll etsin hamısını Bəşir.

İllərdi gül kimi biz dolanırıq.

Sevgiyə onsuz da çox inanırıq.

Ayıra bilməzlər heç zaman bizi.

Çünki biz sevirik bir-birimizi.

Aytacla birlikdə yola düzəldi.

Ordan o, birbaşa evinə gəldi.

***

Yamən evə gəldi, keçdi otağa.

Sakitcə uzandı rahat yatağa.

Maşın vurulmuşdu, qaraydı qanı.

Bəşirin yanında qalmışdı canı.

Nə ilə qurtarar bu işin sonu.

Görən qoruyarmı Bəşiri onu.

Yamən böyümüşdü dağlar qoynunda.

Yaxşı tanıyırdı hamı onu da.

O, sahib olmuşdu gözəl bir ada.

Artıq tanınırdı bütün dünyada.

Yamənin varıydı gözəl bir səsi.

Məftun eyləyirdi bu səs hər kəsi.

Tez-tez də xaricə səfər edirdi.

Konsertlər verməyə Yamən gedirdi.

Bəşirlə xaricdə tanış olmuşdu.

İllərdi onunla yaşa dolmuşdu.

***

Yamən uzanmışdı sakit otaqda.

Düşünürdü yenə o, Bəşir haqda.

Köhnə xatirələr düşdü yadına.

Hər zaman çatmışdı Bəşir dadına.

Ehmalca yumdu o, qara gözünü.

Xəyallar içində gördü özünü.

Həyatı canlandı sanki gözündə.

Hesabat apardı özü-özündə.

Görəsən bu illər gedibmi hədər?

Ya da ki, veribmi ona qəm, kədər?

Gözləri önündə illər calandı.

Bu fani dünyada hər şey yalandı.

Günləri hamımız yola salırıq.

Fərqinə varmadan biz qocalırıq.

İnsanın ömürü bənzər saraya.

Bu saray sökülər illərə, aya.

Hərəyə bir ömür verir yaradan.

Həyatı tərk edir, ömür bitən an.

Həmin an dağılır ömür sarayı.

Allahdan kəsilir verilən payı.

Xəyallar içində itmişdi Yamən.

Hər bir şey olmuşdu, elə bil, dünən.

Gözləri önündə canlandı o qış.

Bax, onda olmuşdu Bəşirlə tanış.

***

On üç il arxaya qayıtdı Yamən.

Doğrudan, Bəşiri sevmişəmmi mən?

Düşündü bir qədər özü-özünə.

Qızartı çökmüşdü onun üzünə.

Bu sevgi nədir ki, anlamıram mən.

Nə qədər adamlar sevmişəm, görən?

Deyirlər həyatın mənası puldur!

Pullunun önündə pulsuzlar quldur.

Hər şeyi həll edən puldu dünyada.

Pul özü sahibdi, sehirli ada.

Boş bir söhbətdir ki, pul əl çirkidir.

Pulsuzluq adamı yaman incidir.

Bağlı qapılara yol açandır pul!

Bütün könüllərdə nur saçandır pul!

Pul varsa, o zaman keflər durulur.

Hər yerdə şənliklər, məclis qurulur.

Beşgünlük dünyada kef görürsən sən.

Bəlkə səhv deyirəm, bu sözləri mən?

Yeyirəm Bəşirin var-dövlətini.

Qoy özü qorusun öz hörmətini.

Mən məcbur etmədim, etsin xəyanət.

Canında olaydı gərək dəyanət.

O, sadiq deyilsə öz arvadına ,

Mən nədən baş əyim onun adına?

Atıb arvadını gəlirsə mənə,

Xəyanət eyləyər mənə də yenə.

Bax, ona görə də verirəm yola.

Görürəm işimi, o ola-ola.

Heç nədən olmayır onun xəbəri.

Mən yola salıram çox kişiləri.

Oturub Bəşiri gözləyim gərək?

Gəzməyim gəzməkdi, yeməyim yemək.

O qədər maldır ki, görməyir gözü.

Heç zaman düz gəlmir sözünə, sözü.

Elə bil xarabdı Bəşirin başı.

Evdə var özünün həyat yoldaşı.

O özü açıbdı öz başına iş.

Artıq bu işlərə eyləmiş vərdiş.

Düşdüyü quyudan qoy çıxsın özü.

Yeridi söyləsin indi son sözü.

Lap yaxşı, boşasın tez arvadını.

Çıxardaq birlikdə eşqin dadını.

Biryolluq yerləşər, mənim yanıma.

Yağ kimi yayılar bu da canıma.

Bunu düşündükcə sevindi Yamən.

Anama çatdırım xoş xəbəri mən.

***

Donub yerindəcə qalmışdı Bəşir.

Pişiyə dönmüşdü elə bil ki, şir.

Bilmirdi o, axı neynəsin indi.

Dodağın altından asta deyindi.

Allahım, bu işə mən verim nə ad?

İşlərim olacaq tamamən bərbad.

Var mənim başımda böyük olayım.

Göylərə qalxacaq indi harayım.

Nə ilə qurtarar bu işin sonu?

Aldatmaq mümkünmü yenə də onu?

Heç nədən yoxuydu onun xəbəri.

Bilmirdi kimlərlə fırlanır əri.

Qurtarıb Ayazın elə bil işi.

Açıb tökəcəkdi indi keçmişi.

Hər yerə soxacaq indi başını.

Gərək vuraydımı, bax, bu maşını?

Xəstəsən, öl evdə, öldüyün yerdə.

İşə saldın məni üstəlik bir də.

Hədsiz qaralmışdı kişinin qanı.

Ayazın yanında qalmışdı canı.

O getdi fikirə, düşündü, düzü,

Evinə getməyə gəlmədi üzü.

Özünü yetirdi iş otağına.

Katibə çay qoydu tez qabağına.

Bəşirin canını dərd, kədər aldı.

Özü-özlüyündə o fikrə daldı.

Sükutu telefon pozdu bu zaman.

Baxdı kı, zəng edir ona Natavan.

Güclə o, dəstəyi aldı əlinə.

Qıfıl vurulmuşdu sanki dilinə.

İstədi səslənsin, çıxmadı səsi.

Az qaldı kəsilsin sanki nəfəsi.

Üzünü söykədi o, telefona.

Bu zəngdən heç xeyir yoxuydu ona.

Təsəvvür edirdi hər şeyi özü.

Quruyub qalmışdı ağzında sözü.

Elə ki, dilləndi birdən Natavan,

Özünü itirdi kişi həmin an.

Söylədi, Natavan, sən toxta bir az.

Hər şeyi yalandan söyləyir Ayaz.

İnanma, dediyi heç bir sözünə.

Sual vermə o dəqiqə özünə.

Yalandan bəzəyir bu Ayaz məni.

Mən aldatmamışam heç zaman səni.

Natavan quruyub yerində qaldı.

Tələsik özünü divana saldı.

Bu nədən danışır, axı görəsən?

Bir kəlmə demədim bu kişiyə mən.

Ağzımı açmağa vermədi imkan.

Bunlar nə sözlərdi, söyləyir bu an?

Natavanın rəngi tamam dəyişdi.

Düşündü, başıma gələn nə işdi?

Bəşir danışırdı ara vermədən.

Deyirdi, xəyanət eyləmədim mən.

Arvadın tutuldu sanki qulağı.

Qaranlıq görürdü gözü otağı.

Bir bardaq su içdi o, birnəfəsə.

Düşmüşdü elə bil bağlı qəfəsə.

Natavan bu işə tamam mat qaldı.

Güc ilə özünü o, ələ aldı.

Anlaya bilmədim, dedi, ay Bəşir.

Nədir sən salmısan orda hay-həşir?

Gəl, evdə eyləyək söhbətimizi.

Heç zaman ayırmaz bir qüvvə bizi.

Ağzına gələni nə danışırsan?

Elə bil, kibritsiz sən alışırsan.

Deyəsən, mənimlə məzələnirsən?

Bax, bu nə sözlərdir, sən söyləyirsən?

Telefon əlində donmuşdu kişi.

Birdən anladı ki, korladı işi.

Bildi ki, heç onun yoxdur xəbəri.

Bilmədən sirrini açdı öz əri.

Bəşir öz səhvini indi anladı.

O ki, var özünü özü danladı.

Ay Allah, nə etdim özüm bilmədən.

Bu işin altından necə çıxım mən?

Başlayıb dil tökdü o, Natavana.

Dedi ki, bağlıyam sən tək canana.

Dünya bir yanadır, sən də bir yana.

İnanma heç zaman gəl bu şeytana.

Yoxlamaq ustədim səni yalandan.

Heç biri düz deyil, dediyim bu an.

Mən sadiq olmuşam, gözəlim, sənə.

Xəyanət heç zaman yaraşmaz mənə.

***

Dəstəyi qoysa da yerinə hələ,

Ala bilməyirdi özünü ələ.

Ayaza atası məəttəl qaldı.

Sevincək özünü o, evə saldı.

Çatantək başladı Bəşir sözünə.

Bir qədər toxtaqlıq verdi özünə.

Bu Ayaz hardadı görünmür gözə.

Olduqca az çıxır otaqdan üzə.

Natavan söylədi, evdədi Ayaz.

Nasazdı, uzanıb yatacaq bir az.

Bəşir söhbət etdi, o yan, bu yandan.

Gördü ki, söz çıxmır heç Natavandan.

Buldi ki, o haqda deməyib Ayaz.

Bilsəydi Natavan bir yerdə durmaz.

Arvadı söyləndi, dedi, Bəşirə,

Bayaq nə dönmüşdün, ay kişi şirə?

Anlaya bilmədim heç cürə səni?

Sən nədən təşvişə salırdın məni?

Yatanda yuxuma girməz ki, inan,

Xəyanət edəsən mənə bir zaman.

Ancaq mən deyirəm, qulağını aç.

Xəyanət eyləsən yer üzündən qaç.

O haqda eşitsəm əgər bir kəlmə,

Ömürlük bu evə sən bir də gəlmə.

Bil, belə sakitcə heç baxma mənə.

O zaman görərsən nə olur sənə.

Baxmaram kimsənin heç vaxt sözünə.

Bir güllə vuraram sənin özünə.

Aç qulaqlarını yaxşı eşit, bil.

Xəyanət eyləsən bu mənlik deyil.

Ancaq bir söz deyim, ay Bəşir sənə,

Ox kimi dəyibdi sözlərin mənə.

Saldın sən qəlbimə şübhə toxumu.

Bəlkə də düz dedin, sözün çoxunu.

Ay qarğa, qoz vardı, deyirsən məndə.

Nə yalan söyləyim, sirlər var səndə.

Birdən yoxlayarsan, ay kişi məni?

Peşman eyləyərəm, inan ki, səni.

Bir də ki, ay kişi, utan yaşından.

İşlərin tökülüb, aşır başından.

Uşaqlar böyüyüb, artıbdı işin.

Desinlər özüylə oynayır kişin.

Deyirəm mən sənə indi, ay Bəşir.

Xəyanət edəni yusun mürdəşir.

Bəşir Natavanın öpdü üzündən.

Səni heç kimsəyə dəyişmərəm mən.

İstədim yoxlayam, ay arvad səni.

Görüm sən bir damcı sevirsən məni?

Yaşaya bilmərəm heç zaman sənsiz.

Bilirəm sən də ki, qalmazsan mənsiz.

Mənə yaraşarmı xəyanət etmək?

Ondansa yaxşıdı lap ölüb getmək.

***

Yamənin ayağı artıq yer aldı.

Hər addım başında o, dava saldı.

Çox zaman Bəşirə deyirdi Yamən,

Boşa arvadını, ya o, ya da mən.

Bəşirdən xəlvətcə gəzib, dolandı.

Kişi də hər gündə ona inandı.

Bəşirin başına corab hörürdü.

Başqa kişilərlə işlər görürdü.

Elə ki, gəlirdi Bəşir yanına,

Bir qorxu düşürdü onun canına.

Hər şeydən ehtiyat edirdi Yamən.

Başqa kişilərlə görüşürəm mən.

Bundan xəbər tutsa əgər bu kişi,

Məni tərk eyləyər pozar hər işi.

Havayı pullardı su kimi axır.

O mənə ovcunun içində baxır.

İstəmərəm Bəşir ayrılsın məndən.

Yalandan deyirəm, heç yoxdu səndən.

Elə ki, evimə gəlir hər zaman,

Çayının içinə atıram dərman.

Hallanır, heç nədən olmur xəbəri.

Məndən başqasını görmür gözləri.

Düşürəm üstünə onun son zaman,

Deyirəm arvaddan bir yolluq boşan.

Qoy düşsün evinə artıq davalar.

Evində pozulsun abu-havalar.

Xəlvətcə arada izləyir məni.

Soyləyir, çox sevirdim hamıdan səni.

Qorxuram işimdən olar xəbərdar.

Sonra da bu dünya gələr mənə dar.

Özü arvadına xəyanət edir.

Həmişə mənimlə gəzməyə gedir.

Hər addım başında danışır yalan.

Bəzən mən özüm də bezirəm inan.

Nə etsə yenə də evinə gedir.

Arvad, uşağıyla kefini edir.

Heç ağlım yoxdumu mənim o qədər?

Tək-tənha oturum üzümdə kədər.

Hər günüm bir və bir gedir ömürdən.

Nə üçün bayquş tək qalmalıyam mən?

Düşündüm ayrılsın, o, arvadından.

Çıxartsın onları daha yadından.

Biryolluq o gəlsin mənim yanıma.

Rahatlıq çöksün qoy şirin canıma.

Onsuz da əlimdə fırladıram mən.

Hər zaman hər yerdə olur mən deyən.

***

Aylar dolanırdı, günlər kecirdi.

Natavan özünə gəlin seçirdi.

İstərdi evlənsin bircə Ayazı.

O zaman olardı hər şeydən razı.

Bəşirin sirrini açmadı Ayaz.

Ancaq gen gəzirdi kişidən bir az.

Qəlbi qırılmışdı öz atasından.

Yaman pis olmuşdu bu xatasından.

Anası Ayaza söylədi bir gün.

Sənə qız tapmışam, adı da Aygün.

Gəl bir bax sən ona, bəlkə bəyəndin.

Qismətin onadır, onla evləndin.

Görən tək Aygünü bəyəndi oğlan.

Natavan nə qədər sevindi o an.

Aradan keçmişdi azca bir zaman.

Bu sevgi dillərdə olmuşdu dastan.

Günlərin birində elçi getdilər.

Onlara çox gözəl nişan etdilər.

Nişandan keçmişdi bir xeyli zaman.

Bir gün öz ərinə dedi Natavan,

Artıb ağrılarım, ay Bəşir yaman.

Bir elə ömürə yoxumdur güman.

Göndər qoy bacımla gedim xaricə.

Dincəlib qayıdım mən də eləcə.

Sonra da hazırlıq görək toya biz.

Qoy uğur gətirsin evə gəlnimiz.

***

Bacısı Qəmərlə birgə Natavan,

Hazırlıq işinə başladı o an.

Bacılar yollandı istirahətə.

Arzular onları etdi əhatə.

Adamla doluydu hava limanı.

Çoxluqdan onların sıxıldı canı.

Limanda oturub onlar çay içdi.

Hər biri yoxlamadan rahat keçdi.

İstanbul onları aldı qoynuna.

Əlini doladı incə boynuna.

Təyyarə enmişdi türk limanında,

Yolçular ehmalca düşdü anında.

Qədəm qoymuşdular gözəl şəhərə.

Maraqla baxırdı onlar hər yerə.

Sanki qaynayırdı bu gözəl şəhər.

Gözəl görünürdü yenə bu səhər.

Beş ulduz oteldə onlar yer aldı.

On beş gün birlikdə Hiltonda qaldı.

Oteldə başqa bir gözəllik vardı.

Növbəylə işçilər hey çalışardı.

Hər yerdən elə bil yağırdı çiçək.

Otel görünürdü çox gözəl, göyçək.

Al-əlvan lampalar par-par yanırdı.

Adamlar buranı çənnət sanırdı.

İşıqlar güzgüdə çox bərq vururdu.

Mərmərdən sütunlar məğrur dururdu.

Onlar yerləşdilər öz yerlərinə.

Dəyməmiş bir damcı su dillərinə.

Onlar yemək yeyib şəhərə çıxdı.

Şəhərdə maşınlar olduqca sıxdı.

Elə ki, döndülər onlar otelə,

Sankı ayaqları gəlmişdi dilə.

Bacılar dolaşıb yorulmuşdular.

Şəhərə olduqca vurulmuşdular.

Axşam yeməkləri yeyilən zaman,

Ətrafa bir nəzər saldı Natavan.

Üzünü tutdu o, tezcə Qəmərə.

Hər gündə gedərik burda bir yerə.

Həkimdə yoxlanaq, alaq dərmanı.

Heç ağrı bilməsin insanın çanı.

Arada gedərik dükan, bazara.

Pal-paltar alarıq biz uşaqlara.

Bir gün bu oteldə cay içən zaman,

Bir qadın onlara yanaşdı o an.

Tez salam verərək dedi, ay xanım,

Sizlərə necə də qaynadı qanım?

Görmüşəm sizləri özüm dünəndən.

Günlərdir burdayıq bu ərimlə mən.

Gəzmişik burda biz bütün hər yanı.

Dincəlir gəzəndə adamın canı.

Oturub qadınlar söhbət etdilər.

Sonra da ayrılıb onlar getdilər.

Hər gündə xanımlar görüşürdülər.

Dərdləşib ürəkdən gülüşürdülər.

Gəlib yetişmişdi getmək zamanı.

Birlikdə qeyd etdi onlar bu anı.

Şəkil çəkdirdilər ayrılan zaman.

Sevincək olmuşdu özləri yaman.

Son dəfə görüşüb, söhbət etdilər.

Əriylə bu xanım çıxıb getdilər.

Hədsiz olaraq sevinə-sevinə,

Bir gün də bacılar döndü evinə.

Yoxuydu sevincin həddi, hüdudu.

Uğurlu gəzinti elə, bax, budu.

***

Aradan keçmişdi azca bir zaman.

Söhbət eyləyirdi evdə Natavan.

Üzünü tutaraq dedi Bəşirə.

Çox sağ ol, ay kişi, getdik hər yerə.

Bakıdan varıydı orda bir xanım.

O qədər qaynadı, ona da qanım.

Gəlmişdi gəzməyə ora əriylə.

Orda tanış oldu, özü də mənlə.

Yadımdan çıxmayır xanımın özü.

Gözümün önündən getməyir üzü.

Xatirə şəkili çəkdirmişəm mən.

Göstərim şəklini, bir baxsana sən.

Olduqca çox gözəl xasiyyəti var.

Şirinlik adam da nə qədər olar?

Nur yağır, ay Bəşir, onun üzündən.

İnciyə bilməzsən bircə sözündən.

Başına dolanır əri də hər an.

Elə bil Məcnundu yanında, inan.

Şəkilə baxanda mat qaldı kişi.

Gözünün önünə gəldi öz işi.

Gözünü o, yumdu, açdı yenidən.

Düşündü, bu nədir, nə görürəm mən?

Şəkildən baxırdı Yamən üzünə.

Toxdaqlıq verdi o bir az özünə.

Qorxdu ki, anlayar birdən Natavan.

Özünü tox tutdu elə həmin an.

Söylədi, deyirsən, yəni var əri?

Düz söylə, səndəki olan xəbəri.

Kifirdi, ay arvad, kim bunu alar?

Onunla bir evdə, axı, kim qalar?

Natavan ona təəccüblə baxdı.

Bu sözlər lap onu yandırdı, yaxdı.

Ay kişi, bir düşün, gör nə deyirsən?

Gözlərin görməyir sənin, deyəsən.

Bu gözəl qadına kifir deyirsən.

Onda o gözləri axı neynirsən?

Nəhayət, topladı Bəşir özünü.

Yalandan söylədi axır sözünü.

Ay arvad, hər zaman söyləyirəm mən,

Mənimçün dünyada gözəl bir sənsən.

Başqa qadınlarla nədir ki, işim?

Ürəklə söylə ki, belədir kişim!

Məndən başqasını görməyir gözü.

Hər zaman etiraf eyləyir özü.

***

Bəşirin kürəyi alovlanırdı.

Bədəni bu zaman, sanki, yanırdı.

Yatsa, yuxusuna gəlməzdi, inan.

Şəkilə baxanda, donmuşdu, o an.

Heç nə görünmürdü onun gözünə.

Düşündü sakitcə, özü-özünə.

Necə ki, ay arvad, aldatdım səni,

Eləcə Yamən də aldadır məni.

Nə yerə, nə göyə sığırdı kişi.

Mən belə qoymaram, dedi, bu işi.

Sanki qor dolmuşdu onun canına.

Üz tutdu Yamənin tezcə yanına.

Əvvəlcə istədi boğsun Yaməni.

Nədən aldadırsan söyləsin məni?

Güc ilə özünü o aldı ələ.

Bunların heç yeri deyil ki, hələ.

Özünə söz verdi, dedi ki, kişi,

Yarımçıq qoymaram əlimdə işi.

Bu işin sonuna çıxacağam mən.

O zaman aləmlə bir olarsan sən.

Gözünün önündə gör nələr durdu?

Yaralı qəlbində planlar qurdu.

***

Bir gün o, üz tutub dedi Yamənə.

Gəlmişəm söyləyim, deyim ki, sənə,

Bildiriş gəlibdi dünəndən mənə.

Xaricə getməli olmuşam yenə.

Dörd-beş gün şəhərdə olmayacam mən.

Heç nədən narahat olma daha sən.

Könlündən keçəni deyərsən mənə.

Alıb gətirərəm yenə də sənə.

Nəyin çatmayırsa, indi alaram.

Bilmirəm sənsiz mən necə qalaram?

Bu dünya bir yana, sən bir yanasan.

Ayrılıq mənimçün deyildir asan.

Dillənib tələsik dedi ki, Yamən,

Heç sənsiz bir gün də qalammaram mən.

Məni də xaricə apar özünlə.

Unudulmazsan, gözlərəm, dözümlə.

Bilirsən, mən qala bilmərəm sənsiz.

Orda darıxarsan yəqin ki, mənsiz.

Arvadın eşşəkdir, istəmir sənı.

Onunla bərabər tutma sən məni.

Nə sayır, nə səni vecinə alır.

Sənsiz o, daha da çox rahat qalır.

Özünü güc ilə saxladı Bəşir.

Söylədi, burda gəl, salma hay-həşir.

Arvadın adını alma dilinə.

Bir fürsət keçibdi yenə əlinə.

Onun arxasınca danışma yenə.

Bu sözü nə qədər söyləyim sənə.

Elə gözləyirsən sən bunu bircə.

Hər dəfə aparım səni xaricə.

Həm də ki, mənimlə işçilər gedir.

Bilmirəm, arvadım sənə nə edir?

Yazığın heç səndən yoxdu xəbəri.

Bilməyir çöllərdə nə edir əri?

Gözünü Bəşirə zillədi Yamən.

Damların altında tək qalıram mən.

Arvadın hey gəzir düzü, dünyanı.

Səndən arxayındı həmişə canı.

Tutursan əlinin üstündə onu .

Elə bil gəlibdi dünyanın sonu.

Bax, nəyim əskikdi o arvadından?

Biryolluq sən boşan, çıxart adından.

Ya gərək mənimlə kəbin kəsəsən.

Ya da ki, biryolluq çıxıb gedəsən.

Gecələr evində qalacaqsan sən.

Tək-tənha yolunu gözləyəcəm mən.

Biryolluq bu işə son verəcəksən.

Mən deyən şeyləri sən edəcəksən.

Bəşir söylədi ki, incitmə məni.

Bu dəfə apara bilmərəm səni.

Üç-dörd gün nədir ki, gəlib keçəcək.

Bilirsən, sevgilin səni seçəcək.

Haraya getsəm də, dönürəm sənə.

Bilmirəm, bu nədir, deyirsən mənə?

Sənin şübhənmi var məhəbbətimdən?

Bu nədir, deyirsən mənə yenidən?

Qolunu Yamənin boynuna saldı.

Birtəhər bu qızın könlünü aldı.

Üz tutdu evinə Bəşir yenidən.

Söylədi, bu axşam gedəcəyəm mən.

***

Qaranlıq qarışıb, düşmüşdü toran.

Telefon səsləndi yüksəkdən bu an.

Tezcə telefonu qaldırdı Yamən.

Bəşir zəng vurmuşdu ona yenidən.

Ürəyim durmadı, dedi, Yamənə.

Hava limanından zəng vurdum sənə.

Sonra gec olacaq, sabah duraram.

Duran tək mən sənə tez zəng vuraram.

Diqqətlə qulaq as indi sözümə.

Yaxşı bax Aytaca, həm də özünə.

Uzağı dörd günə yanındayam mən.

Darıxma, yolumu gözləyərsən sən.

Sonradan söndürdü o, telefonu.

Dedi, inandırdım doğurdan onu.

Yüz faiz deyəcək təyyarədəyəm.

Görəsən onunçün axı mən nəyəm?

Evində rahatca oturdu kişi.

Artıq o görmüşdü lazımı işi.

Dəstəyi yerinə qoyantək Yamən.

Söylədi, ay sənin özün öləsən.

Dünyanı gəz, dolan, bir kef elə sən.

Tək-tənha yolunu gözləyəcəm mən.

Əgər sən olmasan, kişimi yoxdur?

Sənin tək əfəldən hər yerdə çoxdur.

Desinlər xaricə gedibdi kişim.

Bu gecə var mənim nə qədər işim.

Gündə dörd adamla görüşən Yamən,

Kişisiz qalarmı indi görəsən?

Bəşirdən yüz faiz arxayın oldu.

Qəlbinə bir sevinc, lap fərəh doldu.

Yalandan salırdım, dedi, davanı.

Hər yerdən pul gəlir, mənə havayı.

Yeyirəm, içirəm, restoranlarda.

Gəzirəm gizlicə oteldə, barda.

Çəkirəm kefimi, alıram pulu.

Mənə söz deyəmməz bir Allah qulu.

Mən özüm nə qədər pul qazanıram.

Özümü həm də bir kişi sanıram.

Elə bil, Bəşircün bilmirəm, nəyəm?

Oturub aylarla bunu gözləyəm.

İstəyir mən olam ona mən möhtac.

Guya pul verməsə, qalasıyam ac.

Yazığın dalından yoxdur xəbəri.

Bilməyir gizlicə gedən işləri.

Əlimdə tulatək oynadıram mən.

O elə bilir ki, əfəldi Yamən.

Yanıma həmişə gəldiyi zaman,

Çayına atıram bir dənə dərman.

Asılı olubdu onunçün məndən.

Bilənlər bilir ki, kimdir bu Yamən.

Haraya getsə də, bilirəm yenə.

Yalvara-yalvara dönəcək mənə.

***

Sevincək olmuşdu, doğrudan, Yamən.

Bəşirdən arxayın oldum, dedi, mən.

Tələsik o yana, bu yana qacdı.

Sonradan Elşənə telefon açdı.

Söyləyib oğlana dedi, gəl bizə.

Bir sevinc gətir sən bu evimizə.

Təkəm mən, bu axşam darıxıram çox.

Danışıb, gülməyə bir adam da yox.

Dadlı yeməklərdən hazırlayım mən.

Birlikdə yeyərik, tezliklə gəl sən.

Tələsik çox gözəl bir süfrə qurdu.

Sonra da güzgünün önündə durdu.

Özünə o verdi bir çəki, düzən.

Düşündü, onsuz da çox gözələm mən.

Bax, ona görə də sevirlər məni.

İstərlər birlikdə olaq gecəni.

Aradan keçmişdi azca bir zaman.

Çalındı qapının zəngi həmən an.

Gördü ki, dayanıb qapıda Elşən.

Dedi ki, bayaqdan gözləyirəm mən.

Yolunda qalıbdı, mənim gözlərim.

Elə hey oxşayır səni sözlərim.

Elşənin əlindən sovqatı aldı.

Nəhayət, oğlanı içəri saldı.

O özü Elşəndən düşdü qabağa.

Elşəni gətirdi böyük otağa.

Süfrəyə düzmüşdü dadlı yeməklər.

Ora sərf etmişdi çoxlu əməklər.

Ətrinin qoxusu evə dolmuşdu.

Hər tərəf ətirli çiçək olmuşdu.

Böyük bir buketlə gəlmişdi Elşən.

Yamənə söylədi, darıxmışam mən!

Yedilər, içdilər, məclis quruldu.

Onların kefləri tamam duruldu.

İçkilər içindən içki secdilər.

Şərabdan tökdükcə, töküb içdilər.

Yamənin gözləri xumarlanırdı.

Özünü olduqca xoşbəxt sanırdı.

Şərab təsirini göstərdi ona.

Elşən də girirdi düz min cür dona.

Doyunca yedilər, hər şey içdilər.

Yataq otağına onlar keçdilər...

***

Bəşir öz evində var-gəl edirdi.

O başa, bu başa tez-tez gedirdi.

Getdikcə daraldı lap hövsələsi.

Gözləri görmürdü sanki heç kəsi.

Məəttəl qalmışdı ona Natavan.

Təəccüblə baxdı kişiyə o an.

Nədən narahatsan, dedi, ay kişi?

Sən yola verənsən bütün hər işi.

Səhərdən baxıram var, gəl edirsən.

Elə bil harasa indi gedirsən.

Nədən qaralıbdı, sənin bu qanın?

Nigaran qalıbdı, nədənsə, canın.

Diqqətlə sən bir bax mənim gözümə.

Yaxşıca qulaq as, hər bir sözümə.

Gözümdən qaçmayır sənin bu halın.

Görürəm, pozulub yaman əhvalın.

Bəlkə bir yardımım toxunar sənə.

Bu halın pis təsir eyləyir mənə.

Bəşir tez tutuldu, yerində qaldı.

Pərt oldu, sifəti min bir rəng aldı.

Tələsik söylədi, narahatam mən.

İşim var gedəcəm, rahat uzan sən.

Zəng gəldi, dostumdan bəd xəbər aldım.

Bax, ona görə də mən donub qaldım.

Dostumun bir maşın qəzası olub.

Bu kədər qəlbimə, ruhuma dolub.

Çox ağır yaralar alıbdı kişi.

Deyirlər, Allaha qalıbdı işi.

Deyirəm, mən gedim ona baş çəkim.

Həm də nə deyəcək, bir görüm həkim.

Mən ona dəyməsəm əgər bu gecə,

Bilmirəm, öz halım olacaq necə?

Mən gedim tezcənə onun yanına.

Rahatlıq çökəmməz yoxsa canıma.

Bəşir lap quş kimi evindən çıxdı.

Əsəbdən dişini möhkəmcə sıxdı.

Tələsik sürürdü özü maşını.

Şübhələr didirdi onun başını.

Bilmədi o, yolu heç necə gəldi.

Fikirlər ox kimi qəlbini dəldi.

Yamənin evinə artıq çatmışdı.

Onun həyəcanı tamam artmışdı.

Titrəyən əlini cibinə saldı.

Cibindən tələsik açarı aldı.

Ürəyi şiddətlə tez-tez vururdu.

Qapının önündə güclə dururdu.

Açarı bir təhər saldı deşiyə.

Tələsik boylandı evə-eşiyə.

Əvvəlcə o, keçdi böyük salona.

Hər şey agah aldu, ordaca ona.

Bildi ki, bu evdə var bir yad kişi.

Nə idi görəsən, bax, burda işi?

Tamam mat qalmışdı özü-özünə.

İnana bilmirdi indi gözünə.

Ürəyi şiddətlə, tez-tez vururdu.

Əsəbdən dodağı, dili qurudu.

Tələsik özünü içəri saldı.

Gördüyü hər şeyə məətəl qaldı.

Qapını açaraq girdiyi zaman,

Açıq pəncərədən hoppandı oğlan.

Bəşir tez-tələsik irəli gəldi.

Sanki kürəyini bir xəncər dəldi.

Dayandı pəncərə önündə kişi.

Kəsdi dodağını sıxdığı dişi.

Boylandı aşağı, baxdı hər yana.

Əsəbdən qalmışdı o, yana-yana.

Qatı bir qaranlıq höküm sürürdü.

Uzaqdan arabir itlər hürürdü.

Heç nəyi seçmirdi Bəşirin gözü.

Sanki kor olmuşdu o anda özü.

Elə bil Elşəni udmuşdu gecə.

Bəşirin əlindən yox oldu necə?

Həyətdən gəlirdi küləyin səsi.

Bəşir görəmmədi orda heç kəsi.

Nəhayət, üzünü tutdu Yamənə.

Söylədi, sən kələk gəlirsən mənə?

Üzümə baxırsan nə maddım-maddım?

Şəhərdən çıxmamış mən bircə addım.

Başqa bir kişini evə salırsan.

Kef edib bunla da ləzzət alırsan.

Elə dolanırsan sanki mələksən.

De görüm, sən daha kimə gərəksən?

Təəccüblə Bəşirə baxdı Yamən.

Söylədi, nə olub, neynəmişəm mən?

Sən heç, nə deyirsən, bilmirsən özün.

Deyəsən qurtarıb indi də sözün.

Yalandan salmısan gəlib hay-həşir.

Başqa kişimi var burda, ay Bəşir?

Sən Allah, yalandan şərləmə məni.

Biabır edərəm hər yerdə səni.

Namuslu qadınam, bilirsən özün.

Deyəsən, doğrudan kor olub gözün.

Ağlını vermə sən öz arvadına.

Ləkəni o vurar sənin adına.

Hardadı o kişi, bir göstər mənə?

Tapmasan, sürpriz edəcəm sənə.

Bilirsən heç nədir, o sürpirizım?

Gizli bir sirrimiz var axı, bizim!

Zəng edib o, lotu arvadına mən,

Deyərəm hər şeyi, onda bilərsən.

Xəyanət eylə sən öz arvadına.

Söz çıxart yalandan mənim adıma.

Riyakar, yalançı bir kişisən sən.

Fikirləş doğrumu söyləyirəm mən?

Deyəcəm, arvadın olsun xəbəri.

Bilsin ki, mənimlə yaşayır əri.

Deyəsən, sən özün havalanırsan.

Yalandan məndən də qaralanırsan.

Doğrudan yaxşısa sənin arvadın,

Bəs niyə mənimlə çəkilir adın?

Özünü salıbsan sən dağa, daşa.

Yaxşı kişisənsə, evində yaşa.

Neynirəm sənin tək bir riyakarı?

Aldat hər addımda sən arvadları.

Bəşirin damarda donmuşdu qanı.

Əsəbdən lərzəyə gəlirdi canı.

Birdən o, Yamənin tutdu saçından.

Elə bil bezmişdi, sanki canından.

Başladı o, qızı yumruqlamağa.

Yamən də qışqırıb bərk ağlamağa.

Yumruqlar dəyirdi onun üzünə.

Başına, gözünə, gah da dizinə.

Bütün qab-qacağı vurub qırdılar.

Süfrəni, pərdəni dartıb cırdılar.

Onun boğazından yapışdı Bəşir.

Sanki şikarını sürüyürdü şir.

Möhkəmcə boğurdu kişi Yaməni.

Deyirdi, aldada bilməzsən məni.

Mənim arvadımla, de, nədir işin?

Ağzından vuraram qalmaz bir dişin.

Mən sənə demişəm çəkmə adını.

Beləcə görərsən yoxsa dadını.

O mənə bəxş edib uşaqlarımı.

Ayıra bilməzsən məndən yarımı.

Adını çəkməyə layiq deyilsən.

Yüz dəfə demişəm, həddini bil sən.

Başımın tacıdır, evimdə xanım!

Bax, ona görə də alaram çanın.

Fahişə özünsən, bir aç gözünü.

Sən ki, kor deyilsən, tanı özünü.

Məndənmi yer aldı sənin ayağın?

Bircə an dayanmır simli dodağın.

O mənim xanımım, sən fahişəsən!

Gərək öz yerini yaxşı biləsən.

Boğduqca Yamənin gözü qaraldı.

Özünü masanın yanına saldı.

Əlini uzatdı, masada qaba.

Güc-bəla götürdü bir dəmir tava.

Tavanı endirdı onun başına.

Qan axıb töküldü tamam qaşına.

Ordan süzülürdü düz yanağına.

Bir ucu çatmışdı üst dodağına.

O zaman Yaməndən çəkdi əlini.

Bir azca dikəltdi Bəşir belini.

Gördü ki, köynəyi boyanıb qana.

Ordan da sıçrayır qan hər bir yana.

Əvvəl anlamadı olub-keçəni.

Yamənmi bələdi qanıma məni?

Söylədi, didərgin edərəm səni.

Bir dəfə vurmayıb arvadım məni.

Qudurdun, dünyanı görməyir gözün.

Ləçərsən, bax, indi gördünmü özün?

Mən uydum, aldandım yalanlarına.

Sözümü deyirəm qalanlarına.

Qoy kımsə düşməsın belə bir tora.

Üzüqara gedər öləndə göra.

Sən məni yalançı, riyakar etdin.

Kimi istəyəndə onunla getdin.

Nə qədər kişini tora salıbsan.

Bütün əməlindən razı qalıbsan.

Nədən yaradıbdı Allahım səni?

Lənət olsun sənə, bax, qəni-qəni.

Axtarma, bir daha dönən deyiləm.

Qul kimi önündə yenə əyiləm.

Əgər arvadıma yaxınlaşsan sən,

Dünyanı başına dar edərəm mən.

Deyirəm, budur, bax, sənə son sözüm.

Bir daha görməsin heç səni gözüm.

Aldığım hər bir şey haramın olsun.

Bütün arzuların yerində solsun.

***

Bəşir evdən çıxıb mindi maşına.

Güzgüdə baxdı o, qanlı başına.

Məəttəl qalmışdı bu işə özü.

Güzgüdə qalmışdı kişinin gözü.

Başından su kimi axırdı qanı.

Əsəbdən titrəyib, yanırdı canı.

Boylandı o yana, bir də bu yana.

Gördü ki, köynəyi batıb lap qana.

Fikirlər dolandı onun başında.

Əlavə köynəyi vardı maşında.

Tələsik özünə kişi əl qatdı.

Köynəyi çıxarıb kənara atdı.

Başqa bir köynəyi əyninə taxdı.

Üzünə tökülən qanlara baxdı.

Su ilə yudu o öz üz-gözünü.

Qaydaya salmışdı artıq özünü.

Bilmirdi nə etsin indi bu kişi?

Bəs neçə ört-basdır eyləsin işi?

Fikirlər içində gəldi evinə.

Əlini ehmalca saldı cıbınə.

İstədi açarı cibindən alsın.

Qapının yenidən üstünə salsın.

Bu zaman qapını Natavan açdı.

Bəşiri görəndə bənizi qaçdı.

Tələşla dilləndi, nə olub sənə?

Doğrunu söylə sən bu saat mənə?

Elə bil cırıblar sənin üzünü.

Nə hala salıblar gör bir özünü.

Başını cırıblar, tökülür qanın.

Yəqin ki, ağrıyır, inciyir canın.

Kim vurub, ay kişi, sənin özünü?

Allah qənim olsun, töksün gözünü.

Evdən sən indicə çıxıb getmisən.

Gedəntək kiminlə dava etmisən?

Bilmədi, arvada nə desin, Bəşir.

İstədi yalandan salsın hay-həşir.

Deyəsən, sən dəli olmusan özün.

Yaxşı bax, nə dava, kordumu gözün?

İstədim mən keçəm gecə küçəni.

Az qala bir maşın vurmuşdu məni.

Çox yaxşı qurtardım bu bəladan mən.

Gəl yodla yaramı, bağla bintlə sən.

Natavan kişiyə eylədi yardım.

Yaxına gəldi o bir neçə addım.

Elə bil davadan çıxıbsan kişi.

Maşın yox, üstünə cumubdu vəhşi.

Mənim bu gözlərim sərraf gözüdü!

Üzündə olanlar dırnaq izidi.

***

Çox dərin fikirə daldı, Natavan.

Canına bir qorxu düşmüşdü, inan.

Deyəsən heç nədən yoxdur xəbəri.

Nə işlər çevirir, görəsən əri?

Yüz faiz anladı, bildi Natavan,

Gizli bir sirri var ərinin bu an.

Canına düşmüşdü onun vəlvələ.

Sanki həyatında oldu zəlzələ.

Elə bil titrədi hər tərəf, hər yan.

Doğrudan inandı buna Natavan.

Deməli ortada başqa qadın var.

Başına bu dünya tamam oldu dar.

Ağlına gəlməzdi onun heç zaman,

Belə bir duruma düşəcək bu an.

Natavan donmuşdu, yerində qaldı.

Keçmişə qayıtdı, xəyala daldı.

Bir kino lentinə döndü keçmişi.

Gözünün önündə canlandı kişi.

Axı mən neynədim görəsən ona?

Nə məcbur olub ki, girir min dona.

Var evdə hər cürə səliqə-səhman.

Xörəyim hazırdır, mənim hər zaman.

Xalq həsəd aparır mənə həmişə.

Sən bir bax, Bəşirin gördüyü işə.

Var bizim gül kimi övladlarımız.

Hörmətlə çəkilir eldə adımız.

Köhnə bir söhbəti yadına saldı.

Əsəbdən Natavan min çür rəng aldı.

Bir gün öz evində oturan zaman.

Bəşirə bir sual verdi Natavan.

Deyirəm, ay Bəşir, əgər ölsəm mən,

De görüm neylərsən, bax, o zaman sən?

O, başdan-ayağa arvadı süzdü.

Sonra da ağzını azacıq büzdü.

Söylədi, Natavan, əgər ölsən sən,

O zaman tezliklə evlənərəm mən.

Bu sözlər arvadın düşdü yadına.

İndi kim çatacaq onun dadına.

Həmin bu sözləri eşidən zaman,

Fərqinə varmadı onda Natavan.

Elə bildi, Bəşir söylədi yalan.

Dedi ki, daş olsun buna inanan.

Deməli, düzünü deyirmiş kişi.

Aldatmaq olubdu həmişə işi.

Hər zaman inandım onun sözünə,

Ürəklə bağlandım hər an özünə.

Mənim etdiklərim tamam hədərmiş.

Həmişə aldadıb məni gedərmiş.

Mən nədən görmədim bu yalanları?

Gözündə vurnuxan o ilanları.

Gözündən sel kimi yaş süzülürdü.

Yanaqda sırayla tez düzülürdü.

Bu zaman hər yana yayıldı səsi.

Kədərə bürüdü evdə hər kəsi.

Birdən otağından tez çıxdı Ayaz.

Söylədi, ağlama, mənə qulaq as.

Bir xeyli əvvəldən bildim bu işi.

Gizlicə evlənib bizim bu kişi.

Üstəlik var onun gombul bir qızı.

Danışır hər şeyi yalan, qırmızı.

Onlara ev alıb, üstəlik maşın.

Xəbərin olmayıb, qarışıb başın.

Müğənni saxlayır gizlicə kişi.

Artisttək oynamaq olubdu işi.

Həmin müğənni də aldadır onu.

Gəlibdi işlərin, bax, indi sonu.

Elə bil arvadı cərəyan vurdu.

Sıçrayıb o saat ayağa durdu.

Nə sözdür danışdın, ay bala, Ayaz?

Dediyin sözlərə fikir ver bir az.

Bütün bu şeyləri hardan bilirsən?

Bəs nədən bunları mənə demirsən?

Ay ana, nə deyim, axı mən sənə?

Bunları söyləmək yaraşmaz mənə.

Bircə sənin bundan yoxdu xəbərin.

Hamı bilir onu saxlayır ərin.

Axmağın biridi həmin o qadın.

Korlayır hər yanda qadınlıq adın.

Lənətlər olsun, bax, belə qədərə.

Bizləri bürüdü qəmə, kədərə.

Atamın əlindən ağlını alıb.

Bu yaşda kişini çöllərə salıb.

Öyrəndim bir yaxın rəfiqəsindən,

Qopmayır kişinin heç sinəsindən.

Çayının içinə o tökür dərman.

Kişi şirə dönür elə həmin an.

Dərmanla bağlayıb onu özünə.

Atam əməl edir hər bir sözünə.

Öz doğma bacısı deyibdi ona.

Qurtar bu işləri tamamən sona.

Ziyandı, çayına az tök dərmanı.

Dərmanla ölümdür onun hər anı.

O zaman deyibdi həmin fahişə,

Baxmıram mən burda belə bir işə.

İstəyir lap ölsün, o bilər özü.

Vecimə deyil ki, kimsənin sözü.

Mənə pul lazımdır, ölsə də olar.

Keflənsin, bax, onda ciblərim dolar.

Verdiyi dərman da güclüdür yaman.

Ölümlə üzləşir kişi həmən an.

Bunların nəyini deyim, ay ana?

Biləndə qalırsan sən yana-yana.

O zaman olan da olur özünə.

İnanma, atamın heç bir sözünə.

Aldığı nəfəs də vallah yalandı.

Gör gedib kimlərə kişi calandı...

***

Oğluna diqqətlə o qulaq asdı.

Bağrına elə bil sanki dağ basdı.

Ay oğul, ayıbdı eldən-obadan.

Qohum olduğumuz təzə qudadan.

Bu kişi itirib öz mənliyini.

Söz-söhbət pozmasın toy şənliyini.

İndi var qabaqda sənin öz toyun.

Onsuz da çıxardır bu kişi oyun.

Toy edək , gətirək gəlinimizi.

Söz-söhbət pozmasın işlərimizi.

Bilməyir nə edir, heç özü kişi.

Ayrılmaq olacaq bu evdən işi.

Başqa bir qadında qalıbsa gözü.

Buranı tərk edər sakitcə özü.

İstər qadın olsun, istərsə kişi,

Əgər başqa evdə gəzməksə işi.

Düzələn deyillər onlar heç zaman.

Yenə də aldadar, fürsət düşən an.

Gedəni heç cürə olmur saxlamaq,

Nə qədər xəyala düşəcək axmaq.

İnsanın ürəyi sanki aynadır.

Hissləri həmişə onu oynadır.

Vay elə o gündən çatlasın şüşə,

Ürəyin içinə bir qorxu düşə,

Heç cürə qorxunu çıxartmaq olmur!

Əvvəlki o sevgi yerinə dolmur.

Bu çatı istəsən edəsən təmir,

Çoxlu su aparar həmin o xəmir.

Bax, bu iş illərlə vaxt alacaqdı.

Ürəkdə yenə də iz qalacaqdı.

Həmin iz ömürlük ürəkdə qalır.

Ürəkdə özünə bir cığır salır.

Başına sıçrayıb deyəsən ağlı.

Bu qazan qaynasın qoy hələ bağlı.

***

Həmişə mehriban dolanmışdılar.

Onlar bir-birinə inanmışdılar.

Səs-səmir yayıldı artıq hər yerə.

Natavan büründü qəmə, kədərə.

İnana bilmirdi, həmin bu kişi,

Görəcək aləmdə belə bir işi.

Bilmirdi başına o gələnləri.

Nə işlər törədir kənarda əri.

Düşündü bəlkə də bunlar yalandır.

Gəl indi hamını buna inandır.

Fikirli-fikirli gəzirdi Bəşir.

Sorğular, elə bil, beynini deşir.

Yamənə, doğrudan, çox inanmışdı.

İndi olanlara o, mat qalmışdı.

Gözüylə görmüşdü həmin adamı.

Mənə rişxənd edir, görəsən, hamı?!

İnana bilmirdi kişi gözünə.

İstədi təsəlli versin özünə.

Əsəbdən görünüb yəqin gözümə.

İş açdım, deyəsən, mən də özümə.

Bəlkə bu gözlərim aldadır məni?

Mən belə bilməzdim, axı, Yaməni.

Yox, əşşi, kor deyil, görür gözlərim.

Hələ də titrəyir, əsir dizlərim.

Doğrudan mən qaçan gördüm kişini.

Gərək bitirəydim onun işini.

Əfsuslar olsun ki, ona çatmadım.

Tutub boğazından boğub, atmadım.

Qoy elə doğrudan rədd olsun Yamən!

Onun arxasınca sürünmərəm mən!

Adamı o, təmiz yandırır, yaxır.

Hər şeyə olduqca laqeyid baxır.

Vermişəm mən ona gözəl evini.

Bu günə qoyarmı adam kişini?

Cipi də hədiyyə eylədim ona.

Hər gündə dəyişir, girir min dona.

Almışam mən ona qızılla brilyant.

İndi də hamsını zibilliyə at.

Nə qədər pul tökdüm yalandan ona.

Qondarma məhəbbət yetişdi sona.

Kəsmişdim uşağın mən boğazından.

Pulları itirdim burda azından.

Üstəlik, itirdim abır-həyanı.

Söz-söhbət yayılıb, gəzir hər yanı.

Haqq olur, deyəcəm, indi özümə.

Gördüyüm işlərim girdi gözümə.

Günaha girmişəm, gör, bir nə qədər?

Bax, ona görə də bürüyüb kədər.

Artıq başlayıbdı evdə söz-söhbət.

Haqqımda danışıb, qırırlar qiybət.

İndi mən qalmışam pis vəziyyətdə.

Hədərə gedibdi hər əziyyət də.

Düşünə bilmirəm olub keçəni.

Hər yerdə qınayır görənlər məni.

***

Bu işə mat qaldı Yamənin özü.

Quruyub yox oldu ağzında sözü.

Düşündü , Allahım, bu oldu necə?

Bəşir nədən gəldi qəfildən gecə?

Görəsən, bu işdən varmı xəbəri?

Korladı bu axşam bütün işləri.

Bəs nədən getməyib axı xaricə?

Kimsə xəbər verib yəqin bu gicə.

Mənimçün gizlicə o qurdu plan.

Aləmi dağıtdı elə həmin an.

Görəsən, kim verib ona xəbəri?

Üstümə salıbdı bu bəxtəfəri.

Gül kimi hər yerdən dərirdim pulu.

Heç nəyi bilmirdi, bir Allah qulu.

Deyirəm, atarmı məni bu külbaş?

Öyrənim hər şeyi mən yavaş-yavaş.

Əsas pul mənbəyi bunun özüdü.

Bütün pulluların Bəşir gözüdü.

Həm də ki, əfəldi, o tez aldanır.

Dediyim yalana tezcə inanır.

Aytacın atası bilir özünü.

Doğrudan, öyrənsə əgər düzünü.

Yüz faiz başından məni rədd edər.

Hər şeyə tüpürüb, biryolluq gedər.

Bəşirdə bu qədər pul ola-ola,

Nə üçün rahatca mən salım yola?

Gərək mən yenidən könlünü alam.

Yenə də birlikdə onunla qalam.

Yamənin düşmüşdü qorxu canına.

İstəyirdi getsin onun yanına.

Bilmirdi bəs necə desin sözünü.

Təmizə çıxartsın yenə özünü.

Əlinə alırdı o, telefonu.

Məcbur eyləyirdi ürəyi onu.

Bəşirə zəng etdi, o, gecə-gündüz.

Kişi də yox idi, onda olan üz.

Bu gələn zənglərdən bezmişdi kişi.

Söz verdi bitirsin artıq bu işi.

Nəhayət, götürdü o, telefonu.

Yamən dilə tutdu o saat onu.

Başladı Bəşirə tez yalvarmağa.

Sonra da hönkürüb bərk ağlamağa.

Söylədi, mən sənsiz yaşayammaram.

Sənsizlik yükünü daşıyammaram.

Bilmirəm sən niyə, bax, qaralandın?

Bəhanə edərək tez aralandın.

Bir kimsə yoxuydu, deyirəm sənə.

Nədən inanmırsan, ay Bəşir mənə?

Yəqin ki, gözlərin alacalanıb.

Ev-eşik gözündə balacalanıb.

Deyəsən, özünü basıbdı qara.

Məni də salıbsan o gündən dara.

Bilirsən, mən səni hədsiz sevirəm.

Az qalır dünyanı geri çevirəm.

Gəl, məni bağışla, deyirəm sənə.

Yoxsa bu zülümlər dəyəcək mənə.

Sənsiz məhv edərəm, yoxsa, canımı.

Üstünə tökərəm, vallah, qanımı.

***

Əsəbdən bu kişi tir-tir əsirdi.

Bu sözlər qılınctək onu kəsirdi.

Güclə saxlayırdı Bəşir özünü.

Nəhayət, açılıb dedi sözünü.

Ağzına gələni orda danışma.

Allahın işinə nə də qarışma.

Mən səndən ötəri gic ha deyiləm?

Nə desən, önündə sənin əyiləm.

Vecinə deyil ki, mənim sözlərim.

Çox gözəl görür mənim də gözlərim.

Aç qulaqlarını, bir eşit məni.

Görmək istəmirəm heç zaman səni.

Bu gündən bir daha mənə vurma zəng.

Baş-gözüm əlindən olub tamam dəng.

Söylədi, qurtaraq daha bu işi.

Kəsdi danışığı yenə də kişi.

Əsəbdən heç nəyi görmürdü gözü.

Çırpdı yumruğunu divara özü.

Əlindən şiddətli bir ağrı qalxdı.

Qolunu qaldırıb əlinə baxdı.

Şişdi barmaqları, qızardı əli.

Ağrıdan göynədi ağzında dili.

Güc-bəlayla özünü ələ aldı.

Bir qədər başını aşağı saldı.

Oturdu sakitcə xəyala daldı.

Bir müddət otduğu yerdəcə qaldı.

Sonra yavaş-yavaş gəldi özünə.

Eynəyi cıxardıb taxdı gözünə.

Baxdı ki, ağrıdan əli çatlayır.

Şişməkdən elə bil dəri partlayır.

Gətirib əlinə buz qoydu bir az.

Düşündü həkimsiz, deyəsən, olmaz.

Özünü çatdırdı, Bəşir, həkimə.

O, məhəl qoymadı orda heç kimə.

Getdikcə ağrılar yaman artırdı.

Sanki sinirləri kimsə dartırdı.

Rentgen eylədilər, verdilər qərar.

Dedilər, sümükdə sınıq və çat var.

Gipisə qoydular tez bağladılar.

Əlini qoynunda sıx saxladılar.

Bəşir mat qalmışdı özü-özünə.

Bu qolu dəydikcə indi gözünə.

Söylənib dedi ki, bax, ay avara,

Əlini sən nədən vurdun divara?

Gör kimdən ötəri düşdüm bu hala.

Hər şeydə qalmışam hamıdan dala.

O məni əlində oyuncaq etdi.

Aldadıb gizlicə hər yerə getdi.

Hər addım başında yalan danışdım.

Ən əskik işlərə belə qarışdım.

Lənətlər olsun, bu gün o şeytana.

Nə qədər zərbələr vurur insana.

Özümün gül kimi evdə yoldaşım,

Kimlərlə aldatdı onu boş başım.

Mən nədən aldandım, pozğun Yamənə?

Haqq olub, deyirlər, indi də mənə.

Evinə üz tutdu Bəşir kor-peşman.

Bilmirdi nə desin evdə həmən an.

Qapını Bəşirə Natavan açdı.

Kişini görəndə rəngi tez qaçdı.

Söylədi, nə olub sənə, ay kişi?

Söylə bir, başına gələn bu işi.

Düzəlib gedirsən elə yoluna.

Baxmırsan heç zaman sağ və soluna.

Yəqin ki, sən qəza eylədin yenə.

Həmişə "Yavaş sür", deyirəm sənə.

Kişi gülümsədi, dedi, Natavan,

Elə şey yoxdur ki, qorxasan bu an.

Qəza-zad olmayıb, deyirəm sənə.

Ömründə bir kərə sən inan mənə.

Ayağım büdrədi yeriyən zaman.

Yıxıldım, biləyim sındı həmin an.

Natavan düşmüşdü ələ-ayağa.

Tələsik gedirdi dala-qabağa.

Əvvəlcə özünü bir az itirdi.

Başirə pürrəngi bir çay gətirdi.

***

Həyat dərs vermişdi, sanki, kişiyə.

Sığa bilməyirdi evə-eşiyə.

Olduqca qaraydı Bəşirin qanı.

Möhkəmcə ağrıyırdı həm də canı.

Bir gün işdən gəlib evdə yatmışdı.

Yuxuda tərləyib suya batmışdı.

Zəng gəldi, səsləndi tez telefonu.

Yuxudan oyatdı bu səslər onu.

Diqqətlə baxdı o tez telefona.

Çox tanış gəlirdi bu nömrə ona.

Yamənin ən yaxın rəfiqəsiydi.

Tanıdı, Sonanın düz öz səsiydi.

Tələsik Bəşirə söylədi Sona.

Dedi ki, olduqca pis olur ona.

Bu saat çox pisdir Yamənin halı.

Getdikcə dəyişir onun əhvalı.

Deyirəm, doğrudan gəldiniz gözə.

Heç gücü catmadı bu işə dözə.

Sonunda içibdi bir qutu dərman.

Evində can verir, o yazıq, bu an.

Bəlkə də Yamənin son nəfəsidi.

Səni sevməyinin nəticəsidi.

Yalvarır, sən ona yetir özünü.

Qoy sənə söyləsin, o, son sözünü.

Gəl mənim sözümü heç yerə salma.

Bu olan şeyləri vecinə alma.

Bağışla sən onu, keç günahından.

Qurtara bilməzsən yoxsa ahından.

Sona dayanmadan hey dil tökürdü.

Dilotu yemiştək, elə ötürdü.

Çox dərin fikirə getmişdi Bəşir.

Sonaya nə düşüb, salır hay-həşir.

Qoy ölsün, rədd olsun mənim başımdan.

Utandım, özümün lap bu yaşımdan.

Elə bil Bəşiri cərəyan vurdu.

Birdən o, sürətlə ayağa durdu.

Güllə tək qapıdan çıxdı bir anda.

Qəribə bir istək oyandı onda.

Necə gəldiyini bilmədi özü.

Yamənin üzündə qalmışdı gözü.

Bəşiri görəndə kövrəldi Yamən.

Söylədi, neynirəm, sənsizliyi mən?

Yaxşı ki, son dəfə, bax, gördüm səni.

İstəyirdim deyəm, bağışla məni.

Dözmədim, qəst etdim gecə canıma.

Zəhərtək yeridi dərman qanıma.

Həkimlər güc-bəla qurtardı məni.

Ayıldım, yatmadım, bütün gecəni.

Yudular mədəmi, təmizlədilər.

Yanımda həkimlər çox gözlədilər.

Elə ki, gördülər gəldim özümə.

Riayət etdilər mənim sözümə.

Yığdılar çantaya iynə, dərmanı.

Tərk edib getdilər, bax, bu məkanı.

***

Yamənin gözündən yaş süzülürdü.

Muncuqtək yanaqda tez düzülürdü.

Yumşaldı Bəşirin yenə ürəyi.

Elə bil odlandı sanki kürəyi.

Bir qüvvə bağladı onu özünə.

Diqqətlə Yamənin baxdı gözünə.

Görmək istəyirdi, o, məhəbbəti.

İstəyirdi bilsin tam həqiqəti.

Basdı sinəsinə Bəşir Yaməni.

Söylədi, bir daha incitmə məni.

Mənim ailəmdən, bax, dur aralı.

Əgər sən olsan da dünya maralı.

O zaman doğrudan çıxıb gedərəm.

Ən böyük pisliyi sənə edərəm.

Gözünün önündə qoy dursun Aytac.

Olarsan hər şeyə doğrudan möhtac.

Heç zaman çıxmaram, dedi, sözündən.

Xəbərsiz getmərəm sənin özündən.

Heç kimlə, heç zaman, bax, olmaz işim.

Bircə kaş yanımda olsun bu kişim.

***

Yamənin işləri düşdü yoluna.

Bəşiri o taxdı yenə qoluna.

Hazırlıq edirdi evdə Natavan.

Vaxt-vədə çatırdı artıq anbaan.

İş-gücə qarışdı arvadın başı.

Bilmirdi nə edir çöldə yoldaşı.

Yamənlə Bəşirin verdi Allahı!

Üst-üstə yığdılar yenə günahı.

Yenə də başladı gəzintiləri.

Gəzdilər birlikdə bütün yerləri.

Bir gün o, Yamənlə oturan zaman,

Gördü ki,zəng gəlir ona anbaan.

Yamən də o saat qaçır kənara.

Üzünü çevirir tezcə divara.

Gizlicə kimləsə tez-tez danışır.

Sifəti qızarıb sanki alışır.

Bəşirin kürkünə tez düşdü birə.

Az qaldı əsəbdən o girsin yerə.

Boylandı o yana, bir də bu yana.

Düşündü nə deyim mən bu heyvana?

Xəlvəti bildiyi işləri edir.

Görəsən indi də kiminlə gedir?

Axı bu Yamənin çatmayır nəyi?

O məndən hər cürə alır köməyi.

Mən buna, nədənsə, heç inanmıram.

Təmiz olduğunu daha sanmıram.

Hər addım başında aldadır məni.

Sanki ovsunlayır onu görəni.

Görəsən neyləyir bu Yamən mənə?

Ayrıla bilmirəm mən ondan yenə.

Bax, nəyi artıqdı Natavanımdan?

İt kimi əl çəkmir mənim canımdan.

Mən nədən gəlirəm onun yanına?

Sonra da od dolur şirin canıma.

Gözümlə gördüm mən evdə adamı.

Doğrudan tanıyır Yaməni hamı.

Elə bil heç nəyi görməyir gözüm.

Bu işin içindən çıxacam özüm.

Başiri qəm-kədər, fikir götürdü.

Dərindən ah çəkib, o, köks ötürdü.

Aradan keçmişdi azca bir zaman.

Dəliyə dönmüşdü bu kişi, inan.

Bir gün o, Yamənin gəldi yanına.

Gizilti düşmüşdü onun canına.

O gəlib uzandı bir az divanda.

Çayı dəmləyirdi Yamən o yanda.

Bəşirin tez yuxu getdi gözünə.

Bir müddət sonradan gəldi özünə.

Astaca qaldırdı kirpiklərini.

Görürdü Yamənin ağ əllərini.

Yamən çox həvəslə süfrə qurmuşdu.

Süfrəyə nə qədər bəzək vurmuşdu.

Bürüdü aləmi yeməyin ətri.

Yemək istəyirdi Bəşirin xətri.

Əvvəlcə, "Çay gətir", dedi Yamənə.

Yeməyi sonradan qoyarsan yenə.

Yuxudan açılmır nədənsə gözüm.

Bilmirəm nə olub, heç mənə, özüm?

Yenə də o yumdu qəsdən gözünü.

Yatmıştək göstərdi Bəşir özünü.

Gözünün altından baxırdı, kişi.

Ehmalca görürdü Yamən hər işi.

Əvvəlcə pürrəngi çayını süzdü.

Sonra da sininin içinə düzdü.

Bəşirə tərəf tez boylandı Yamən.

Cibindən bir şüşə çıxartdı həmən.

Şüşənin ağzını açdı ehmalca.

Tez çayın içinə tökdü bir azca.

İnana bilmədi kişi gözünə.

O, sual eylədi özü-özünə.

Allahım, bilmirəm, bax, bu nə edir?

Tələsik o yana-bu yana gedir.

Nə idi o çaya tökdüyü dərman?

Dəhşətə gəlmişəm mən özüm, inan.

Miqdarı dərmanın çox olan zaman,

Dayanar ürəyi adamın o an.

Kinoda görmüşəm bu işləri mən.

Sən bircə riskə bax, neynəyir Yamən?

Deməli, anladım mən olanları.

O tökür çayıma bu dərmanları.

Onunçün oluram həmişə nasaz.

Asılılıq yaradır bu həm də bir az.

Sən bircə bax bunun planlarına.

Uydurub dediyi yalanlarına.

Deməli, hər şeyə bu qız əl atır.

Yalanlar içində getdikcə batır.

Həmişə o məni toruna salır.

Bundan da olduqca lap ləzzət alır.

Videoya çəkdi Bəşir bu anı.

Lərzəyə gəlmişdi kişinin canı.

Çayları süfrəyə gətirdi Yamən.

Bəşirə dedi ki, iç çayını sən.

Dərdini, qəmini bir kənara at.

Yeməyi gətirim indi bu saat.

Sonra da rahatca oturum mən də.

Hər şeyə feyziyab olarsan sən də.

Sözləri söyləyib, çıxdı otaqdan.

Bunu gözləyirdi Bəşir bayaqdan.

Çayların yerini dəyişdi kişi.

Səbirlə eylədi gördüyü işi.

Sonra da rahatca içdi çayını.

Hər şeydən doyunca yedi payını.

Bəşirin gözləri onda qalmışdı.

Sanki o, aləmə bir səs salmışdı.

Hər yerə yayıldı haray-həşiri.

Vecinə almırdı Yamən Bəşiri.

Kefi çox qalxmışdı ala buluda.

Heç nəyi görmürdü elə bil o da.

Kənardan dayanıb baxırdı kişi.

Düşündü, bax, budur dərmanın işi.

Bədənim qızarıb, səpirdi hərdən.

Həkimlər deyirdi, nə içmisən sən?

Normadan artıqdı içdiyin dərman.

Sən şoka düşərsən, lap elə bu an.

Deyirdim, heç nəyi icməmişəm mən.

Onlar da deyirdi, gizlədirsən sən.

Bu dərman içkiylə qarışan zaman,

Deyirlər, adamı öldürər, inan.

Sən bir bax, Yamənin tutduğu işə.

Gör nəyi edibdi özünə peşə.

Deməli, hər zaman aldadır məni.

Mürdəşir qoy yusun, həmən Yaməni.

Deməli, qorxmayır heç ölməyimdən.

Pul üçün razıdır, hey gəlməyimdən.

***

Bəşir ordan çıxıb gəldi evinə.

Yamən qoymayırdı bir gün sevinə.

Yenə də kişinin qaraldı qanı.

Əsəbdən yanırdı elə bil canı.

Açıb xəbərləri baxdığı zaman,

Elə bil şok oldu elə həmin an.

İnana bilmədi Bəşir gözünə.

Məəttəl qalmışdı elə özünə.

Burda bir axunddan söhbət gedirdi.

Söhbətlər Bəşirə təsir edirdi.

Kişinin başından tökülürdü su.

Böyük bir rayonun axunduydu bu.

Özü də hər gün bir yasda olurdu.

Məclislər adamla tez-tez dolurdu.

Hamıya məsləhət verirdi kişi.

İçkini pisləmək olurdu işi.

Deyirdi, içkiyə siz meyl etməyin.

Namərhəm qadına yaxın getməyin.

Heç zaman götürmür Allah bu işi.

Evində oturar qeyrətli kişi.

Sən demə, axundun özü nə imiş?

Məclisdə yeyərmiş xurma və kişmiş.

Gizlində yeyərmiş, içərmiş özü.

Aləmlə bir olub indi də sözü.

Günlərin birində həmin bu molla,

İçkilər alırmış gizli bir yolla.

Cürbəcür içkini yığır maşına.

Nə qədər fikirlər gəlir başına.

Üz tutur bu axund qəbirstanlığa.

Dayanıb düşünür bircə anlığa.

Kiməsə zəng edib, telefon açır.

Gözündən hər yana qığılcım saçır.

Bir qadın görüb o, birdən dayanır.

Elə bil yatmışdı sanki oyanır.

Həmin o qadındır, çıxıbdı yola.

Dayanıb boylanır, sağa və sola.

Axundu görüb tez minir maşına.

Çəki-düzən verir o, üst-başına.

Maşınla gəlirlər qəbirstanlığa.

Boylanır hər ikisi bircə anlığa.

Görürlər heç kimsə görünmür gözə.

Düşürlər maşından ordaca düzə.

Maşından çıxardır o, bazarlığı.

Qoxuya bürüyür bu məzarlığı.

Yeməyin ətiri tutur hər yanı.

İçki də istəyir onların canı.

Məzarlıq içində süfrə qururlar.

Yeməkdən yeyirlər, araq vururlar.

***

Hər yerdən boylanır məzar daşları.

Çatılıb onların sanki qaşları.

Acizdi, hamısının çıxmır səsi.

Yox olub, kəsilib isti nəfəsi.

Bircə şey gəlməyir, heç əllərindən.

Bir kəlmə çıxmayır söz dillərindən.

Sadəcə, boylanır şəkillər daşdan.

Tez durub baxırlar onlar obaşdan.

Axşama tərəfdi, küləklər əsir.

Onlar yemək yeyib, çörəyi kəsir.

Badəni vururlar biri-birinə.

Axund əl aparır öz kəmərinə.

Qadını tez basır o qucağına.

Girirlər maşının bir bucağına...

***

Onların heç nədən olmur xəbəri.

Kimsəni görməyir qızmış gözləri.

Axundgil oraya gəldiyi zaman.

Sən demə, gözətçi ordaymış, o an.

Bu oğlan o dəmdə oradan keçir.

Görür ki, axundla bir qadın içir.

Çıxardır cibindən tez telefonu.

Çəkməyə başlayır qadınla onu.

Gördüyü şeylərə məətəl qalır.

Hər şeyi anbaan yaddaşa alır.

Həvəslə bitirir axund işini.

Onlar heç görməyir orda kişini.

Yığışıb düşürlər yola sonradan.

Gözətçi yox olur elə həmən an.

Şahidi olduğu işdən şok olur.

Beyninə min cürə suallar dolur.

Elə ki aradan keçir nə qədər,

Düşünür, zəhmətim getməsin hədər.

Bir gün o yenə də düşür yadına.

Şəhərdə bir dostu gəlir dadına.

Çəkdiyi videonu verir ona.

Bununla bu işlər yetişir sona.

Maraqlı xəbərdi, söyləyir oğlan.

Verim xəbərlərə mən onu bu an.

Xəbər yayılacaq bu gün hər yana.

Sabahdan səs salar bizim cahana.

Hamıya dərs keçən həmin o molla,

Biabır olunsun bəlkə bu yolla.

Aradan keçibmiş artıq neçə ay.

Axund arvadıyla evdə içir çay.

Deyir ki, ay arvad, eynəyi taxaq.

Oturub birlikdə xəbərə baxaq.

Qoy görək nə verir xəbərlər yenə.

Hər şeyi bilməyim vacibdi mənə.

Birlikdə oturur onlar divanda.

Axundu görürlər bu an ekranda.

Ay kişi, görürsən çəkiblər səni.

Bəs niyə xəbərdar etmirsən məni?

Durmadan soruşur ondan arvadı.

Ay kişi, nədir bu verlişin adı?

Axundun quruyur damarda qanı.

Elə bil ağzından çıxacaq canı.

Nə işdir mən düşdüm, deyir özünə?

Baxmayır arvadın bu an gözünə.

Görəydim, kaş bizi orda görəni.

Biabır eylədi hər yanda məni.

Tez deyir, atanın o əziz canı,

Gəl söndür, tezcənə həmin ekranı.

Sən niyə ekrandan baxırsan mənə?

Burdan bax üzümə, deyirəm sənə.

Arvadı söylənir, axtarma dava!

Deyəsən başına gəlibdi hava.

Çəkil qabağımdan, sən kənara qaç.

Gözümün önünü bu saatca aç.

Nə olub, ay kişi, deyirəm sənə?

Gözümün önündə durubsan yenə.

Hirslənib bu qadın durur ayağa.

Kişidən bir azca keçir qabağa.

Görsənir ekranda ordakı arvad.

Bununla eyləyir işləri bərbad.

O gəlib ekrana lap yaxın durur.

Arvadı elə bil cərəyan vurur.

Bu saat cavab ver mənə, ay kişi.

Bacımın sənlə, de, nədi işi?

Deyirsən, gedirəm mən bazarlığa.

Özünü verirsən tez məzarlığa.

Deməli, bacımla aldatdın məni.

Lənətə gələsən, ay kişi səni!

Bacım yox, bu gündən o, düşmənimdir.

Əzrayıl canına hər an qənimdir.

Biabır eylədin hər yanda bizi.

İtirə bilmədin, deməli, izi.

Buranı tərk elə, tez çıx eşiyə.

Mən nifrət eylədim sən tək kişiyə.

Deyirəm, mən sənə sözün düzünü.

Mürdəşir tez yusun sənin üzünü.

Axundun bərələ qalmışdı gözü.

Bilmirdi nə etsin indi də özü.

Kaş tuta biləydim onu çəkəni.

Biabır eylədi hər yerdə məni.

***

Bu xəbər yayıldı bu gün hər yana.

Doğrudan səs saldı bütün cahana.

Bəşir də eşitdi, bunları duydu.

Xəyallar içində bir az uyudu.

Biabır olubdu, dedi, bu molla.

Hər yana yayıldı sirri bu yolla.

Sirrini açıbdı Yaradan özü.

Aləmlə bir oldu söhbəti, sözü.

Bu tora düşəcəm bir gün də özüm.

Arvada çatacaq söhbətim, sözüm.

Kaş ağlı olaydı onun başında.

Biabır olubdu, bax, bu yaşında.

Deyirəm, son verim özüm-özümə.

Ayağım baxmayır sanki sözümə.

Axı nə bəladır, düşmüşəm özüm?

Heç nəyi görməyir elə bil gözüm.

Xəyanət eyləmək bir dəb olubdu.

Hamının canına, vallah, dolubdu.

Xərçəngə bənzəyir xəyanət, düzü.

Məhv edir düşdüyü evləri özü.

Yenə də də bu kişi xəyala daldı.

Suallar içində sanki qocaldı.

***

Bəşirin yanına gəldi Natavan.

Gördü ki, sakitcə oturub bu an.

Bir mesaj atıldı kişiyə birdən.

Mesajı Natavan gördü qəfildən.

Baxdı ki, gəlibdi mesaj Yaməndən.

Yazıb ki, "Bəşirim darıxıram mən.

Mənsiz neynəyirsən, bir de görüm, sən?

Yanıma, eşqim, sən haçan gəlirsən?"

Sənsiz bu ürəyim gör necə əsir?

Səni görmək üçün yaman tələsir.

Natavan boylandı, o yan-bu yana.

Gizilti düşmüşdü yenə də cana.

Söylənib Bəşirə, tutdu üzünü.

Dedi ki, deyəcəm indi düzünü.

Diqqətlə baxıram qara gözünə.

Oxşada bilmirəm səni özünə.

Sanki sən deyilsən qarşımda duran.

Nələri oxudum gözündən bu an.

Hər yeri gəzirsən, hey dolanırsan.

Dediyin yalana çox inanırsan.

Dəyişdi həyatım, döndü zəhərə.

Büründüm hər zaman qəmə-kədərə.

Yalan ayaq tutar, amma yeriməz.

Aləmi boş yerə heç vaxt bürüməz.

Deməli, dəqiqdir eşitdiklərim.

Başqa bir qadına vurulub ərim.

Deyirəm, yenə də mən dönə-dönə,

Bütün qapılarım açıqdır sənə.

Tərk elə buranı elə bu saat.

Özünçün get yaşa, muradına çat.

Mənə lazım deyil sənin tək kişi.

Bərbad eyləyibsən bu gün hər işi.

Son dəfə mən səndən rica edirəm.

Ya ayrıl, ya da ki, çıxıb gedirəm.

Ağlını başına yığmasan əgər,

Bütün əməklərin gedəcək hədər.

Edərəm özünü ölüdən betər.

Səni yox etməyə bir güllə yetər.

Bax, özün hamıdan gözəl bilirsən.

Bir işi dedimsə, edəcəyəm mən.

Hirs ilə qapını çırpdı Natavan.

Güllə tək otaqdan çıxdı həmən an.

Başiri dindirib o danışmadı.

Qəlbində onunla heç barışmadı.

***

Aradan keçmişdi bir xeyli zaman.

Toya hazır idi artıq Natavan.

Nəhayət, yetişdi o toy axşamı.

Bəzənib bu toya gəlmişdi hamı.

Bəşir təmtəraqlı məclis qurmuşdu.

Məclisin önündə özü durmuşdu.

Çoxuydu onların toyda qonağı.

Görmək olmayırdı bir az qabağı.

Heç kimsə, kimsəyə vermirdi aman.

Sanki rəqs edirdi hamı eyni an.

Hər tərəf bəzənmiş güllə, çiçəklə,

Bəy başda oturmuş, sanki, mələklə.

Qıza da gəlinlik çox yaraşırdı.

Günəştək o, zala işıq sacırdı.

Hamıya xoş gəldi onun ədası.

Hər yana yayıldı toyun sədası.

Günlər bir-birini əvəz edirdi.

Hər bir iş yoluyla rahat gedirdi.

***

Günlərin birində Bəşir oyandı.

Güzgünün önündə gəlib dayandı.

Boylanıb güzgüdən baxdı özünə.

Sonra da başladı kişi sözünə.

Söylədi, Natavan yasa gedirəm.

Uzaq bir rayona səfər edirəm.

Dostumun qardaşı rəhmət edibdi.

Yasa dost-tanış, hamısı gedibdi.

Axşama dönəcəm evimə yenə.

Bir işin olarsa zəng elə mənə.

Bəşir sağollaşıb çıxdı qapıdan.

Onun arxasınca baxdı Natavan.

O heç bilmədi ki, nə oldu ona?

Düşündü, bu kişi girir min dona.

Ürəyi nədənsə çox qaralandı.

Sanki bədənindən ruh aralandı.

Gizilti düşmüşdü onun canına.

Bir kədər çökmüşdü, sanki, qanına.

Natavan dalınca baxdı Bəşirin.

Olmuşdu yeməyi, sanki, qan-irin.

Allahım, bax, nədir, gəldi başıma?

Görəsən nə oldu, bu yoldaşıma.

Natavan uzandı yatağa yenə.

Düşündü, ay Bəşir, nə oldu sənə?

Getdikcə dəyişir kişinin özü.

Düz gəlmir heç zaman sözünə düzü.

Aradan keçmişdi xeyli bir zaman.

Telefon zənginə durdu Natavan.

Açdı telefonu gördü ki, Bəşir.

Dünyaya salıbdı yenə hay-həşir.

Söylədi, Natavan necəsən özün?

Xoşuma gəlmədi bayaq üz-gözün.

Narahat qalmışam mən səndən yenə.

Bir həkim çağırım, deyirəm sənə.

Qurtarıb gələcəm işimi özüm.

Vallah, heç qalmayıb məndə də dözüm.

Nə qədər sənincün qaralıb qanım.

Bayaqdan yanında qalıbdı canım.

Yer tapa bilmirəm burda özümə.

Heç bir şey görünmür sanki gözümə.

Natavan güzgüdə baxdı özünə.

Məəttəl qalmışdı onun sözünə.

Söylədi, nə olub sənə, ay Bəşir?

Orda nə salıbsan yenə hay-həşir?

Məndə nə var ki, sən oldun narahat?

Sən orda işini gör rahat-rahat.

Bilmirəm nədir bu deyirsən mənə?

Xəstə olduğumu kim dedi sənə?

Nəhayət, Bəşirin qurtardı sözü.

Son verdi söhbətə yenə də özü.

Təəccüblə yenə qaldı Natavan.

Dəstəkdən səs gəldi elə həmin an.

Diqqətlə dinlədi onu yenidən.

Elə bil yatmışdı, ayıldı birdən.

Baxdı bir qadınla danışır kişi,

Sanki bədəninə sancdılar şişi.

Qadının qeydinə qalırdı Bəşir.

Aləmlə bir oldu orda hay-həşir.

Bəşir əzizləyib dedi Yamənə,

Al, bu pencəyimi verirəm sənə.

Üşüyürəm deyir, sanki gözlərin.

Soyuqdan buz olub gözəl əllərin.

Bilirsən nə qədər sevirəm səni.

Heyran eyləyirsən səni görəni.

Mən gəlib bu yaşa artıq dolmuşam.

Bax, sənin eşqindən dəli olmuşam.

Heç kimi görməyir sanki gözlərim.

Sənə xor gəlməsin mənim sözlərim.

Görərsən, o evi mən tərk edəcəm.

Sonunda sənlə çıxıb gedəcəm.

***

Quruyub yerində qaldı Natavan.

Ev-eşik başına fırlandı, inan.

Ürəyi titrəyib, əsirdi başı.

Nə sözlər deyirdi həyat yoldaşı?

Deməli, o, buna oyun oynadı.

Qaynar bir qazan tək coşub qaynadı.

Onun qulaqları uğuldayırdı.

Bu sözlər beynində guruldayırdı.

Heç nəyi görmürdü artıq gözləri.

Anlaya bilmirdi daha sözləri.

Bir qədər dayanıb o, fikrə daldı.

Sonradan özünü tez ələ aldı.

Fikrini toplayıb ayağa durdu.

Yenidən Bəşirə özü zəng vurdu.

Söylədi, yanında, de, kim var sənin?

Nədir o dediyin axmaq sözlərin?

Bir utan ağarmış saçından, kişi.

Kim tutar bu yasda, bax, belə işi?

Bəs evdən çıxanda yasa getmişdin?

Hər şeyi gizlicə təşkil etmişdin?

Eşitdim dediyin bütün sözünü.

Nə hesab edirsən, Bəşir, özünü?

İndi ki, onunçün belə ölürsən,

İşləri, de, nədən gizli görürsən?

Bu saat dön evə, deyirəm, sənə.

Bir kəlmə söyləmə bu haqda mənə.

Yoruldum mən sənin yalanlarından.

Heç nəyin ləzzəti qalmadı, inan...

***

Tutuldu Bəşirin sanki gözləri.

Eşidə bilmirdi artıq sözləri.

Qulağı kar kimi tamam batmışdı.

Onun yalanları sona çatmışdı.

Yox idi deməyə bir kəlmə sözü.

Bilmirdi, nə etsin indi də özü.

Yalandan eylədi Bəşir and-aman.

Söylədi, yasdayam mən indi, bu an.

Kimləsə səsimi, bax, səhv salmısan.

Sən nədən nigaran olub qalmısan?

Dostumun yanında vardı yoldaşı.

Onunla danışır hər addım başı.

Görmürsən onların sən özlərini.

Ancaq eşidibsən bu sözlərini.

Sən nədən atırsan mənə şər, böhtan?

Ağbirçək qadınsan, yaşından utan.

Etdiyin o böhtan mənə yaraşmaz.

Adam bu qədər də həddini aşmaz.

Ağlını top elə sən öz başına.

Nahaq söz söyləmə, gəl, yoldaşına.

Əlindən boğaza yığılıb canım.

Əsəbdən donubdu bədəndə qanım.

Başir telefonu tezcə bağladı.

Əsəbdən Natavan onda ağladı.

Aradan keçmişdi azca bir zaman.

Telefon qəfildən səsləndi o an.

Bu səs xəyallardan ayırdı onu.

Yenidən götürdü o, telefonu.

Bəşirin dostuydu telefon açan.

Hal-əhval tutdu o, elə həmin an.

Birbaşa söylədi tez Natavana.

Dedi ki, düzünü deyəcək ona.

Bəşirin bu işdə yoxdu günahı.

Adamın üstündə vardı Allahı.

Mənimlə birgədir həmin o qadın.

Günaha batırdı Bəşirin adın.

Mənimlə danışır, qız Bəşirlə yox.

Səs-küylü məkandı, buralar da çox.

Bax, ona görə də səhv salmısan sən.

Allaha and olsun, düz deyirəm mən.

Natavan söylədi, bəsdi, ay qardaş.

Bəşirin başına düşsün yekə daş.

Bilmirəm, nə sözdür, söyləyirsən sən?

İllərdi kişini tanıyıram mən.

Axı nə qurmadı, qurubsuz mənə?

Yəqin o, deyib ki, zəng elə, sənə.

Doğrudan sənինlə birdirsə Bəşir,

Salmayın yalandan orda hay-həşir.

Bu saat dəstəyi ona verərsən.

Bax, onda sizlərə inanaram mən.

Kişinin gəlmədi dəstəkdən səsi.

Bu zaman kəsildi, sanki, nəfəsi.

Bilmədi, nə desin ona bu zaman.

Cavab gözləyirdi ondan Natavan.

Nəhayət, dillənib söylədi kişi.

Bəşirin kimləsə var bir az işi.

Bu saat bitəcək söhbəti, sözü.

Yenidən arayar o səni özü.

Natavan dillənib dedi, ay qardaş,

İndi mən deyənə gəlibsən birbaş.

Yalandan özünə bu şəri atma.

Aləmi nahaqdan sən orda qatma.

Var onun əlində özünün işi.

Nə gəzir bu zaman yanında kişi?

Deyirəm mən sənə çox dönə-dönə,

Yalançı sözləri söyləmə yenə.

***

Dəstəyi yerinə qoydu Natavan.

Getdikcə pisləşdı əhvalı o an.

Gözünün önündə nələr canlandı.

Getdikcə yanağı xəfif allandı.

Yadına düşmüşdü gözəl cavanlıq.

Gözləri qaraldı onun bir anlıq.

Kaş dönə biləydi bircə anlığa.

Geriyə dönməyən o cavanlığa.

Hər bir şey düşürdü bir-bir yadına.

Tez Bəşir çatardı onun dadına.

Ayrılmaq bilmirdi o, Natavandan.

Dincliyi yoxuydu tanış olandan.

Onların sevgisi düşmüşdü dilə.

Sədası yayıldı ellərdən elə.

Bu sevgi od tutub, alovlanırdı.

Natavan Bəşirlə birgə yanırdı.

Elçilər yol saldı bu qız evinə.

Qız evi qoymadı Bəşir sevinə.

Vermək istəmədi qızın atası.

Az qaldı o işin çıxa xatası.

Nəhayət, bu sevgi, yendi kişini.

O poza bilmədi heç toy işini.

Gördü ki, Natavan saralıb, solur.

Həmişə, hər zaman pərişan olur.

Heç bir vaxt gülmədi qızının üzü.

Buna da pis oldu atası, düzü.

Sonda da fikrindən daşındı kişi.

Artıq yola verdi bu xeyir işi.

Natavan Bəşiri sevmişdi özü.

Onunçün səhvini görmürdü gözü.

O, lap hədsiz ərinə meyl salmışdı.

Bəşirdən həmişə razı qalmışdı.

Natavan mat qaldı indi ərinə.

Suallar getdikcə getdi dərinə.

Nə oldu, görəsən axı kişiyə?

Bəs nədən yadlaşır evə-eşiyə?

Deməli, dünyanın beləymiş işi.

Arvad qocaldıqca, dəyişir kişi.

Deyəsən, onların kor olur gözü.

Görmürmü qocalır onların özü.

Uşaqlar böyüyüb evlənən vaxtı.

Açılıb, deyəsən, kişinin bəxti.

***

Heç nəyi boynuna almadı Bəşir.

Yalandan o, evdə saldı hay-həşir.

Bir müddət araya sakitlik çökdü.

Şübhələr bu qızın qəlbini sökdü.

Natavandan keçə bilmədi əri.

Pozdu o, Yamənlə əlaqələri.

Ondan aralana bilmirdi Yamən.

Sənsiz yaşamaram, söyləyirdi, mən.

Bəşir üz vermədi daha Yamənə.

Söylədi, adammı qəhətdi sənə?

Bu işdən xəbərdar olub arvadım.

Xəyanət eyləyən qalacaq adım.

Ayrıla bilmərəm xanımımdan mən.

Doğrusu budur ki, gəl, aralan sən.

Doğrudan sevdiyim öz xanımımdır.

Bütün gözəlliklər o canımımdır.

Üç övlad bəxş edib mənim özümə.

Mələk tək görünür hər an gözümə.

Yaxşısı budur ki, aralan məndən.

İnan ki, doymuşam mən daha səndən.

Gizlicə bu qırğın davam edirdi.

Quş kimi ömürdən günlər gedirdi...

***

Aradan keçmişdi xeyli bir zaman.

Bir xəbər eşitdi yenə Natavan.

Dedilər, kimləsə fırlanır əri.

Mat qaldı biləndə həmin xəbəri.

Allahım, bu nədir, gəldi başıma?

Görəsən, nə oldu öz yoldaşıma?

Vuruldum Bəşirin o vaxt özünə.

Baxmadım yazıq böyük sözünə.

Sevgi kor eylədi mənim gözümü.

Heç cürə eşitmir indi sözümü.

Bəlkə də kişiyə böhtan atırlar.

Yalandan aləmi möhkəm qatırlar.

İndi mən güdəcəm onun özünü.

O zaman biləcəm işin düzünü.

Bir gün oğlu ona verdi bir xəbər.

Atam bir qadınla gəzir bəxtəvər.

Hər axşam gedirlər düz bizim bağa.

Atam bazarlıqla düşür qabağa.

Hər gündə bir şeyi hədiyyə edir.

O səni aldadıb onunla gedir.

Natavan quruyub yerində qaldı.

Bu xəbər arvadı nə hala saldı.

Nə sözdür, ay Ayaz danışırsan sən?

Dediyin sözlərə inanımmı mən?

Nədən bu günlərə düşdü bu kişi?

Yoxdurmu görəsən onun öz işi?

Kim deyib bunları, ay bala, sənə?

Ox kimi dəyibdi bu sözlər mənə.

Kor deyil, ay ana, mənim də gözüm.

Doğrudan görmüşəm onları özüm.

Hər gündə bir yerdə bağa gedirlər.

Dünyanın kefini onlar edirlər.

Natavan dərindən bir köks ötürdü.

Dünyanın kədəri onu götürdü.

Aradan keçmişdi azca bir zaman.

Əynini geyinib qalxdı Natavan.

Təcili bir taksi sifariş etdi.

Heç kimə demədən o, bağa getdi.

Açdı tez qapını həyətə keçdi.

Əvvəlcə özünə gizli yer seçdi.

Keçib zirzəmiyə orda oturdu.

Arada yorulub ayağa durdu.

Getdikcə çırpındı onun ürəyi.

Odlanıb yanırdı sanki kürəyi.

Hər yerə çökürdü acı qaranlıq.

Vahimə basmışdı onu bir anlıq.

Natavan başladı artıq qorxmağa.

Tələtüm içində çölə baxmağa.

Getdikcə qaranlıq qatılaşırdı.

Həyacan başından tamam aşırdı.

Qorxudan ürəyi tir-tir əsirdi.

Evinə dönməyə çox tələsirdi.

Bilmirdi neyləsin heç onun özü.

Ətrafı görmürdü getdikcə gözü.

Artıq yavaş-yavaş peşman olmuşdu.

Qorxudan gözləri yaşla dolmuşdu.

Daha heç bir yerə çatmırdı əli.

Az qala qorxudan olurdu dəli.

Qapının dalını möhkəm bağladı.

Gözündən sel kimi yaşlar çağladı.

Masanı qapının dalına basdı.

Bütün əşyaları qapıdan asdı.

O, əmin oldu ki, qapı bağlandı.

Qapının dalında qorxub saxlandı.

Ətrafa qorxaraq o boylanırdı.

Hərdən də oğluna çox inanırdı.

Arada düşünüb deyirdi, Ayaz,

Heç zaman boş yerə məni aldatmaz.

Yəqin ki, onun da vardı bildiyi.

Duyubdu hardansa o, da bu iyi.

Eybi yox, az qalıb, daralır zaman.

Aydınlıq gələcək hər şeyə, inan.

Fikirlər baş alıb sanki gedirdi.

Natavan arada var-gəl edirdi.

Hərdən düşünürdü, bəlkə yalandı?

Bu işə bəs nədən axı inandı?

Qaranlıq içində o anda birdən,

Həyətə bir işıq düşdü qəfildən.

Boylandı tələsik o, pəncərədən.

Vahimə basırdı onu hər yerdən.

Gördü ki, Bəşirdi düşən maşından.

Canına sakitlik çökdü həmin an.

Allahın işinə bax, sən bir indi.

Bəşiri görəndə o, çox sevindi.

Halbuki bayaqdan asıb-kəsirdi.

Kişini boğmağa çox tələsirdi.

Natavan tələsik durdu ayağa.

Bir azca duruxub keçdi qabağa.

Masanı qapıdan çəkdi kənara.

Azacıq söykədi onu divara.

Hər şeyi tulladı qapı dalından.

Kənara çəkilib dayandı o an.

Səbirlə başladı tez gözləməyə.

Oradan onları o izləməyə.

Əvvəlcə maşından düşdü bu kişi.

Səliqə yaratmaq oldu ilk işi.

Həyətdə qadına bir yataq saldı.

Maşından hər şeyi ehmalca aldı.

Qadına söylədi,: sən burda uzan.

Manqalı quracam bu saat, bu an.

Mən sənə çəkəcəm kababı özüm.

Sən dincəl, rahatlan, ay iki gözüm.

Elə ki, masamız hazır olacaq,

Üzəri kababla tamam dolacaq.

O zaman süfrəyə buyurarsan sən.

Hər şeyi sənincün düzəldəcəm mən.

Natavan kənardan qulaq asırdı.

Səbrini güc ilə, zorla basırdı.

Dişləri kəsirdi bağırsağını.

Deyəsən, çıxartdı kişi ağını.

Özünü verməzdi işə heç zaman.

Çox gözəl bilirdi bunu Natavan.

Elə ki, gələrdi özləri bağa,

Verərdi özünü kişi yatağa.

Deyərdi, heç nəyi bacarmıram mən.

Masanı hazırla, süfrəni qur sən.

Gör indi düşübdü nə əl-ayağa?

Hər şeydə veribdi özün qabağa.

Manqalı almağa gəlirdi Bəşir.

Elə bil gəzirdi qapıda bir şir.

Əlinə bir zopa aldı Natavan.

Qapının dalında gizləndi o an.

Elə ki, içəri girirdi kişi.

Qıcandı ağzında onun hər dişi.

Endirdi zopanı onun başından.

Su kimi gedirdi qan yoldaşından.

Bəşirin qorxudan yarıldı yağı.

Elə bil dağıldı beyin qapağı.

Bismillah, bismillah, deyərək qaldı.

Ölü tək özünü yerlərə saldı.

Natavan hopbanıb otaqdan çıxdı.

Qadının saçını ovcunda sıxdı.

Tutub qulağından yerlərə yıxdı.

Onun sinəsinin üstünə çıxdı.

Yumruqlar dəyirdi düz üz-gözünə.

Əlləri baxmırdı onun sözünə.

Aman verməyirdi, tərpənsin qadın.

O yazıq çıxartsın gecənin dadın.

Bəşir bir güc ilə gəldi özünə.

Qan axıb dolmuşdu onun gözunə.

Görmürdü gözləri onun heç yanı.

Ağrıdan yanırdı kişinin canı.

Bəşir tez-tələsik qapını açdı.

Natavan olduğu o yerə qaçdı.

Qadını güc ilə aldı əlindən.

Maşına basdı o, tutub belindən.

Sürətlə çıxdılar tezcə qapıdan.

Onların dalıyca baxdı Natavan.

Ətraf işıqlandı sanki bir anlıq.

Yenidən hökm etdi qatı qaranlıq.

Natavan olduğu yerdə qalmışdı.

Azacıq olsa da, qisas almışdı.

Sakitlik çökmüşdü lap ürəyinə.

Rahatlıq yayıldı düz kürəyinə.

Getdikcə dərindən bir nəfəs aldı.

Özünü yatağın üstünə saldı.

Gördü ki, sıxıbdı ovcunu bərk-bərk.

Bunu çox sonradan o, eylədi dərk.

Natavan yumulmuş əlini açdı.

Sırğanı görəndə dodağı qaçdı.

Qadının saçını yolduğu zaman,

Sırqanı qopartmış bir qulağından.

Ovcunu açanda elə həmin an.

Sırğanı ovcunda gördü, Natavan.

Həmin o sırğa ki, Bəşir almışdı.

Bunun bir tayını indi salmışdı.

Qadının yoxuydu bundan xəbəri.

Bu qıza sırğanı alıbdı əri.

Ətrafa baxdı o, qəmlə, kədərlə,

Barışa bilmirdi belə qədərlə.

Bir xeyli dayanıb beləcə durdu.

Bu gecə ömrünə bir balta vurdu.

Aradan keçmişdi azca bir zaman.

Qapıda göründü Bəşir həmin an.

Tutdu Natavanın tez əllərindən.

Səni həyatımdan çox sevirəm mən.

Şeytan çıxarıbdı məni yolumdan.

Yapışıb tutubdu sanki qolumdan.

Nə qədər mən yanlış addım atmışam?

Burdaca aləmi yaman qatmışam.

Qulaq as, sən burda öz yoldaşına.

Birlikdə oturaq indi maşına.

Gedək restoranda biz yeyib-içək.

Bu işin üstündən ömürlük keçək.

Bəşir hər bir şeyi yerbəyer etdi.

Natavanı alıb oradan getdi.

Yolda da dedi ki, o, Natavana.

Bir yardım eyləsin bu saat ona.

Qaytarsın sırğanın indi tayını.

Alacaq özünə sırğa payını.

Onun sırğasını nədən almısan?

Vallah, sən sırğasız guya qalmısan.

Əgər sən verməsən sırğanı ona,

Başqa cür çatacaq bu işlər sona.

Gərək yenisini alam onda mən.

De görüm, bu işə nə deyirsən sən?

Natavan nifrətlə baxırdı ona.

Söylədi, sən girmə min bir cür dona.

Ölsən də sırğanı verən deyiləm.

Sən kimsən, mən sənə indi əyiləm?

İstər al, istər alma, sən bilərsən.

Sırqanı qaytaran deyiləm ki, mən.

Bu nədir, nə olub görəsən sənə?

Sən bu nə sözlərdi deyirsən mənə?

Utan bir yaşından, başından kişi.

Çək-çevir elə sən gördüyün işi.

İtirdin, deyəsən, artıq ağlını.

Başından çıxart bu sevgi nağlını.

Üz vurma, sırğanı vermərəm sənə.

Bu haqda bir kəlmə söyləmə mənə...

***

Aradan keçmədi bir azca zaman.

Sırğanı zərgərə verdi Natavan.

Sırğadan bir üzük sifariş etdi.

Bununla bu söhbət tamamən bitdi.

Aylar dolanırdı, ötürdü illər.

Artıq dəyişirdi bir-bir fəsillər.

Bu evdə sakitlik davam edirdi.

Bəşir evdən çıxıb işə gedirdi.

Günlərin birində yenə Natavan.

Edirdi evində səliqə, səhman.

Təmizlik işini tezcə bitirdi.

Özünü mətbəxə gəlib yetirdi.

İstədi indi də bişirsin yemək.

Naharın vaxtına az qalıb, demək.

Tələsik başladı əti çəkməyə.

Üstünə cürbəcür ədva tökməyə.

Qapının zəngini vurdular bu an.

Evin kandarına gəldi Natavan.

Gördü ki, dayanıb çöldə bir qadın.

Qapının dalından söylədi adın.

Boylandı o yana, bu yana yenə.

Dedi ki, Natavan lazımdır mənə.

Nəhayət, qapını açdı Natavan.

İçəri keçirdi onu həmin an.

Söylədi qadına, ay bacı, kimsən?

Sən mənim evimə nədən gəlmisən?

Qadın tez boylandı o yan, bu yana.

Üzünü çevirdi o, Natavana.

Söylədi, qız evi göndərib məni.

Dəvət eyləyirlər nişana səni.

Qardaşın Bəşirə nişan edirlər.

Qonaqlar bu axşam ora gedirlər.

Sən necə bacısan bilərsən özün.

Nədən götürməyir Bəşiri gözün?

Sən razı deyilsən o da evlənsin.

Evində adam tək gedib dincəlsin.

Bacıya nə qədər baxacaq qardaş?

Göylərdən başına bir gün yağar daş.

İzin ver, ürəklə toyunu etsin.

Özünə ev qurub, ayrılıb getsin.

Onsuz da Bəşirin ötübdü yaşı.

Saçına dən düşüb, ağarıb başı.

Get uşaqlarını sən yığ başına.

Heç dəyib, dolaşma o qardaşına.

Deyir ki, yetiməm, bir kimsəm yoxdu.

Təkcə bir bacım var, dərdi də çoxdu.

Ölübdü çoxdandan yazığın əri.

Üstümə düşübdü bütün yükləri.

İşləyib baxıram iki uşağa.

Onuncün çıxmayır bacım qabağa.

İstəmir heç mənim evlənməyimi.

Bəylik libasımı geyinməyimi.

Evlənsən, kim baxar, deyir, uşağa?

Bax, ona görə də düşmür qabağa.

Gəl xanım, tök daşı ətəyindən sən.

Səni də aparım , o nişana mən.

Ay xanım, sən də ver xeyir-duanı.

Bizimlə qeyd elə bu xoşbəxt anı.

Qəfildən o, səni orda görəcək,

Bilirsən , nə qədər çox sevinəcək?

Allaha xoş gedər bu da, ay xanım!

Hazırlaş dur gedək sən mənim canım.

Quruyub yerində qaldı, Natavan.

Heykələ dönmüşdü elə həmin an.

Nəhayət, özünü o, ələ aldı.

Qadına yenidən bir nəzər saldı.

Söylədi, bu nədir danışırsan sən?

Heç cürə anlaya bilməyirəm mən.

Bəlkə səhv salmısan məni, ay xanım?

Təəccübdən damarımda donub qanım.

Nə qardaş salmısan, bacı salmısan?

Belə bir xəbəri hardan almısan?

Mənim öz kəbinli ərimdi Bəşir.

Burda nə salmısan sən haray-həşir?

Onların atası Bəşir özüdür.

Bilmirəm bu sözlər kimin sözüdür.

Ağzına gələni sən danışırsan.

Getdikcə həddini, vallah, aşırsan.

Qadın da bu işə tamam mat qaldı.

Sonunda o, qəti bir qərar aldı.

Dedi, bir söz deyim, ay xanım, sənə.

İnana bilmirsən, deyəsən, mənə.

Bu saat ikimiz gəl ora gedək.

Hər şeyi birlikdə tez sübut edək.

Tələsik əlini yudu Natavan.

Birlikdə düzəldi yola həmin an.

Gəldilər çatdılar həmin məkana.

Natavan boylandı qəfil hər yana.

İnana bilmirdi artıq gözünə.

O burda mat qaldı özü-özünə.

Bu nədir, Allahım, görür gözlərim.

Əsəbdən, az qalır, çökə dizlərim.

Süfrələr açılmış, masa qurulmuş.

Hər yerə al-əlvan bəzək vurulmuş.

Dəstəylə qonaqlar axıb gəlirdi.

Natavanı sanki oxlar dəlirdi.

Ortada bəzəkli bir qız gəzirdi.

Sanki Natavanı vurub əzirdi.

Dedilər, bu qızdı nişanı olan.

Bir torba ətiydi o dona dolan.

Olduqca köküydü, həm də ki, şıltaq.

Hər yerə qaçırdı hamıdan qabaq.

Bu evin yeganə tək övladıydı.

Evin həm ləzzəti, həm də dadıydı.

Ortada gəzirdi o baş-bu başa.

Naz, qəmzə edirdi torpağa, daşa.

Yoxuydu heç nədən onun xəbəri.

Təbrik edirdilər o bəxtəfəri.

Ananın çoxuydu bu dəmdə işi.

Əti doğrayırdı baltayla kişi.

Həmin o, kişi ki, qız atasıydı.

İndi arzusuna o çatasıydı.

Kişinin bəxtəfər olan anında.

Natavan oturdu onun yanında.

Söylədi kişiyə olub-keçəni.

Dedi ki,hər zaman aldadıb məni.

Bizim toydan əvvəl evliymiş özü.

Doğrudan kor imiş sevginin gözü.

O vaxtlar gəlmişdi düz evimizə.

Yetim bir oğlanam, demişdi bizə.

Evində arvadı, uşağı varmış.

Adam gör nə qədər axmaq olarmış?

Bunları öyrənib bildiyim zaman.

Az qaldı ağlımı itirim, inan.

Əfsuslar olsun ki, daha gec idi.

Əsəbdən elə bil başım gic idi.

Bu kişi aldadır, indi də sizi.

Məhv edir o, qızı, həm də ki, bizi.

Kişi dayanmadan kəsirdi əti.

Natavan tərəfə baxmırdı qəti.

Əlində baltanı tutub dururdu.

Dalbadal acıqla ətə vururdu.

Bu kişi nə dinir, nə danışırdı.

Ürəyi yanırdı, həm alışırdı.

Bu zaman qapının zəngi çalındı.

Qəribə mənzərə orda alındı.

Əlində gül ilə gəlmişdi Bəşir.

Elə bax, bu zaman qopdu hay-həşir.

O biri əlində böyük tort vardı.

Natavana dünya elə bil dardı.

Onu görən zaman Bəşir mat qaldı.

Tutduğu o tortu əlindən saldı.

Dinib danışmağa tapmadı macal.

Üstünü kəsmişdi elə bil əcəl.

Kişi tez baltanı Bəşirə atdı.

Bir anın içində aləmi qatdı.

Hamı yerindəcə donub qalmışdı.

Qonaqlar qəribə görkəm almışdı.

Anası düşmüşdü ələ-ayağa.

Qaçırdı o, dala, gah da qabağa.

Deyirdi, qonaqlar eşidir, kişi.

Bu qədər abartma, burda bu işi.

Pozma gəl qızının xeyir işini.

Hələlik möhkəm tut indi dişini.

Ayıbdı, eşidir səsini hamı.

Biabır eyləmə indi adamı.

Kişi tərs-tərs dönüb arvada baxdı.

Düşmüş eynəyini gözünə taxdı.

Söylənib dedi ki, nə deyirsən sən?

Hər şeyi bilərək susmalıyam mən?

Arvadı, uşağı var deyir onun.

İnsan gör nə qədər olar ki, qoyun?

Deməli, bunları anlamırsan sən.

Qızımı nə üçün məhv eləyim mən?

Kişi bu Bəşirə cumduğu anda,

Qaçmağa başladı tez Natavan da.

Üz tutdu ikisi də ordan qaçmağa.

Macal da yoxuydu dala baxmağa.

Bəşirin ayağı ilişdi daşa.

O zaman yıxıldı yerə birbaşa.

Natavan dayanıb arxaya baxdı.

Əlini Bəşirin qoluna taxdı.

Tələsik qaldırdı yerdən kişini.

Sıxmışdı əsəbdən bütün dişini.

İkisi də bir anda itdilər gözdən.

Onlar uzaqlaşdı söhbətdən, sözdən.

***

Natavan bilmirdi indi nə etsin?

Bəşirin əlindən bəs hara getsin.

Getdikcə əsəbdən əsib coşurdu.

Əlini hiddətlə masaya vurdu.

Söyləndi, bu nədir, açdın başıma?

Yaraşarmı qaçmaq mənim yaşıma.

Düşdüyün duruma nə deyirsən sən?

Sənlə bərabər xar olmuşam mən.

Keçdim günahından sənin hər zaman.

Sonuncu olsun qoy, bax, bu məcaran.

Bəşir mat qaldı, təəccüb edirdi.

O yana, bu yana gəlib-gedirdi.

Bunları Natavan hardan bilmişdi?

Başına gələnlər müşgül bir işdi.

Bilmirdi nə desin indi arvada?

O, nə söyləsin ki, yetişsin dada?

Artıq peşman idi, bilsən nə qədər.

Getdikcə bürüdü kişini kədər.

Nə işdi, ay Allah, gəldi başıma?

Nə deyim mən indi öz yoldaşıma?

Axı mən doğrudan sevirəm onu.

Bax, nədən geyindim riyakar donu?

Heç zaman inanmaz Natavan mənə.

Üzüm də gəlməyir, nə deyim yenə?

Ağarıb saçlarım, yaşa dolmuşam.

Adətkar, yalançı insan olmuşam.

Natavan səbrini güclə basırdı.

Nifrətlə, əlacsız qulaq asırdı.

Bilmirdi nə etsin, necə dolansın.

Bəşirə yalandan niyə inansın.

Düşünüb deyirdi özü-özünə.

İnana bilmirəm heç vaxt sözünə.

Səbrlə indi gərək hər şeyə dözüm.

Bu yoldan kişini döndərəm özüm.

***

Günlərin birində bu Bəşir yenə,

Qonaqlıq verəcəm, söylədi sənə.

Deyirəm, Natavan, sabah hazırlaş,

Yollanaq Qubaya ikimiz birbaş.

Birlikdə hərlənək gəzməyə gedək.

Dincələk, biz də bir yaxşı kef edək.

Natavan əriylə tez razılaşdı.

Sonra da getməyə o hazırlaşdı.

Artıq gecə keçib, açıldı səhər.

Yuxudan oyandı onlar birtəhər.

Kişinin yoxuydu bir qram halı.

Pərişan olmuşdu onun əhvalı.

O yana, bu yana hey vurnuxurdu.

Arada nədənsə bir duruxurdu.

Söylədi, gəlirəm, işə dəyim mən.

Hazırlaş işini səhmana sal sən.

Bir azdan gələrəm, sonra gedərik.

Naharı birlikdə orda edərik.

Aradan bir saat heç keçməmişdi.

Zəng edib dedi ki, plan dəyişdi.

Maşınım qırıldı, verdim təmirə.

Onunla gedirik gündə hər yerə.

Maşının təmirə var ehtiyacı.

Usta qılacaqdı ona əlacı.

Bu gündə işimiz belə alındı.

Dediyim planlar təxirə salındı.

Gedərik Qubaya başqa bir zaman.

İşim var dönəcəm axşama, inan.

Natavan qəmləndi, dedi Bəşirə.

Həmişə gedirik, onsuz hər yerə.

Nə olar gedərik başqa bir zaman.

Quba qaçmayır ki, ordadır hər an.

Natavan evində var-gəl edirdi.

Bəşirin işinə heyrət edirdi.

Allahım, nə oldu axı, kişiyə?

Dəyişdi çıxantək kişi eşiyə.

Dünəndən özünə plan qurmuşdu.

İşlərin möhrünü artıq vurmuşdu.

Təcili olaraq dəyişdi plan.

Hər şey gözləyirəm, Bəşirdən hər an.

Bu zaman yeməyə gəlmişdi Ayaz.

Oturub dincəlmək istədi bir az.

Oğluna yeməyi verdiyi zaman,

Maşın da qırılıb, dedi, Natavan.

Ustaya qoyubdu atan maşını.

Bu gün də onunla qatar başını.

Varıydı Qubaya bir səfərimiz.

Əfsuslar olsun ki, gedəmmədik biz.

Təəccüblə anaya baxdı Ayaz.

O, fikrə gedərək, düşündü bir az.

Söylədi, ay ana, nə deyirsən sən?

Heç bir şey anlaya bilmədim ki, mən.

Qarajda görmüşəm maşını özüm.

Aldada bilməyib heç məni gözüm.

Bax, sənə yenə də danışır yalan.

İstəsən izinə düşərəm bu an.

Bayaq o, dostuyla söhbət edirdi.

Onunla birlikdə çıxıb gedirdi.

Bu saat çıxıblar bizim həyətdən.

Onları birlikdə gördüm özüm mən.

Gəl otur, ikimiz minək maşına.

Xəlvəti yetişək tez yoldaşına.

Bu kişi eyləyib onsuz da vərdiş.

Qoy görək yenə də çevirir nə iş?

***

Natavan bir şalı atdı başına.

Oğluyla birlikdə mindi maşına.

Onlar evdən çıxıb getdilər bir az.

Sürətlə sürürdü maşını Ayaz.

Marketin yanına çatanda birdən.

Həmin o maşını gördü qəfildən.

Deməli, əvvəlcə ora gediblər.

Marketdən bolluca al-ver ediblər.

Kənarda saxladı Ayaz maşını.

Sükanın dalında əydi başını.

Natavan bükmüşdü şala özünü.

Çöldə saxlamışdı ancaq gözünü.

Yığdılar hər şeyi maşına birbaş.

Üz tutdu getməyə çox yavaş-yavaş.

Bəşirin heç nədən yoxdu xəbəri.

Bilmirdi başına gələn işləri.

Onların dalınca gəlirdi Ayaz.

Arada məsafə varıydı bir az.

Bəşirin işinə gəlib çatdılar.

Elə bil üstündən bir yük atdılar.

Günaha girmişik, dedi Natavan.

İşinə gəlibdi o kişi bu an.

Yalandan kişidən biz şübhə etdik.

Bu qədər yolu da nahaqdan getdik.

Ay ana, bir gözlə, söylədi Ayaz.

Səbirli, təmkinli ol sən də bir az.

Qoy görək nə edir, axı, bu kişi?

İş günü deyil ki, burda nə işi?

Tərəddüd içində dayanmışdılar.

Az qala Bəşirə inanmışdılar.

Bu zaman gördülər onlar qəfildən,

Bir qadın göründü, buruldu tindən.

O gəlib oturdu həmin maşında.

Onların qarışdı fikir başında.

Natavan təəccüblə ona baxdı.

Günəş eynəyini gözünə taxdı.

Möhkəmcə şalına büründü yenə.

Gizlicə boylandı küçəyə, tinə.

Maşını tərpətdi onlar yerindən.

Bir nəfəs aldılar sanki dərindən.

Onların maşını öndə gedirdi.

Ayaz da onları təqib edirdi.

Xəyaldan xəyala düşdü Natavan.

Fikrindən nələri keçirdi o an.

Hər şeyə o anda şübhə edirdi.

Bəşirin dalıyca yenə gedirdi.

Anlaya bilmirdi heç cür kişini.

Dərk edə bilmirdi onun işini.

Gördülər, bir yerdə maşın dayandı.

Natavan elə bil birdən oyandı.

Təəccüblə baxırdı yoldaşına.

Gördü ki, bir qız da mindi maşına.

Arvadın başından alov qalxırdı.

Dişini sıxaraq səssiz baxırdı.

Maşın tez düzəldi yenə yoluna.

Natavan baxdı sağa, həm soluna.

Bəşirin maşını öndə gedirdi.

Hər şeyi gizlicə o seyr edirdi.

Fikirlər qatırdı yaman başını.

Onlar itirirdi hərdən maşını.

***

Nəhayət, çıxdılar onlar şəhərdən.

Natavan boğuldu daha qəhərdən.

Artıq sıxılırdı onun ürəyi.

Həm də tər basmışdı bütün kürəyi.

Maşınlar yoluna davam edirdi.

Baş alıb Qubaya tərəf gedirdi.

Natavan baxdı ki, bu zaman birdən,

Bir polis göründü tamam qəfildən.

Əl edib saxladı o, bu maşını.

Qabağa əydi həm azca başını.

İstədi onlardan sənədlərini.

İrəli uzatdı həm əllərini.

Natavan boylandı o yan, bu yana.

Bir qorxu düşmüşdü sanki o cana.

Qorxdu ki, itirə həmin maşını.

Qışqırdı, əliylə tutdu başını.

Çox pisdir, söylədi polisə, halım.

Səhərdən qarışıb mənim əhvalım.

Təcili həkimə çatmalıyam mən.

Bizi yolumuzdan saxlama, gəl, sən.

Elə bil nədənsə zəhərlənmişəm.

O boyda yolu mən güclə gəlmişəm.

Başladı yalandan gah öyüməyə.

Gah da ki, dizinə vurub döyməyə.

Polislər şok olub yerində qaldı.

Onları tələsik, tez yola saldı.

Natavan o saat kəsdi səsini.

Aramla düzəltdi tez nəfəsini.

Oğluna dedi ki, ay bala Ayaz,

Maşını ehmalca sür, oğlum, bir az.

Bəlaya salarsan indi başını.

Nəyəsə vurarsan ya da maşını.

Ancaq sən onları heç qoyma gözdən.

Bir yolluq qurtaraq söhbətdən, sözdən.

Bəşirgil bir azca öndə gedirdi.

Arada dayanıb al-ver edirdi.

Gördülər qabaqda maşın dayandı .

Natavan hər şeyə dəqiq inandı.

Bir alov qalxmışdı onun başından.

Bəşir tez sıçrayıb düşdü maşından.

O, yardım eylədi, düşdü qadınlar.

Tələsik dükana girdilər onlar.

Bəşir tez əlinə bir dəsmal aldı.

Şüşəni silərək o, yolda qaldı.

Təmizlik işinə başladı kişi.

Nə bilsin başına gələcək işi.

Natavan gördükcə alovlanırdı.

Elə bil kibritsiz sanki yanırdı.

Alovlar bürüdü onun başını.

Saxlaya bilmirdi gözün yaşını.

Bu dəmdə qadınlar çıxdı dükandan.

Natavan maşından düşdü o andan.

Tələsik onların önündə durdu.

Qızların başına bir qapaz vurdu.

Onlar gözləmirdi heç bu zərbəni.

Kimdir ki, bu qadın, bax, vurur məni?

Deyərək saldılar onlar hay-həşir.

Bu işə mat qalıb baxırdı Bəşir.

Donub yerindəcə qalmışdı kişi.

Natavan korladı tamam bu işi.

Bismillah, deyirdi bircə nəfəsə.

Elə bil düşmüşdü kişi qəfəsə.

Bir anda itirdi Bəşir özünü.

Heç deyə bilmədi bu an sözünü.

Aləmlə biriydi onların səsi.

Marağa salmışdı orda hər kəsi.

Nəhayət, bu kişi gəldi özünə.

Bir taksi göründü o an gözünə.

O dostu saxlatdı həmən maşını.

Davadan qurtardı tezcə başını.

Onları maşına mindirdi birdən.

Üz tutdu Bakıya onlar yenidən.

Bəşir saxlamışdı öz arvadını.

Qorxudan unutdu kişi adını.

Bilmirdi nə etsin indi də özü.

Artıq qalmamışdı deməyə sözü.

Hər şeyi gördü gözüylə Natavan.

Artıq o çıxmışdı tamam özündən.

Bəşir güclə tutdu, bu Natavanı.

Maşına mindirdi, tutdu o anı.

Sığala çəkirdi o, arvadını.

Çıxardaq gəzməyin, dedi, dadını.

Bu qismət, bax, belə sənindmiş demək.

Birlikdə ikimiz Qubaya gedək.

Heç belə bilməzdim, Natavan, səni.

Biabır eylədin hər yerdə məni.

Varıydı, bax, bizim bir yoxlamamız.

İş üçün gedirdik, birgə hamımız.

Sən pozdun, Natavan bizim planı.

Həmin işçilərin qaraldı qanı.

Bax, bir gör, nələr var sənin canında?

Utandım onların mən də yanında.

Biabır eylədin hər yerdə məni.

Tanıya bilmirəm son vaxtlar səni.

O boyda yolu sən qət eləmisən.

Dalımca gəlmisən, heç deməmisən.

Madam ki, gəlmisən buraya qədər.

Canını almasın qüssə, qəm, kədər.

Birlikdə Qubaya gəzməyə gedək.

Hər yeri gəzərək rahat seyr edək.

Bilməzdim bu qədər sevirsən məni.

Gərək bir Qubaya aparam səni.

Tək bircə xahişim var mənim səndən.

Heç zaman narahat olma sən məndən.

Natavan Bəşirə etiraz etdi.

Maşını sürərək Qubaya getdi.

***

Natavan ərinə qulaq asırdı.

Səbrini güc ilə, zorla basırdı.

Üzünü tutaraq dedi ərinə,

Bu qədər getmə gəl indi dərinə.

Yalandan danışıb, basıb-bağlama.

Min cür söz söyləyib, dillə ağlama.

Bilirəm mən bütün olub, keçəni.

Gəl yalan danışıb aldatma məni.

Yaraşmır bu işlər sənin yaşına.

Nə olub, de görüm, öz yoldaşına?

Biabır olmuşuq eldə, obada.

Elə bil gəzirsən, sanki, havada.

Az qala əlindən olmuşam dəli.

Heç bir şey vecinə deyil, deməli.

Tanıya bilmirəm sənin özünü.

Heç bilə bilmirəm işin düzünü.

Gör, adam nə qədər danışar yalan?

Sənə heç inana bilmirəm, inan.

Deyirəm mən sənə, vallah, düzünü.

Heç zaman bilmədim, bax, iç üzünü.

Sonuncu dəfədir, deyirəm sənə.

Bir daha heç kələk gəlmə sən mənə.

Bu işin axırı çox pis olacaq.

İstəyin yerinə nifrət dolacaq.

Gör adam nə qədər xəyanət edər?

Nə üçün gizlicə o, evdən gedər?

Ağılla, kamalla gir otağına.

Əvvəlcə papağı qoy qabağına.

Bu işin, doğrudan, iki yolu var.

Hər ikimizə də lap yaxşı olar.

Ya boşan, tərk elə sən evimizi.

Hər yerdə biabır eylədin bizi.

Ya da ki, adam tək otur evində.

Üç-beş gün qoy rahat yaşayım mən də.

Ağlını itirdin getdikcə də sən.

Bilmirəm nə günah işləmişəm mən?

Heç zaman demirəm gəl yapış mənə.

Bir yaxşı fikirləş, deyirəm sənə.

Əgər xoş deyilsə bizimlə qalmaq,

Ayrıl, get, nədir bu qalmaqal salmaq?

Uşaqdan, böyükdən utan, ay kişi.

Ağılla, başla gör, gördüyün işi.

Bu işə bir yolluq son qoymalısan.

Ya çıxıb getməli, ya qalmalısan.

De, siçan-pişikmi oynayırıq biz?

Həll edək bu işi artıq ikimiz.

***

Aradan keçmişdi uzun bir zaman

Evdə fırlanırdı bir gün Natavan.

Evin qapısını döydü bir oğlan.

Varıydı əlində yazılmış ünvan.

Kağızı uzatd o, Natavana.

Dedi ki , getsinlər həmin ünvana.

Bir qadın veribdi kağızı mənə.

Xahiş eylədi ki, çatdırım sənə.

Bilmirəm, bax, varmı sənin xəbərin?

Rəhmətə gedibdi onlarda ərin.

Natavan quruyub yerində qaldı.

Elə bil arvadı bir ilan çaldı.

Sanki təpimişdi dodağı, dili.

Havada qalmışdı uzanan əli.

Boşuna çəkmisən, bala, əziyyət.

Kişiyə veriblər bir ezamiyyət.

Hökümət işidi, kişinin işi.

Xaricə gedibdi, iş üçün kişi.

Nə arvad, nə ünvan söyləyirsən sən?

Anlaya bilmədim, axı səni mən.

Bu dəmdə yetişdi oraya Ayaz.

Kağızı oxuyub duruxdu bir az.

Təəccüblə baxdı o yana-bu yana.

Bu saat gəlirəm, dedi, oğlana.

Sonra da söylədi o, Natavana.

Mən gedim hər şeyi öyrənim, ana.

İndi də oğlanla ora gedəcəm.

Hər şeyi öyrənib sənə deyəcəm.

Natavan əl atdı tez telefona.

Gördü zəng çatmayır bu an heç ona.

Bilmədi artıq o daha nə etsin.

Dərdini götürüb haraya getsin.

Ay aAllah, bu nədi gəldi başıma?

Nə oldu, görəsən, o yoldaşıma?

İnana bilmərəm heç gözlərimə.

Yaraşarmı bunlar mənim ərimə.

Axı o, gedibdi ezamiyyətə.

Sən bir bax, düşdüyüm bu vəziyyətə.

Nə qədər yalançı oldu bu kişi.

O alt-üst eylədi bü gün hər işi.

***

Ayaz bu oğlanla mindi maşına.

Bilmirdi nə gəlib onun başına.

Atası haqqında xəyal edirdi.

O, yolu bilmirdi necə gedirdi.

Məəttəl qalmışdı özü-özünə.

İnana bilmirdi ölüm sözünə.

Atam demişdi ki, xaricə gedir.

Bəs kişi o evdə indi nə edir?

Bu kimin evidi axı, görəsən?

Belə bir ünvanı tanımıram mən.

Bəlkə də ünvanı yanlış yazıblar.

Atama yalandan quyu qazıblar.

Çatdılar kağızda olan ünvana.

Təəccüblə baxdı Ayaz oğlana.

Bu yerlər heç ona tanış gəlmədi.

Bəs kimin evidi onu bilmədi?

Qapının zəngini basırdı, Ayaz.

Səbir də qalmadı onda heç bir az.

Ayazın canını kədər almışdı.

Qanı da getdikcə lap qaralmışdı.

Bir qadın qapını ehmalca açdı.

Bu zaman Ayazın ürəyi sancdı.

Daha da artırdı lap həyəcanı.

Tələsik soruşdu, bəs atam hanı?

Əliylə göstərdi qadın divanı.

Çoxdan qurtarıbdı, söylədi, canı.

Axşamdan yoxuydu onun heç nəyi.

Rahatca yemişdi çayı-çörəyi.

Gecənin bir vaxtı səsə oyandım.

Tələsik önündə gəlib dayandım.

Getditcə çox ağır nəfəs alırdı.

Sanki sinəsində nəsə qalırdı.

O, cavab vermədi, mən çağırırdım.

Ağlayıb, qışqırıb, həm bağırırdım.

Sonunda dərindən bir nəfəs aldı.

Gözləri zillənib açıqca qaldı.

Baxdım ki, kəsildi bütün nəfəsi.

Belə görməmişdim mən heç bir kəsi.

Artıq dayanmışdı onun ürəyi.

Heç nəyin yoxuydu daha köməyi.

Sonra da mən örtdüm onun üzünü.

Söylədim hər şeyin sənə düzünü.

Əvvəldən bilirdim sizin ünvanı.

Onunçün göndərdim ora oğlanı.

İndi, gəl, atanı çıxart evimdən.

Tək arvad xeylağı neyləyim ki, mən?

Tez-tez o, gəlirdi, mənlə qalırdı.

Günlərlə evimdə lövbər salırdı.

Cürbəcür yalanlar deyirdi sizə.

Ölümü, elə bil, oldu möcüzə.

***

Ayaz donub elə yerində qaldı.

Sifəti əsəbdən min rəngə çaldı.

Allahım, bu nədi, nə edib kişi?

Kim görər bu qədər axmaq bir işi.

Biabır olduq biz eldə, obada.

Eşidən nə deyər belə bir ada?

Ağlamaq gəlmişdi onun özünə.

Əcayib göründü arvad gözünə.

Sıxıldı Ayazın yaman ürəyi.

Suya batdı tamam, onun kürəyi.

Bilmirdi nə etsin heç indi özü.

Unutdu ağzında dediyi sözü.

Sonunda zəng etdi o, Natavana.

Dedi ki, doğrudur deyilən, ana.

Heç zaman xaricə getmirmiş kişi.

Başqa bir qadınla olmaqmış işi.

Burda da həyatı yetişib sona.

Təcili yardımı çağırdım ona.

İndi bir yıryığış eylə evdə sən.

Bir azdan atamı gətirəcəm mən.

Həm xəbər eylə sən qohum-qardaşa.

Ürəyi yatıbdı de ki, birbaşa.

Burda ölməyini demə heç kimə.

Deyərsən, aparıb Ayaz həkimə.

Həkimlər qurtara bilməyib onu.

Nəhayət, kişinin gəlibdi sonu.

***

Elə bil sıx tora düşmüşdü qadın.

Soruşsan, bilməzdi sanki o, adın.

Tordakı balıqtək bərk titrəyirdi.

Ürəyi çırpınıb, daşa dəyirdi.

Partladı elə bil onun ürəyi.

Ağrıdan dağıldı sanki kürəyi.

Başına dar oldu dünya bir anda.

Bir kədər, bir nifrət yarandı onda.

Gözündən çıxmadı bircə gilə yaş.

Çırpınan ürəyi birdən oldu daş.

Elə bil tutuldu onun qulağı.

Ona dar gəlirdi, sanki, otağı.

Ayazın səsinə o, vermirdi səs.

Dəstəkdən gəlirdi ancaq bir nəfəs.

Ayaz səslənirdi, cavab ver mənə.

Ay ana, de görüm, nə oldu sənə?

Natavan dillənib dedi, ay bala,

Ürəyim yatmışdı mənim, az qala.

Ay oğul, nə deyim, incimə məndən.

Ancaq bir xahişim olacaq səndən.

Xətrinə dəyməsin, Ayaz, sözlərim.

O sənin atandır, mənim də ərim.

Pozğunun yanında ölübsə kişi,

Bax, mənim evimdə onun nə işi?

Qoy pozğun evindən özü götürsün.

Haraya istəyir ora ötürsün.

Qətiyyən bu evə o gələ bilməz.

Həmin bu ləkəni heç bir şey silməz.

Ömürlük damğanı bizə vurubdu.

Pozğunun yanında yatıb, durubdu.

Nə qədər çalışdım, heç düzəlmədi.

Bir dəfə vaxtında evə gəlmədi.

O, atlı olmuşdu, mən də piyada.

Nə deyək, bəs, indi tanışa, yada?

Oduqca eylədi əzab-əziyyət.

Olubdu indi də iyrənc vəziyyət.

Onun ölüsü də düşməndir mənə.

Rədd elə başımdan, deyirəm sənə.

Nə etdi, həmişə bağışladım mən.

Getdikcə həddini lap aşdı deyən.

Durduqca Natavan alovlanırdı.

Kibritsiz od tutub sanki yanırdı.

Ay Allah, nə işdir gəldi başıma?

Bu ölüm dəyərmi heç göz yaşıma?

Sağ vaxtı olmadı yeri yanımda.

Bir nifrət qaynayır ona canımda.

O, səhvlər edəndə, kor oldu gözüm.

Gərək ayrılaydım, gedəydim özüm.

Həmişə gözlədim, yəqin, düzələr.

Günlərin birində özünə gələr.

Camaat içində bizi xar etdi.

Biabır olaraq indi də getdi.

Əbədi bir damğa vurdu özünə.

Bütün əməlləri girdi gözünə.

Gör necə yandırdı məni bu işi?

Axı nə gəzirdi, bax, orda kişi?

Bilmirəm, ay oğul, nə edirsən, et.

Hara istəyirsən apar ora, get.

Pozğun qadınlardan atan doymadı.

Bu evə gəlməyə heç üz qoymadı.

***

Hər yerə yayıldı, ölübdü Bəşir.

Onsuz da evinə düşdü hay-həşir.

Ora axışırdı adamlar bir-bir.

Natavanda ancaq qalmadı səbir.

O, tuta bilmirdi heç yerdə qərar.

Baxdı ki, evində xeyli adam var.

Hər şeyə göstəriş verirdi özü.

Qapıda qalmışdı elə bil gözü.

İnana bilmirdi olub-keçənə.

Kaş yalan olaydı, deyirdi, yenə.

Nə qədər sevsə də Bəşiri özü,

Nifrətlə dolmuşdu indi də gözü.

Gözündən çıxmırdı bircə gilə yaş,

Özü də qalmışdı bu işə çaş-baş.

İnana bilmirdi bir gün gələcək.

Sonunda yoldaşı belə öləcək.

Artırdı getdikcə qəmi-kədəri.

Onu nə hallara salmışdı əri.

Əsəbdən qurudu gözündə yaşı.

Gülünc halda öldü həyat yoldaşı.

Bunun hərəkəti yandırdı onu.

Əlinə aldı o tez telefonu.

Əsəbdən tələsik ayağa durdu.

Ayaza bu dəfə özü zəng vurdu.

Oğluna dedi ki, dözmür ürəyim.

Ağrıdan catlayır indi kürəyim.

Bu evə gətirsən sən onu əgər.

Ən böyük bir zərbə, bax, mənə dəyər.

Birbaşa məsciddən kəndə apar sən.

İstəmirəm görəm heç son dəfə mən.

Məndən bu qiyməti alıbdı özü.

Aləmlə bir oldu söhbəti-sözü.

Mərasim zalında verərsən ehsan.

Heç yerə gedəsi deyiləm bu an.

***

Ayaz yerindəcə donub qalmışdı.

Dəstəyi əlindən yerə salmışdı.

Ay Allah, bu nədir gəldi başıma?

Nə deyim mən indi dosta, tanışa?

Anam doğrudan da eyləsə dava.

O zaman pozular bu abu-hava.

Düşündü bir qədər, duruxdu bir az.

Nəhayət, özünü topladı Ayaz.

O gün hər bir şeyi o, təşkil etdi.

Bəşiri götürdü, məscidə getdi.

Məscidin həyəti adamla doldu.

Sonunda cənazə tam hazır oldu.

Kəndə yola düşdü maşın karvanı.

Hamı soruşurdu, Natavan hanı?

Orda adamlara söylədi Ayaz,

Pisləşib anamın səhhəti bir az.

Həkimlər icazə vermədi ona.

Söylədi həyatı yetişər sona.

Ürəyi ağrıyır anamın yaman.

Tərpədə bilməzsiz, dedilər, inan.

Bax, ona görə də evdə qalıbdı.

Həyatdan çox böyük zərbə alıbdı.

***

Dəfn edib Bəşiri döndülər geri.

Məzarlıq olmuşdu indi də yeri.

Məsciddə verildi kişiyə ehsan.

Könülsüz gəlmişdi ora Natavan.

Natavanın qanı çox qaralmışdı.

Kədər, qəm canında lövbər salmışdı.

Bəşirin ölümü dərd oldu ona.

Həyatı nə cürə vurmuşdu sona?

Başqa bir yataqda ölərmi kişi?

Bax, orda nə idi kişinin işi?

Mən nifrət edirəm indi ərimə.

Elə bil samanlar təpib dərimə.

Dağ basdı ömürlük bu kişi mənə.

Biabır olmuşam hər yerdə yenə.

Belə bir kişini nədən ağlayım?

Dəyərmi, başıma qara bağlayım?

Hər addım başında xəyanət etdi.

İndi də bu cürə məzara getdi.

Bilmirəm özüylə o nə apardı?

Namuslu bir ada, de, nə çatardı?

Xəyanət eyləyən bir ad da aldı.

Özünü bununla o, dilə saldı.

İtirdi, qalmadı abır-həyası.

Mənimlə nə idi onun davası?

İtirdi yanımda gözəl adını.

Çıxartdı tüfeyli həyat dadını.

Məqsədi nə idi, görəsən, onun?

İndi də gəlibdi bu cürə sonun.

Nə pislik eylədim, ay Bəşir, sənə?

Ancaq hər pisliyi sən etdin mənə.

Layiqli cəzanı Allahdan aldın.

Don Juan kimi də yaddaşda qaldın.

Allahım görürdü sənin işini.

Yanımdan o, aldı sən tək kişini.

Heç layiq görmədi səni özümə.

Onunçün yaş, belə, gəlmir gözümə.

Deyirlər, qozbelı düzəldər qəbir.

Allahım göndəri mənə də səbir.

Razıyam yenə də mən, Yaradandan.

Xəyanət edəni məndən alandan.

Nəhayət, biləcəm, hardadı kişi.

Məzarda dincəlib yatmaqdı işi.

Sonuncu ünvanın məlumdur mənə.

Xəyanət damğası vuruldu sənə.

Nə etdin, ay kişi, etdin özünə.

Kaş baxa biləydim, bir an gözünə.

O zaman bir sual verərdim sənə.

Xəyanət etməkdə doymadın, yenə?

Belə bir hadisə düşdü yadıma.

Yeridir, burda da gəldi dadıma.

Mən körpə olanda, qonşumuz vardı.

Həmişə ərindən küsmüş olardı.

Hər zaman xəyanət edərdi əri.

Sonradan bilərdi qadın xəbəri.

Günlərin birində onlar dalaşdı.

Səsləri, küyləri aləmi aşdı.

Həyətdən gəlirdi, arvadın səsi.

Sanki kəsilirdi onun nəfəsi.

Eşitdim dediyi sözləri özüm.

Sən ölsən, ağlasam, kör olsun gözüm.

Elə ki, desələr ölübdü kişim.

Cənazə başında gülməkdir işim.

Həmişə oynadın əsəblərimlə.

Kef edir qadınlar mənim ərimlə.

Nədən o kişiyə hörmət edim mən?

Bunları fikirləş, indi özün sən.

Aradan keçmişdi xeyli bir zaman.

Eşitdim bunları, şok oldum, inan.

Nəhayət, bu kişi rəhmətə getdi.

Qadın da sözünə çox əməl etdi.

Ağlamaq yerinə gülürdü qadın.

Çıxartdı gülməyin tamamən dadın.

Adamlar dayanıb ona baxırdı.

Hamının başından sular axırdı.

Deyiblər başına gəlibdi hava.

Yəqin ki, salacaq bu saat dava.

Gülməkdən bu qadın gəldi özünə.

Aramla başladı sonra sözünə.

Dedi, qonaqlar, bağışlayın məni.

Heyrətə gətirdim məni görəni.

Tutdum mən kişiyə verdiyim sözü.

Demişdim, öncədən bilirdi özü.

Mən indi anladım həmin qadını.

Bildim ki, çıxardıb nəyin dadını.

İndi o qadının yerindəyəm mən.

Məni qınayırmı insanlar, görən?

Qınayan qınasın, bilər özləri.

Aləmlə bir olsun, istər, sözləri.

Xəyanət edəni bağışlamıram.

Nə də ki, mən onu qarğışlamıram.

Gizlicə tapırlar tez taylarını.

Sonunda alırlar öz paylarını...

www.kitabxana.net Milli Virtual-Elektron
Kitabxananın təqdimatında

Evimizdə qopan tufan

Poema

Qaranlıq qarışıb, düşmüşdü gecə.

Onur sevinirdi, özü də necə?

Qaçırdı o yana, evdə, bu yana.

İstəyirdi bu gün hamı oyana.

Hər kəsə səslənib deyirdi yatma.

Sonra çətin olar limana çatma.

Biz yatıb yuxuya qalarıq birdən.

Tez çıxmaq lazımdı bu gecə evdən.

Çünki təyyarəmiz gözləyir bizi.

Vaxtında tərk edək biz evimizi.

Antalya açıbdı bizə bir qucaq.

Gözəldir ordakı bütün künc-bucaq.

Onur çox sevirdi qumu, dənizi.

Atam da istəyir, deyirdi, bizi.

Hər yayda onlar da tətil edirdi.

Xaricə birlikdə, hamı gedirdi.

Artıq hazır idi çamadanları.

Hazır eyləmişdi ana onları.

Qardaşı Onurla birgə gedirdi.

Lazımi şeyləri əldə edirdi.

Getməyə həvəslə hazırlaşırdı.

Onların sevinci aşıb-daşırdı.

Nəhayət, gəlmişdi həmin o zaman.

Uşaqlar bilmirdi nə etsin, inan.

Anası deyirdi, siz yatın bir az.

Bu qədər yuxusuz qalmaq da olmaz.

İstərəm bir qədər yuxu alasız.

Yola çıxan zaman rahat qalasız.

Gecə açılırdı lap yavaş-yavaş.

Hava limanına gəldilər birbaş.

Yox idi gecədən burda əlamət.

Qopmuşdu limanda sanki qiyamət.

Tərpənmək olmurdu adam əlindən.

Hər tərəf dolu idi, qızdan, gəlindən.

Uşaqlar qaçırdı, o yan-bu yana.

Narahat olurdu onlardan ana.

Dəstə ilə kişilər söhbət edirdi.

Gələnlər enirdi, uçan gedirdi.

Aləm qaynayırdı, sanki, limanda.

Baba da ordaydı həmin o anda.

Nənəylə birlikdə söhbət edirdi.

Onlar da tətilə çıxıb gedirdi.

Baba biletləri özü almışdı.

Minik zamanına çox az qalmışdı.

Kişi, biletlərə baxdı, qəfildən.

Gördü ki, uçuşlar ayrıdı, birdən.

Baba mat qalmışdı özü-özünə.

İnana bilmirdi indi gözünə.

Ay oğlum, nədən bu belə olmuşdu?

Əsəbdən ürəyi yaman dolmuşdu.

Ayrı təyyarəyə yazıblar bizi.

Birinci gedənə salıblar sizi.

Buna da heç fikir verməmişəm mən.

Uşağı yığ apar, bir az çəld ol, sən.

Siz gedin yerləşin otelimizdə.

Sonrakı uçuşla gələrik biz də.

****

Onurla Münasib öndə gedirdi.

Savalan onlara lap naz edirdi.

Gəlinlər danışıb, gülüşürdülər.

Birlikdə hər şeyi bölüşürdülər.

Qardaşlar limandan al-ver etdilər.

Hamısı sərhəddən keçib getdilər.

Axıra onlardan Aqil qalmışdı.

Onun sənədini polis almışdı.

Sənədin baxdılar çox üz-gözünə.

Verdilər Aqilin sonra özünə.

Dedilər, keçməyə yoxdur icazən.

Vergiyə ödəmə etməlisən sən.

Aqil də uzadıb tez əllərini.

Polisdən götürdü sənədlərini.

Sakitcə ətrafa baxırdı nənə.

Gördü ki, öz oğlu qayıdır yenə.

Ana tələşlandı, qalxdı ayağa.

Tələsik söykəndi orda dayağa.

Ay bala, sən nədən dönmüsən geri?

Nə oldu, qurutduq bu gün hər yeri.

Səhərdən alınmır heç bir işimiz.

Bilmirəm, bəs kimə neynəmişik biz?

Atası düşmüşdü ələ-ayağa.

Tələsik qaçırdı dala-qabağa.

Hər yerə zəng edib danışdı kişi.

Düzəldə bilmədi ancaq bu işi.

Aqilin getməyi sabaha qaldı.

Onu uşağından aralı saldı.

Aqilin getdikcə qaraldı qanı.

Uşağın yanında qalmışdı canı.

Atası oğluna dedi, ay Aqıl,

Uçuşa az qalıb, məni eşit, bil.

Razılıq kağızı ver sən gəlinə.

Qoy alsın kağızı gəlin əlinə.

Uşağı aparıb çıxıb getsinlər.

Günləri itməsin, tətil etsinlər.

Onlar tək deyil ki, ordadı Kənan.

Onların yanından ayrılmaz bir an.

Bir azdan gedəcəm ananla özüm.

Üstlərində olar mənim də gözüm.

İşini gör qurtar, sabah yenidən,

Tətilə gələrsən, arxamızca sən.

Aqilin tutmuşdu dəli damarı.

Az qala dağıtsın daşı-divarı.

Bu nədir, ay ata, nə deyirsən, sən?

Bəs təkcə burada neyləyirəm mən?

Mən gedə bilməsəm əgər bir yana.

Rahatlıq olammaz heç bir insana.

Kənan da getməsin qayıtsın geri.

Vermərəm, məndədir, bax, sənədləri.

Nə vaxt mən gedəndə onlar da gedər.

Tətili o zaman, onda da edər.

Kənan gülümsəyib dedi, ay Aqil,

Düzünü deyirəm, vallah, eşit, bil.

Əgər mən tək olsam, getmərəm özüm.

Vallah, heç qalmayıb deməyə sözüm.

Savalan ağlayar, qayıtmaz, inan.

Peşiman olarsan sən də sonradan.

Biz gedək, sabah da siz gələrsiniz.

Birlikdə danışıb, gah gülərsiniz.

Atası söylənib dedi Aqilə.

Bu işlər olmadı heç bilə-bilə.

Elə bil tərsinə döndü işimiz.

Əsəbdən sızladı bütün dişimiz.

Münasib ağlayır, qaralır qanım.

Sizinlə bir qalır elə bil canım.

Kənanın vergiylə sənədlərini.

Boş qoyma uşağın sən əllərini.

Biletə veribdi uşaq pul-para.

Onun nə günahı, o getsin hara?

****

Sevinclər qarışdı tamam kədərə.

Dağıldı adamlar hərə bir yerə.

İlk gündən keçirdi onlar həyəcan.

Aləmi qatdılar, elə bil, inan.

Gedənlər getdilər, qalanlar qaldı.

Nənə çox xəyala, fikirə daldı.

Onurun yanında qalmışdı canı.

Ay Allah, Münasib, görəsən, hanı?

Yadımdan çıxmayır onun gözləri.

Narahat baxışı, şirin sözləri.

Elə bil deyirdi o, gözlər mənə.

Bizi də özünlə apar, ay nənə.

Nənənin gözündə fırlanırdı yaş.

Qəlbindən asılmış, sanki, ağır daş.

Nənə hey babaya deyirdi, kişi,

Sən Allah, sabaha düzəlt bu işi.

Uşaqlar gəlməsə bizimlə əgər,

Yediyim, içdiyim olacaq zəhər.

Baba da deyirdi, darıxma, xanım.

Onlarla bir vurur ürəyim, canım.

Babası qoyarmı onlar qalsınlar.

İnşallah, kağızı sabah alsınlar,

O saat gələrlər tez yanımıza.

Nuş olar hər bir şey bu canımıza.

Qaydaya düşürdü işlər birtəhər.

Gecəni yatdılar, açıldı səhər.

Bu gün uşaqların gülürdü üzü.

Baba fəxr edirdi onlarla özü.

Yığmışdı hamını başına yenə.

Nəzarət edirdi hamıya nənə.

****

Birlikdə hər yerə hamı gedirdi.

Olduqca çox gözəl tətil edirdi.

Bir gecə yarısı oyandı nənə.

Gördü ki, yoldaşı zarıyır yenə.

Ay kişi, nə olub, söylədi, sənə?

Səsin çox pis gəlir bayaqdan mənə.

Ay arvad, tutulub əlim-ayağım.

Susuzluqdan yanır, vallah, dodağım.

Qıymıram bayaqdan qaldıram səni.

Bir az, gəl, dərmanla ovuşdur məni.

Arvad tez sıçrayıb ayağa durdu.

Gətirib kişiyə bir iynə vurdu.

Sonra da dəmlədi o, pürrəngi çay.

Şirin çörəklərdən çəkdi ona pay.

Nə qədər eylədi iynə və dərman.

Ağrısı keçmədi kişinin bir an.

Oteldən həkimlər dəvət etdilər.

Onlar yardım edib çıxıb getdilər.

Baba heç özünə gələ bilmirdi.

Onun ağrıları bir an dönmürdü.

Ağrıdan, elə bil, görmürdü gözü.

Özündə deyildi söhbəti-sözü.

Ağrımazdı onun heç zaman başı.

Təəccüblə baxdı ona yoldaşı.

Deyirdi, ay kişi, üzmə özünü.

Ehmalca aç görüm bir az gözünü.

Heç zaman ağrıdan qorxmayırdın sən.

Məəttəl qalmışam indi sənə mən.

Həmişə dözümlü olardın, kişi.

Açma başımıza xəstəlik işi.

Bilirsən, xəstədir mənim qardaşım.

Hər zaman onunla qarışır başım.

Ürəyim qalıbdı indi yanında.

Rahatlıq tapaydı kaş o canında.

İndi də, sən Allah, xəstələnmə sən.

Bu yükün altından çıxammıram mən.

Bilmirəm, bu tətil heç necə keçir.

Xəstəlik hər yerdə bizicə seçir.

İt hürüb elə bil qabağımızdan.

Biz çıxa bilmirik otağımızdan.

Bir sabah hamısı tezdən oyandı.

Sahildə yer tutub orda dayandı.

Baba nəvələri yanına aldı.

Özünü onlarla dənizə saldı.

Oturub sahildə qızlarla nənə,

Danışıb gülürdü hamısı yenə.

Kədərlə yanaşdı onlara Aqil.

Dedi ki, ay ana, sən də eşit, bil.

Rövşənin artıbdı kədəri, qəmi.

Rəhmətə gedibdi Firudin əmi.

Rənanın gülüşü üzündə dondu.

Qəm-kədər yenidən canına qondu.

Eynəyi çıxardıb gözünə taxdı.

O, bir sərt baxışla Aqilə baxdı.

Ay oğlum, mənimlə məzələnmə sən.

Düzünü de görüm, bax, nə deyirsən.

Gəl daşı, ağacı ətəyindən at.

Sən bir də eyləmə belə zarafat.

Aqil əsəbləşib dedi, ay ana,

Düzünü deyirəm, hər şey bir yana.

Doğrudur, dediyim bu gün hər sözüm.

Rövşənlə danışdım bu saat özüm.

Hamısı gedirlər indi rayona.

Orda verəcəklər ehsan da ona.

Dəfn mərasimi də orda olacaq.

Gəlmirlər hələlik, onlar qalacaq.

Uşaqlıq dostuydu, Aqillə Rövşən.

Şok oldu anası, söylədi birdən.

Rübabə, xalamın qızıdır, Aqil.

Firudin onlara çox əzizdir, bil.

Gərək mən olaydım onun yanında.

Bir kədər hərlənir mənim canımda.

Gör nədən ölübdü bu kişi, bala?

Necədir, görəsən, Rübabə xala?

Bir azğın deyir ki, zəng elə mənə.

Şəkərdən ölübdü, deyirəm, sənə.

Rənanın olduqca qaraldı qanı.

Onların yanında qalmışdı canı.

Bir qədər dayanıb xəyala daldı.

Əlini uzadıb telefon aldı.

O, mesaj ataraq yazdı, ay bacı.

Bir xəbər eşitdim, olduqca acı.

Deyirəm, kaş xəbər olaydı yalan.

Yerimdə quruyub qalmışam, inan.

Rübabə yazdı ki, olsa da acı,

Doğrudur xəbərlər, inan, ay bacı.

Sıxılır özümün hər an ürəyim.

Bu dərddən çatlayır, vallah, kürəyim.

****

Dərin xəyallara dalmışdı Rəna.

Üzündə kədər var, gözündə məna.

Allaha yalvarıb, deyirdi hər an.

Canımdan qardaşın canına ver can.

Qardaş yox, onlara ata olmuşdu.

İndi də bu yaşa gəlib dolmuşdu.

İş üçün hər yerə gəlib, gedirdi.

Tənbəl adamlara nifrət edirdi.

Hər yerdə var idi onun əməyi.

Hamıya dəyərdi hər an köməyi.

Son vaxtlar mədəsi ağrıdı yaman.

Ağrıya heç dözmək olmurdu, inan.

Bütün loğmanların getdi yanına.

Heç səbəb düşmədi ancaq canına.

İynə, dərmanlarda qalmışdı qardaş.

Dəyişirdi halı lap yavaş-yavaş.

Rənagil döndülər evə tətildən.

İlyas da həkimdən gəldi yenidən.

Rəna tez yetirdi ona özünü.

Çəkmədi bir an da ondan gözünü.

O yandan, bu yandan söhbət etdilər.

Xəyallar içində hara getdilər?

Rənaya söyləyib dedi ki, İlyas,

Ay bacı, bir mənə sən də qulaq as.

Ürəyim rayonu istəyir yaman.

Bulaqdan su içmək istərdim bu an.

Yığışın ongünlük gedək rayona.

Səyahət eyləyək o yan, bu yana.

Hamımız birlikdə söhbət edərik.

Gəzməli yerlərə birgə gedərik.

Rənaya dedi ki, gəl, gedək mənlə,

Ürəyim istəyir mən gedəm sənlə.

Mətanət dedi ki, nədir, ay kişi?

Bu qızın evində yoxdumu işi?

İstinin günündə narahat etmə.

Sənə kim deyir ki, rayona getmə?

Özümüz yığışaq gedək rayona.

Nasazdı, əziyyət vermə sən ona.

Rəna tez dillənib dedi, ay Mətiş.

Mənimçün heç yoxdu bundan vacib iş.

Doğrudan getməyə yoxuydu meylim.

Qardaşım deyirsə, gedəcəm, neynim?

Əgər o yollansa, gedərəm mən də.

Gəl buna narahat olma heç sən də.

Mənimlə getməyi xoşdursa ona,

Onunla gedəcəm özüm rayona.

***

Gecəni verdilər yola birtəhər.

Gördülər gün çıxdı, açıldı səhər.

Hammı hazırlaşıb yola düzəldi.

İlyas öz evinə, rayona gəldi.

Yolboyu maraqlı söhbət edirdi.

El-obanı istəyib, ora gedirdi.

Yolda bir restoran tapıb seçdilər.

Kababdan yedilər, çaydan içdilər.

Axşama gəldilər evə çatdılar.

Yır-yığış eyləyib, sonra yatdılar.

İlyasın gecədən dəyişdi halı.

Getdikcə pis oldu onun əhvalı.

Rayonda varıydı həkim bacısı.

Bilirdi İlyasın nədir acısı.

Bütün həkimləri oraya tökdü.

İlyasın yanında o, yerə çökdü.

Havası çatmırdı artıq xəstənin.

Artırdı ağrısı bütün bədənin.

Bacısı düşmüşdü ələ-ayağa.

Baxırdı göyərən incə dodağa.

Təcili yardıma telefon açdı.

Oksigen dalınnca o özü qaçdı.

O elə bilirdi tez gedər özü.

Qardaşın üzündə qalmışdı gözü.

Sistemi qoşmuşdu qoluna onun.

Söyləyə bilmirdi yetişib sonun.

Özünü vururdu o, dağa-daşa.

Bilmirdi, nə etsin indi qardaşa?

Tamam suya batdı bacının özü.

Tələşla baxırdı qardaşın gözü.

İmdad istəyirdi o, bacısından.

Qurtarmaq istədi bu acısından.

Sanki, Əzrayılla o güləşirdi.

Qardaşdan ötəri çox dirəşirdi.

İstəmirdi verə heç qardaşını.

İtirə özünün sirr yoldaşını.

Qardaşı həmişə dayaq olmuşdu.

Bu yaşa birlikdə onlar dolmuşdu.

Vermək istəmirdi onu Pakizə.

Deyirdi qardaşım əzizdi bizə.

Dəridən-qabıqdan çıxdı bu gecə.

Qardaşı əlimdən verim mən necə?

O gecə doy gəldi qız, Əzrayıla.

Dedi ki, istəyir Əzrayıl ölə,

Vermərəm qardaşı ona heç zaman.

Yerinə mən özüm gedərəm, inan.

Güc-bəlayla onu vermədi bacı.

Getdikcə dayandı candakı acı.

Artıq vəziyyətdən çıxmışdı qardaş.

İrzinə, rənginə qan gəldi bir baş.

Dünya işıqlandı sanki bir anlıq.

Hamının üzünə çökdü rahatlıq.

Aradan keçmişdi azca bir zaman.

Yavaş-yavaş söhbət edirdi, yaman.

Bir də baxdılar ki, gəlməyir səsi.

Gördülər dayanıb onun nəfəsi.

Bu zaman qopmuşdu elə bil tufan.

Sanki silkələndi dünya həmin an.

İnana bilmirdi heç kim gözünə.

Dəhşətlə baxırdı hamı üzünə.

Əzrayıl həkimi aldatdı necə?

Hamının başını qatdı o gecə.

Xəlvətcə xəstənin kəsdi yanını.

Söhbət eyləyərkən, aldı canını.

Demişdi, son dəfə öz yoldaşına,

Ay Mətiş, bu nədi gəldi başıma?

Elə bu olmuşdu sonuncu sözü.

Məəttəl qalmışdı Mətişin özü.

Mətanət tutmuşdu onun əlindən.

Tərpənə bilmədi xeyli yerindən.

İnana bilmədi o, heç gözünə.

Donaraq baxırdı elə üzünə.

Qulağında sözlər dalğalanırdı.

Gözündə yaşları halqalanırdı.

Çox zəhmət çəkmişdi o, yoldaşına.

Gör nələr gəlmişdi indi başına?

Əlindən gələni hər şey etmişdi.

Çəkdiyi zəhməti hədər getmişdi.

Elə bil yatmışdı ayıldı birdən.

O dəqiqə töküldü yaş gözündən.

****

Xəbəri gecəylə hər bir kəs aldı.

Eşidən özünü oraya saldı.

Donub yerindəcə qalmışdı bacı.

Heç nəyin yoxuydu ona əlacı.

Gözündən sel kimi tökülürdü yaş.

Əlindən getmişdi igid bir qardaş.

Yerlər də, göylər də qan ağlayırdı.

Gözlərdən sel kimi yaş çağlayırdı.

Yerdə uzanmışdı sanki pəhləvan.

Sığmırdı döşəyə ayağı, inan.

Əzrayıl igidi yerə yıxmışdı.

Ayaqlar döşəkdən çölə çıxmışdı.

Qonşular onlara haraya gəldi.

Bu xəbər hamının bağrını dəldi.

Birinci gəlmişdi Qəndab, Qənirə.

Əlini uzatdı onlar hər yerə.

Birləşib işlərə yardım etdilər.

Uşaqtək hər işə onlar getdilər.

Qonşular onlarla açdı səhəri.

Birlikdə çəkdilər qəmi, kədəri.

Yavaş-yavaş artıq keçirdi gecə.

Hər şey düzəlirdi lazımsa necə.

Cənazə ehmalca qoyuldu yerə.

Nəzarət edirdi buna Qənirə.

Qibləyə qoydular onun özünü.

İpəklə örtdülər nurlu üzünü.

Heç kimsə yummadı gecə gözünü.

Qatlayıb oturdu hamı dizini.

Kişilər həyətdə dinməz dururdu.

Cavanlar birləşib mağar qururdu.

Onlara nəzarət edirdi Aslan.

Dünya fırlanırdı başına o an.

Aslanın İlyasa vardı bənzəri.

Birlikdə gəzərdi bütün yerləri.

İlyasın bibisi oğluydu Aslan.

Onlar dost idilər lap uşaqlıqdan.

Bu itki yeznəni sarsıtdı yaman.

Heç cürə özünə gəlmirdi, inan.

Rasim də Aslanla birgə dururdu.

Ürəyi şiddətlə tez-tez vururdu.

Gözündən sel kimi tökülürdü yaş.

Dərmanlar dalınca gedirdi birbaş.

Həkimlər Rasimin öz həmkarıydı.

Bütün olanlardan özü halıydı.

İlyası itirmək ağır olmuşdu.

Buludtək onlar da yaman dolmuşdu.

Əzrayıl işini tez bitirmişdi.

Yeznələr əziz bir dost itirmişdi.

****

İlyasın varıydı iki övladı.

Günaydı, İlqardı onların adı.

İlqar bənzəyirdi, vallah, özünə.

Gözü oxşayırdı onun gözünə.

Atası İlqarla nəfəs alırdı.

Onu evləndirib birgə qalırdı.

Dadmışdı həyatda nəvə dadını.

İlqarın oğluna qoydu adını.

Evdə böyüyürdü onun adaşı.

Yanında gəzirdi hər addımbaşı.

Sonradan İlayda gəldi dünyaya.

Bu gözəl bənzədi Günəşə, Aya.

Gəlin ağlayırdı,qulluq edirdi.

Hər işin dalıyca özü gedirdi.

Günay doğrudan da elə gün, aydı.

Allahın İlyasa verdiyi paydı.

O, uzun saçlıdı, yaşıl gözlüdü.

Həm şirin söhbətli, şirin sözlüdü.

Hər zaman bənzərdi bu qız Günəşə.

Ataya bağlıydı canı həmişə.

Atası çəkirdi onun nazını.

Rənanın oğluna verdi qızını.

Münasib, Onurun anası Günay,

Salmışdı aləmə yaman hay-haray.

İnana bilmirdi bu qız gözünə.

Hey sual edirdi özü-özünə.

Allahım, atasız neynəyəcəm mən?

Kimlərə qoyubsan məni, ata, sən?

Başımı çiyninə qoyduğum zaman.

Yox olub gedirdi dərdlərim, inan.

Dağıldı bu gündən söykəndiyim dağ.

Yanımda istərdim mən atamı sağ.

Qaynana Günaya dedi, ay bala,

Dil açıb ağlama mən ola-ola.

Bibitək deyirəm mən sənə, inan.

Pis yerdə qoyarmı səni heç, atan?

Bilir ki, yanıma qoyubdu səni.

Bəs kimə tapşırdı, görəsən, məni?

***

Heç nəyi görmürdü Rənanın gözü.

İlyasın yanında oturdu özü.

Ay dağlara yağan qar!

Məndə yaman xəbər var.

Ölüb mənim qardaşım.

Sel olubdu göz yaşım.

Ay dağlar, uca dağlar!

Bacı qardaşsız ağlar.

Ölüb mənim qardaşım.

Yox olubdu sirdaşım.

Qardaş dağı yamandı.

Qardaş ölmə amandı.

Ölüb mənim qardaşım.

Kimlər buna inandı?

Çünki mən inanmıram.

Qardaşsız dolanmıram.

www.kitabxana.net Milli Virtual-Elektron
Kitabxananın təqdimatında

Ölərmi heç qardaşım?

Gör nələr çəkir başım?

İlin, günün bu vaxtı.

Boş qaldı qardaş taxtı.

Ay qardaşı ölənlər,

Qardaş yandırıb-yaxdı.

Qardaşlar, ay qardaşlar.

Göylərdən yağdı daşlar.

Ay qardaşı ölənlər,

O gündən axdı yaşlar.

Bacılar, ay bacılar!

Bu xəbər çox acılar.

Ay qardaşı ölənlər,

Qardaşlar bir tacdılar.

Qardaş yeri boş qalıb.

Bacını dərdə salıb.

Ay qardaşı ölənlər,

Qardaş məzarlıq alıb.

Bayatı deyərək o, ağlayırdı.

Gözünün yaşları lap çağlayırdı.

Əliylə oxşadı onun əlini.

Düz tuta bilmirdi indi belini.

Deyirdi, ay Allah, qırıldı belim.

Oxşaya bilmirəm dolaşır dilim.

İnana bilmirəm yoxluğuna mən.

Bizləri, de, necə tərk elədin sən?

Aldı əlimizdən səni Allahım.

Qalxıbdı göylərə çəkdiyim ahım.

İndi də yalvarıb sığallayıram,

Əlacsız-əlacsız mən ağlayıram.

Dillənib demirsən, ağlama, bacı.

Onsuz da vermişəm sizlərə acı.

Əllərin buz olub, dönübdü daşa.

Rəhm edə bilmirsən tökdüyüm yaşa.

Gələntək tabuta girdin birbaşa.

Nə deyim, sənintək belə qardaşa?

Ovcumun içində tutdum əlini.

Udubsan, elə bil, indi dilini.

Hənrimlə isitmək istədim səni.

Kor-peşman eylədin, de, nədən məni?

****

Uzaqdan gələnlər bir-bir gəlirdi.

Çəkdiyi nalələr ürək dəlirdi.

Nailə dağıtdı sanki dünyanı.

Deyirdi, ay Allah, qardaşım hanı?

Yumma gözlərini, qardaşım, oyan.

Az qala partlayır ürəyim, inan.

Nə olar qardaşım, aç gözlərini.

Eşidə bilmirəm xoş sözlərini.

Qorxduğum bu gündü, gəldi başıma.

Nə oldu, Allahım, bu qardaşıma?

Səssizcə uzanıb dinib, danışmır.

Kimsəyə səs verib, sözə qarışmır.

Yumma gözlərini, nə olar, oyan?

Yenə də bizimlə sən birgə dayan.

Qardaş yox , o mənim oğul payımdır.

Dərdimin ortağı, suyum, Ayımdır.

Hər zaman onunla nəfəs alırdım.

Qonaqlıq açırdım, süfrə salırdım.

Birlikdə yeyərdik, birgə içərdik.

Bütün çətinliyi birgə keçərdik.

Hər gündə xəbərdar olardı məndən.

Mən necə ayrılım, qardaşım, səndən?

Nailə gözündən od ələyirdi.

Hər yeri bu odla o bələyirdi.

****

Ənvərlə uşaqlar gəldilər gecə.

İlyasın yanında çökdülər necə?

Yerlərə qoydular onlar dizini.

Açdılar İlyasın o gül üzünü.

Elə bil yuxuya getmişdi, inan.

Yenə də nurluydu üzü həmin an.

Şəlalə hönkürüb bərk ağlayırdı.

Gözündən sel kimi yaş çağlayırdı.

Bahadur, həm Nicat, həm də ki, Kənan.

Yerlərə vurdular özünü, inan.

Onların gözyaşı leysan olmuşdu.

Özləri bulud tək yaman dolmuşdu.

***

Bu zaman iki qız girdi otağa.

Dəhşətlə baxdılar yerdə yatağa.

Oturdu yatağın onlar yanında.

Tələtüm varıydı qızın canında.

Diləfrüz qışqırıb haray salmışdı.

Zema da qorxaraq donub qalmışdı.

Qızların atası çoxdan ölmüşdü.

İlyası əmi yox, ata bilmişdi.

Onları seçməmiş o, uşağından.

Həmişə pay vermiş öz ocağından.

Neçə ki, əmisi yaşamışdı sağ.

Onların dalında olmuşdu bir dağ.

Qızların hamsına o, toy etmişdi.

Həmişə onlara gəlib-getmişdi.

Diləfrüz nə dinir, nə dayanırdı.

Getdikcə elə bil alovlanırdı.

Deyirdi, öz atam öldüyü zaman.

Heç ağlım kəsmirdi, bilmirdim, inan.

Atatək atamı ağlamadım mən.

Səni ağlayıram, atamsan, bax, sən.

Əminin başına çəkirdi tumar.

Deyirdi, məni də özünlə apar.

Ay əmi, atama gedib deyərsən,

Qızına, nəvənə yaxşı baxdım mən.

Həmişə daddılar ata dadını.

Əmi yox, biz ata qoyduq adını.

Hər şeyi, ay əmi, biz gördük səndən.

Narahat qalmasın qoy atam məndən.

Ağlamaqdan onun şişdi üz-gözü.

Bircə an susmadı, ağladı özü.

Bu qızlar iki yox, üç bacıydılar.

Üçü də elə bil baş tacıydılar.

Validə onların üstə əsirdi.

Xəbəri eşidib çox tələsirdi.

Qızı İlhaməni aldı yanına.

Sanki qor dolmuşdu onun canına.

O uzun gecəni yolda oldular.

Buludtək boşalıb, gah da doldular.

***

Gecəni verdilər yola bir təhər.

Artıq gecə keçib, açıldı səhər.

İlyasın anası gözəl Xuraman,

Bilmirdi nə olub oğluna bu an.

Ana qocalmışdı çoxuydu yaşı.

Ağrılı olurdu təziqdən başı.

Əsasız yeriyə bilmirdi ana.

Büdrəyib gedirdi o yan-bu yana.

Adamsız getmirdi heç zaman yolu.

Yıxılıb sınmışdı onun sağ qolu.

Gipsdə qalmışdı bir qolu nə qədər.

Bitmədi onlara çox verdi kədər.

Heç nəyi tutmurdu onun bu qolu.

Güc ilə gedirdi ana da yolu.

Eşitdi İlyası gəlib rayona.

Dedi tez çatdırın siz məni ona.

Rəqsanə eylədi nəyə yardım.

Dedi, gəl, ay nənə, sən addım-addım.

Qoy Mehman yapışsın o sol qolundan.

Oğluna çatarsan sən indi bu an.

Sevincək qalxmışdı ana ayağa.

Addımın atmışdı bir az qabağa.

Gördü ki, özünü çox pis hiss edir.

Elə bil əşyalar onunla gedir.

Nə qədər eylədi, yumdu gözünü.

Toplaya bilmədi ana özünü.

Qulaq as, ay bala, dedi, sözümə,

Ümidim gəlməyir indi özümə.

Qoy içim bir azca mən dava-dərman.

Gedərik yanına başqa bir zaman.

İlyas bu söhbəti eşitdiyi an,

Özünə heç gələ bilmədi, inan.

Əziyyət verməyin, söylədi, ona.

Xəstəlik yetişsin bir azca sona.

Mən özüm gedəcəm onun yanına.

Əziyyət verməyin şirin canına.

Əzrayıl cəlladtək yolları kəsib.

Son görüş onlara olmadı nəsib.

Xəbəri yoxuydu, heç olanlardan.

Bilmirdi, balası yaşamır bu an.

Əzrayıl İlyasın qıyıb canına.

Qardaşı Yusifin gedib yanına.

Birinci övladı almışdı fələk.

Yenə də anaya gəlmişdi kələk.

Yusifi soxmuşdu çoxdan gözünə.

Ananın dağ basdı yenə özünə.

Mehman nənəsini qoydu maşına.

Qara örpəyini saldı başına.

Nə qədər sevincək olmuşdu nənə.

Deyirdi, oğlumu görəcəm yenə.

Elə ki, qapıya çatmışdı birdən.

Qapıda mağarı gördü qəfildən.

Elə bil dağıldı sanki dünyası.

Bildi ki, yox olub artıq balası.

Titrədi ananın əli-ayağı.

Görmədi gözləri bir an qabağı.

Güc ilə maşından onu aldılar.

Gətirib içəri yola saldılar.

Nəhayət, çatdırdı ona özünü.

Dil deyib, oğluna dedi sözünü.

Mən belə bilməzdim, ay oğul, səni.

Əlimdən, de, niyə aldın kəfəni?

Az qaldı, kəsilsin onun nəfəsi.

Gözləri görmürdü orda heç kəsi.

Gözündən sel kimi tökülürdü yaş.

Dodağı ağarıb, titrəyirdi baş.

Fərqanə özünü ona yetirdi.

Nənəyə nə qədər dərman gətirdi.

Ölmək yaraşmırdı heç bu İlyasa.

Fərqanə şəhərdən gəlmişdi yasa.

Rənanın ilk qızı, ilk nübarıydı.

Yaxşı ki, belə bir həkim varıydı.

Fərqanə hamıya yardım edirdi.

Adamlar içində gəlib-gedirdi.

Halı pis olana verirdi dərman.

Köməyi dəyirdi hamıya, hər an.

***

Yenidən qışqırıq qopdu bu zaman.

Qudalar gəldilər elə həmin an.

Elnurə dil deyib bərk ağlayırdı.

Aytənin gözündən yaş çağlayırdı.

Getdikcə artırdı ağlamaq səsi.

Məyus eyləyirdi bu səs hər kəsi.

Rayonda savadlı bir molla vardı.

Bütün məclislərdə orda olardı.

Laləzar tutmuşdu əlində Quran.

Gözündən tökürdü elə bil leysan.

O, kövrək səsiylə layla çalırdı.

Arada bir qurtum çaydan alırdı.

Hər yerə yayıldı mollanın səsi.

Ağladırdı bu səs o gün hər kəsi.

Ceyhunə, Elnarə qulluq edirdi.

Hamıya yardıma onlar gedirdi.

Qonağa yer verib, çay gətirirdi.

Özünü hamıya tez yetirirdi.

Artıq yetişirdi getmək zamanı.

Qorxuya salırdı bu köç insanı.

Birdən daxil oldu axund içəri.

Kişilər tutdular bütün yerləri.

Onlar istəyirdi tabutu alsın.

Bacılar dedi ki, vermərik, qalsın.

Tabutdan yapışıb ağlayırdılar.

Sözlərlə ürəklər dağlayırdılar.

Kişilər quş kimi tabutu aldı.

Qadınlar ağlaya-ağlaya qaldı.

Aləm yırğalandı, sanki, həmin an.

Dünyadan gedirdi gözəl bir insan.

***

Heç dura bilmədi Rəna yerindən.

Yanıqlı ah çəkdi yaman dərindən.

Söylədi, nə idi, gəldi başıma?

Nə oldu, bax, mənim bu qardaşıma?

Sanki qardaşıyla o danışırdı.

Alova bələnib lap alışırdı.

Gəzməyə apardım obana səni.

Çox peşman eylədin, qardaşım, məni.

İstəyirdik gəzək birgə çəməni.

Aldatdın hamını, eləcə məni.

Deyirdin, bulağa birlikdə gedək.

Doyunca sulardan biz də nuş edək.

Uzandın yatağa, aldatdın bizi.

Çox məyus eylədin hər birimizi.

Danışa-danışa yumdun gözünü.

Əcələ tez təslim etdin özünü.

Sən gəzmək adıyla evindən çıxdın.

Bütün xəyallarını yerə vurdun.

Qıymazdın heç kimin ağlamağına.

Başına qaralar bağlamağına.

Qopdu bir qasırğa, bir tufan oldu.

Hamısı İlyasın evinə doldu.

Bu tufan qopmuşdu öz evimizdə.

Bir tutar qoymadı heç birimizdə.

Yerlərdən yerlərə vurdu hamını.

Sonunda qardaşın aldı canını.

Hər loxmam olubdu, elə bil, zəhər.

Uduram loxmamı güclə, birtəhər.

Gözümün içində halqalanır yaş.

Kədər ürəyimə yeriyib birbaş.

Boylanıb baxıram o yan-bu yana.

Bir alov düşübdü, şirin bir cana.

Gizlicə əriyir canımın yağı.

Bir kimsə görməsin heç qardaş dağı.

Şam kimi əriyən gördüm mən dağı.

Yediyim çörəyim olubdu ağı.

Gözümdən axan yaş dönüb oldu qan.

Təhvil verdik bu gün torpağa bir can.

Qardaşım əlini əlimdən üzdü.

Axan gözyaşımı sinəmə düzdü.

Parçaladı bu gün o, ürəyimi.

Alova bürüdü, bax, kürəyimi.

***

Dərin xəyallara Rəna dalmışdı.

Kədər-qəm canını yaman almışdı.

Xəyalında onla söhbət edirdi.

Fikirlər içində hara gedirdi.

Gözünün önündən getmirdi İlyas.

Deyirdi, qardaşım, mənə qulaq as.

Mən minnət eylədim, yalvardım sənə.

Dillənib bir kəlmə demədin mənə.

Yapışdım əlimlə tabutundan mən.

Dönüb bir arxaya baxmadın heç sən.

Quş kimi sən qalxdın mavi səmaya.

Günəşə döndünmü, ya da ki, Aya.

Gündüzlər Günəş tək göydən baxarsan.

Dönüb şəlaləyə şır-şır axarsan.

Gecələr Ay kimi işıq sal bizə.

Nə olar qadaşım, dön evimizə.

Həmişə hamıdan tutardın xəbər.

De görüm, neynirsən indi bixəbər.

Bəs mənə deyirdin çatmayır havam.

Sənlədir qardaşım, indi də davam.

Sən necə durursan, de, orda mənsiz?

Yaşaya bilmirəm, axı, mən sənsiz!

Ey mənim gözümün nuru, qardaşım!

Dərdimin ortağı, gizli sirdaşım!

Bu gecə axtardım hər yerdə səni.

Nə qədər sən məyus eylədin məni?

Birinci gecədir gəlmədin evə.

Axtardım mən səni çox sevə-sevə.

Boylandım kədərlə o yan-bu yana.

Əzrayıl, de, necə qıydı, bu cana?

İlk dəfə qovuşdun haqq otağına.

Rahatmı uzandın sən yatağına?

Bu geniş evinə sığammadın sən.

Narahat günlərin şahidiyəm mən.

Nə qədər yalvardım dön evimizə.

Nə olar qardaşım, sən qıyma bizə.

Eşidə bilmədin ancaq sözümü.

Mən tənha bilirəm indi özümü.

Dolanım başına, gözəl qardaşım!

Zəhərə dönübdü yeməyim, aşım.

Sinəmi dağıdır bu qəm, bu kədər.

Çəkdiyin əziyyət olubdur hədər.

Diz çöküb yalvardım Allahıma mən.

Bəlkə sağalarsan, düşünürdüm sən.

Olmadı heç nəyin sənə əlacı.

Nə qədər yaşayar qardaşsız, bacı?

Calaya bilmədim ömrünə ömür.

Ürəyim yanıbdı, olubdu kömür.

Uçunur bədənim, ağrıyır başım.

Nə olar, geri dön, mənim qardaşım.

Durduqca, ürəyim eyləyir qübar.

Xəstənin könlünə necə düşür nar?

Eləcə ürəyim istəyir səni!

Nə olar, özünlə, gəl, apar məni!

***

Şikayət edirdi o, Allahına.

De, necə dözürdün, mənim ahıma?

Yalvarıb əl açdım, Allahım sənə.

Söylədim, dərdimə məlhəm ol yenə.

Qaytar qardaşımı mənim özümə.

Nur eylə yenə də onu gözümə.

Dərdinə ver onun sən dərmanını.

Dondurma damarda axan qanını.

Diz çöküb önündə yalvardım sənə.

Söylədim, Allahım, bağışla mənə.

Bütün dərdlərimin o, dərmanıdır.

İnciyən, sızlayan qardaş canıdır.

Allahım, canımdır, qardaşım mənim!

Hər yerdə axtarır onu gözlərim.

Deyəsən, kor olub mənim bu gözüm.

Tapa bilməyirəm heç onu, özüm.

Əzrayıl nə qədər yolları keçdi.

Adamlar içindən bir onu seçdi.

Koruymuş, deyəsən, onun da gözü.

Çünki görməyibdi heç məni özü.

Ay Allah, qardaşım seçgin olubdu.

Hamının ürəyi qəmlə dolubdu.

İstərdim eşidəm bir an səsini.

Kaş duya biləydim xoş nəfəsini.

Canımdan mən ona verəmmədim can.

Bürüyür hey məni, bax, bu həyəcan.

Nə olar qardaşım, gəl götür məni.

Ürəyim, gör necə istəyir, səni...

Nə qədər istəyir ürəyim səni.

Bir quvvə evinə hey çəkir məni.

Evə də getməyə gəlməyir üzüm.

Qapını döyürəm titrəyir dizim.

Adaşın açmışdı qapını mənə.

Şükürlər eylədim, Allahım sənə.

Özün olmasan da tapdım adını.

Ancaq verməyirdi sənin dadını.

Bax, onun özünün başqadır dadı.

Sadəcə, İlyasdır onun da adı.

Dolandı yenə də mənim başıma.

İstədi oxşasın o, qardaşıma.

Yenə də gözlərim axtardı səni.

Çəkdi otağına bir qüvvə məni.

Qapının önündə durdum bir qədər.

Bürümüşdü məni artıq qəm-kədər.

Gücüm çatmadı ki, qapını açam.

Birdən bir güc gəldi, istədim qaçam.

Qorxurdum, otaqda görməyim səni.

Çünki bu sənsizlik yandırır məni.

***

Adamlar yığılıb, gah dağılırdı.

Allahı köməyə gah çağırırdı.

Yoxuydu heç nəyin daha köməyi.

Arzu edirdilər onu görməyi.

Bacılar dedilər, biz bir anlığa,

Xəlvətcə tez gedək qəbirstanlığa.

Bir azca soyuyar bu ürəyimiz.

Təskinlik taparıq, yəqin orda biz.

Dedilər, gedirik biz bazarlığa.

Üz tutdu bacılar tez məzarlığa.

Daşlar lal olmuşdu, durub baxırdı.

Hamını yandırıb, yaman yaxırdı.

Atam dayanmışdı, birinci başda,

Yusifi apardı cox cavan yaşda.

Onun heç yoxuydu qırx iki yaşı.

Nə ağarmamışdı bir teli, başı.

Onlar dayanmışdı çiyin-çiyinə.

İndi də İlyasa yer etdi yenə.

Varıydı onların üzündə kədər.

Belə yazılmışdı hamıya qədər.

İlyas sığınmışdı Yusifə yenə.

Deyirdi, həmsöhət olarsan mənə.

Heç hazır deyildi İlyasın daşı.

Torpağa dəymişdi onun da başı.

Yoxuydu qapısı, nə pəncərəsi.

Dəhşətə salırdı görən hər kəsi.

İlyasa deyirdi Rəna sözünü.

Axır ki, çatdırdın bura özünü.

Gözlərim yoldadı, qulağım səsdə.

Ürəyim qalıbdı sanki qəfəsdə.

Quş kimi çırpınır mənim ürəyim.

Yoxluğun yandırır, yanır kürəyim.

Axtardım hər yeri, tapmadım səni.

Elə bil odlara atıbsan məni.

Yanıram, odlanıb tüstülənirəm.

Durduğum yerdə mən istilənirəm.

Ay Allah, tüstüm də çıxır təpəmdən.

Bilmirəm, bax, orda neynəyirsən sən.

Axı bu evində yoxdu pəncərə.

Nə qədər boylanıb baxsam hər yerə,

Mən görə bilmirəm heç yerdə sənı.

Bəs sənin ürəyin istəmir məni?

Kaş orda olaydı bircə pəncərən.

Önündən bircə an çəkilməzdim mən.

Qardaş itirənlər neynəyir görən?

Bu dərdə doy gələ bilməyirəm mən...

Ay dərələr, dərələr!

Yerə nurlar ələnər.

Qardaşı itirənlər,

Ölü kimi hərlənər.

Göydən tökülər yağış,

Ot bitər qarış-qarış.

Ay qardaş itirənlər,

Gəl bu yoxluqla barış.

Bu düzlərin çəməni,

Gülləri, yasəməni!

Ay qardaş itirənlər,

Dindirməyin heç məni.

Göz yaşları çağlayar.

Ürəklər dərd bağlayar.

Qardaşı itirənlər,

Gecə-gündüz ağlayar.

Ay dağların laləsi!

Gur suyu, şəlaləsi!

Qardaşı ölənlərin,

Ərşə qalxar naləsi.

Bu dağların çəməni!

Heyran edər görəni!

Qardaşı ölənlərin,

Kor olubdu görəni.

Ay dərələr, təpələr!

Göydən odlar ələnər.

Qardaşı ölənlərin,

Hamı dərdə bələnər.

Ay dağlar, uca dağlar!

Şəlalələr gur çağlar.

Qardaşı ölənlərin,

Ürəyi yara bağlar.

***

Nailə ağladı, dedi hamıya.

İstərəm atamı hər kəs tanıya.

Küsmüşəm atamdan mən barışmıram.

Ömürlük onunla heç danışmıram.

Varıydı bir atam, üç də qardaşım.

İndi məzarlıqda var üç baş daşım.

Əzrayıl atamı soxdu gözünə.

Təptəzə bir mənzil verdi özünə.

Atam tək qalmışdı, darıxdı yaman.

Böyük qardaşımsız durmadı, inan.

Onu çox sevərdi, dünyalar qədər.

Onsuz bürümüşdü atamı kədər.

Tələsik yer verdi ona yanında.

Gözəl bir rahatlıq tapdı canında.

İndi də ortancıl qardaşı aldı.

Yanında ona da bir döşək saldı.

Atam tez onları yığdı başına.

İndi keşik çəkir övlad daşına.

***

Pakizə dil deyib, layla çalırdı.

Qardaşın halını xəbər alırdı.

Deyirdi, dərdinə tapmadım dərman.

Qardaşım, eylədin sən məni peşman.

Dərdinə bir dərman olammadım mən.

Ağrılar sönübmü, heç orda, görən.

Xəyallar uzağa aparır məni.

Kaş görə biləydim bircə an səni.

Elə bil qopmuşdu burulğan, tufan.

Səni apardılar elə həmin an.

Həmin o gecəyə nifrət edirəm.

Dərin xəyallara dalıb gedirəm.

Həmin o gecə ki, səni apardı.

Nəslin kötüyünü yerdən qopardı.

Qocaman nəslimin kökü laxladı.

Ancaq xatirəni bizə saxladı.

İstəmirəm quru xəyalları mən.

Kaş elə evində yaşayaydın sən.

Əlimdə olsaydı əgər əlacım.

Həmin o gecəni silərdi bacın.

Təqvimdən silərdim, bax, həmin anı.

Mənə sağ lazımdır qardaşın canı.

***

Yeznənin qırxına çox az qalmışdı.

Rənanın yadına nələr salmışdı.

Yeddiyə gəlmişdi Rənanın özü.

Xalası qızına varıydı sözü.

Öpüb, qucaqladı o, Rübabəni.

Yoxuydum, üzürlü say, dedi, məni.

Mənim gözəl bacım, gözəl Rübabəm!

Başımız sağ olsun, sənlə bahəm.

İtirdin yanından öz yoldaşını.

Qarayla bağladın indi başını.

Gözündən yaş deyil, tökülür leysan.

Firudin hardadır, deyirsən, hər an?

Etibarsız desəm, qınama məni.

Yarıyolda qoydu, axı, o səni.

Hər axşam girərsən öz otağına.

Həsrətlə baxarsan tez yatağına.

Tapmazsan sən onu bir də yanında.

Nə qədər sözün var ona canında.

Görməzsən, deyəsən, ona sözünü.

Ağlayıb öldürmə, bacı, özünü.

Eşidə bilməyir çünki o səni.

Ruhu söyləyir ki, bağışla məni.

Çünki onu sizdən əcəldi alan.

Özü istəməzdi heç bunu, inan.

Fələkdir işləri pozan, dağıdan.

Yoxsa evindəcə olardı bu an.

Rübabə, nələri yadıma saldım.

Ağladım, nə qədər xəyala daldım.

O bizi Gəncəyə qonaq etmişdi.

İşindən ayrılıb bizlə getmişdi.

Firudin apardı bizi Narzana.

Gözəllik yayıldı orda hər yana.

Adına layiq bir masa qurdurdu.

Süfrəyə min cürə bəzək vurdurdu.

Cürbəcür yeməklər sifariş etdi.

Manqalın yanına özü də getdi.

İstəyirdi hər şey lap gözəl olsun.

Oranın neməti masaya dolsun.

Kaş yenə həmin o günlər olaydı.

Yoldaşın yanında, evdə qalaydı.

Süfrəsi həmişə açıq olurdu.

Qonaq-qarayla o evi dolurdu.

Bütün xeyir-şərə gedərdi özü.

Daşdan da keçirdi yeznənin sözü.

Hamımız itirdik gözəl insanı.

Onuncün sızlayır bacımın canı.

Nəvəsi deyir ki, heç dözmürəm mən.

Mənim gözəl babam, de, hardasan sən?

Yandıra bilməzdi heç bir şey məni.

Yerdəmi axtarım, göydəmi, səni?

Sən məni sevirdin dünyalar qədər.

İstəməzdin mənə verəsən kədər.

Mən sənsiz neynəyim, bilmirəm özüm.

Ay baba, bu dərdə bəs necə dözüm?

Hər yerdə axtarır gözlərim səni.

De, nədən babasız qoyubsan məni?

Yalvarıb son dəfə deyirəm sənə.

Babamtək sən qayıt yenə də mənə.

Alışa bilmirəm mən yoxluğuna.

Baxıram insanın lap çoxluğuna,

Mənə lazım olan ancaq özünsən.

Neynəyim ki, baba, evə dönəsən...

***

İlyasın vardı bir qayınanası.

Görürdü ağlayır onun balası.

Dodağın altından layla çalırdı.

Özü də ağlayıb dərdə qalırdı.

Deyirdi, çağırdım, hay vermədin sən.

Hardasan, ay İlyas, hardasan, görən?

Gündüzlər uzundur, gecə qaranlıq.

Kaş evə dönəydin, sən bircə anlıq.

Yolunu gözləyir nəvələr hər kəs.

Onları ürəyin istəməyir bəs?

Yarını sən kimə qoyub getmisən?

Onutək qoymazdın, nədən, etmisən?

Yolunu gözləyir o, axşam-səhər.

Kiridə bilmirik onu birtəhər.

Çəkdiyi əziyyət tamam puç oldu.

Onun gözəl yarı çiçəktək soldu.

Üzündə gözyaşı cığır salıbdı.

Ay bala, o, axı, sənsiz qalıbdı.

Tək onun xətrinə sən dön evinə.

Ancaq, bax, o zaman bəlkə sevinə.

Ələddin orada bir yer etmişdi.

Teymuru aparıb ora getmişdı.

Bu dərdlər, ay oğul, öldürdü məni.

Tabım heç qalmayıb, ağlayam səni.

Dərdimin üstünə dərd gəldi yenə.

Sizə yox, bu ölüm gələydi mənə.

***

İlyası nə qədər sevirdi Günay.

Ömründən ataya o, verərdi pay.

Günay hey ağlayıb, hey sızlayırdı.

Gözündən sel kimi yaş çağlayırdı.

Günayın beynini sual yeyirdi.

Şəkilə baxaraq belə deyirdi.

Baxıram sağıma, həm də soluma.

Əlacsız gedirəm yenə yoluma.

Dönürəm arxaya, gəzirəm səni.

Dünyada arxasız qoyubsan məni.

Arxamda əl çatmaz bir dağıydın sən.

Bəs indi haraya söykənəcəm mən?

Özün də bilmədən yıxdın dağımı.

Viranə eylədin bağça-bağımı.

Dünyada hamımız sənsiz qalmışıq.

İndi məzarlığa biz yol salmışıq.

Məzarlıq olubdu sənin məkanın.

Görən, ağrıyırmı orda da canın.

Məzarlıq deyəndə, yarılır bağrım.

Bilmirəm köməyə kimi çağırım.

Görəsən, heç varmı bir təbib, loğman.

Qurtara biləydi kaş səni ordan.

Hər gündə baxıram mən telefona.

Səslənmir, səndən zəng gəlməyir ona.

Telefon lal olub, susub danışmır.

Elə bil küsübdü, mənlə barışmır.

Durub saatlarla ona baxıram.

Xəyallar içində çaytək axıram.

Birdən lap coşuram, gah çağlayıram.

Gah özüm-özümə mən ağlayıram.

Az qalır partlasın onda ürəyim.

Yanır, alovlanır sanki kürəyim.

Çünki kəsilibdi, ay ata, zəngin.

Telefon da olub mənimtək qəmgin.

Hərdən telefon da utanır məndən.

Xəbərlər verməyir axı o səndən.

Bilirəm mən, onun yoxdur günahı.

Tutsun Əzrayılı qızının ahı!

Ay ata, mən qala bilmirəm sənsiz.

Bax, necə dözürsən, sən orda mənsiz?

Hər yerdə axtarır gözlərim səni.

De, nədən, atasız qoyubsan məni?

Bu gün mən dəhşətə gəlmişəm, ata.

Az qaldı heyrətdən ürəyim yata.

Səndən zəng gəlirdi günorta mənə.

Bir anlıq sevindim, atamdır yenə.

Qorxdum telefonu açmağa özüm.

Əsirdi dodağım, qurudu sözüm.

Gözümdən axan yaş leysan olmuşdu.

Ürəyim kədərlə, qəmlə dolmuşdu.

Atamdır, ölsə də axtarır məni.

Görmək istəyirəm, deyəcək, səni.

Əllərim titrəyib necə əsirdi?

Düyməni açmağa çox tələsirdi.

Yuxumu görürəm, ay Allahım, mən?

Bəs atam ölübdü, dedilər, dünən.

Daş altda olsa da, atamın əli,

Yenə də o, yığır məni, deməli.

Basdım tez düyməni, duyam səsini.

Eşidim mən ordan son kəlməsini.

Körpə adaşınmış zəng vuran mənə.

Sənin əvəzindən axtarır yenə.

Kaş o zəng gələydi sənin özündən.

Axı sən doymazdın mənim sözümdən!

Ay ata, sən nədən tez döndün daşa?

Qıymazdın gözümdən tökülən yaşa.

Gözlərim dönübdü indi bulağa.

Anamı tək qoyub getdin uzağa.

Anamla verərik indi baş-başa,

Səni istəyəndə baxarıq daşa.

Mən daşı neynirəm, lazımsan özün!

Fikrimdən çıxmayır söhbətin-sözün.

Ürəyim istəyir o gözlərini.

Eşidə biləydim, kaş, sözlərini.

Nə olar, ay ata, qayıt geriyə.

Yoxluğun bir anda, kaş ki, əriyə.

Hey səni axtarır anam, qardaşım.

Bax, onda sel olur mənim gözyaşım.

Sənsizlik çox üzür, ay ata, məni.

Ürəyim su kimi istəyir səni.

***

Yeddi gün getmişdi ömürdən, gündən.

Bakıya gəldilər onlar yenidən.

Əfsuslar olsun ki, yox idi İlyas.

Heydər məscidində verilirdi yas.

Artıq yığışmışdı onlar şəhərə.

Toplandılar hamı indi bu yerə.

Molla oxuyurdu ucadan Quran.

Orda verilirdi İlyasa ehsan.

Nailə dil deyib ağladı yaman.

Qardaşım sənsizəm, söylədi, bu an.

Gəzsəm də dünyanı, çölü-çəməni.

Ürəyim istəyir, ay İlyas səni.

Susub telefonum, kəsilib zəngi.

Kaş poza biləydim mən bu ahəngi.

Baxıram saata, gözləyirəm mən.

Deyirəm, yuxudan duracaqsan sən.

İstəmirəm səni oyadam erkən.

Nə dərin yuxuya gedibsən ki, sən?

İndi mən qışqırıb ağlasam yenə.

Neynəyim, heç səsim çatmayır sənə.

Bilmirəm, bəlkə də mən lal olmuşam.

Buludtək ağlayıb, yaman dolmuşam.

Gözümün yaşıdı yağan yağışlar.

Allahım, qardaşım məni bağışlar.

Mən yeddi gündür ki, görmürəm onu.

Geymişəm əynimə zil-qara donu.

Xəbərdar olardım mən hər anından.

Ayrıla bilmirdim heç vaxt yanından.

Bilmirəm, bəs indi olubdu necə?

Onu aldı bizdən qaranlıq gecə.

Heç ayrı qalmazdı onun da özü.

Geciksəm yollarda qalardı gözü.

Bəs indi gözləyə bilmirsən məni?

Axı hər məkanda gəzirəm səni!

***

Pakizə tez onun kəsdi sözünü.

Ağlayıb öldürdü o da özünü.

Söylədi, deyirəm özüm-özümə,

Kaş dəyə biləydin bir an gözümə.

Yerdə yox, göylərdə gəzirəm səni.

Qıymazdın, heç zaman, yorasan məni.

Hər yeri gəzirəm, axtarıram mən.

Heç yoxdur yerini, deyəsən, bilən.

Bir dası göstərib, deyərlər mənə,

Qardaşın burdadı, bura gəl yenə.

Daşdan da adama qardaş olarmı?

Ölən qardaşların yeri dolarmı?

Daşı yox, özünü axtarıram mən.

Haraya yox oldu, olmadı görən?

İnana bilmirəm, dönübsən daşa.

Daş olmaq olarmı səntək qardaşa?

Əgər öz yanıma qayıtmasan sən,

Sonunda yanına gələcəyəm mən.

***

Rəna ağlayırdı özü-özünə.

Artıq tor gəlmişdi onun gözünə.

İlyasın şəklini aldı əlinə,

Bu sözlər gəlmişdi onun dilinə.

Heç sənə çatmayır harayım, ünüm,

Sənsiz xoş keçməyir bir anım, günüm.

Ürəyim dolubdu, eyləyir qübar.

Mənimtək qardaşı ölən harda var?

Ağlaram ağlar kimi.

Əridim dağlar kimi.

Qardaşı ölən varmı?

Mənim tək ağlar kimi.

Əl atdım telefona,

Çatmadı zəngim ona.

Qardaşı ölən varmı?

Mən artıq çatdım sona.

Qardaş öldürən bacı!

Qardaş onun baş tacı.

Qardaşı ölən varmı?

Bu xəbər yamam acı.

Dağları aşan varmı?

Mən tək dolaşan varmı?

Tabut dalınca baxıb,

Ağlayıb, coşan varmı?

Tabutdan yapışdım mən.

Od olub alışdım mən.

Qardaşım ölən gündən,

Ölüyə qarışdım mən!

Bu dağların meşəsi,

Gözəldir hər güşəsi!

Kimin qardaşı ölüb,

Ağlamaqdı peşəsi.

A dağlar, qarlı dağlar!

Meyvəli, barlı dağlar!

Kimin qardaşı ölüb,

Bütün gecəni ağlar.

Qardaş başın tacıdır.

Ölüm yaman acıdır.

Kimin qardaşı ölüb,

Bil, göynəyən bacıdır.

Qardaş canı əzizdir.

Ürəyi çox təmizdir.

Kimin qardaşı ölüb,

O bir coşan dənizdir!

Qardaşı ölənlər neyləyir, Allah!

Onunla birlikdə mən öldüm, vallah!

Fələk nə etdisə, bizlərə etdi.

Aldı qardaşımı, yox olub getdi.

Ay Allah, daşdan da olarmı qardaş?

Axı heç səs vermir səsimə bu daş.

Çıraqla gəzirəm mən qardaşımı.

Gedim qucaqlayım indi daşımı?

Biz həsrət qalmışıq onun səsinə.

Qurbanam tükənən gül nəfəsinə.

Darıxdım, qardaşım, darıxdım, yaman.

Heç yerə sığışa bilmirəm, inan.

Nə gecəm var mənim, nə də gündüzüm.

Yazıram şeirlər mən, düzüm-düzüm.

Guya ki, sənlə dərdləşirəm mən.

Əfsuslar olsun ki, eşitmirsən sən.

Yazıram könlümdən gəlib keçəni.

Yandırır, yandırır, ölümün məni.

Dərmansız bir dərdə düşən qardaşım!

Dayanmır sel kimi axır gözyaşım.

Yəqin ki, gələrdin olsa əlacın.

Sənlə birlikdə ölsün mən bacın.

Ağırdır, bu yükü çəkə bilmirəm.

Gözümdən süzülən yaşı silmirəm.

Elə bil quruyub qanadım, qolum.

Yox olan canına mən qurban olum.

***

Mətişin yox idi gecə, gündüzü.

Ağladı, olduqca pis oldu özü.

Gözünün önündən getmirdi gecə.

İlyası Əzrayıl apardı, necə?

Getmirdi gözündən İlyasın özü.

Varıydı deməyə ona çox sözü.

Ba,x içi içini, sanki, yeyirdi.

Alçaqdan ağlayıb belə deyirdi.

Bir an da çıxmırsan xəyalımdan sən.

Gəzirəm o sənli günlərimi mən.

O sənli günlərim arxada qaldı.

Sənsizlik məni də lap xəstə saldı.

Gəlməyən səsinə qurban olaram.

Açılan güllərtək mən də solaram.

Sənsiz heç olmayır həyatın dadı.

Daşlara yazıldı İlyasın adı.

Ay Allah, bu daşdan İlyas olarmı?

İlyas da gül kimi tezcə solarmı?

Kaş sənin yerinə mən olaydım daş.

Mən duran yerdə də ölərmi yoldaş?

Kaş mənə gələydi sənin azarın.

Mənim olmalıydı həmin məzarın.

De görüm, bax nədən, düşdün qabağa.

Gərək sən verəydin məni torpağa.

Sonuncu tikəni mənimlə bölən,

Mənimlə ağlayan, mənimlə gülən,

Dünyanın ən gözəl yoldaşısan sən.

Səni çox sevirəm, söyləyirəm mən.

Gözümün nurusan, ağzımın dadı.

Özüntək adın da peyğəmbər adı.

Sənlə həmişə fəxr elədim mən!

Evimin qiymətli dirəyisən sən!

Kaş bizə o günlər gələydi yenə.

Qulluqlar edəydim, ay İlyas, sənə.

Sən gedən yolları sənsiz gedirəm.

Xəyallar içində batıb gedirəm.

Gözümün önündən getmədin bir an.

Az qala mən dəli oluram, inan.

Gəlir qulağıma o gözəl səsin.

Kaş yenə gələydi gül tək nəfəsin.

Artıq görməyirik sənin boyunu.

Fələyin başına dəysin oyunu.

Bir səni qopartdı o, əlimizdən.

Sənin tək insanı ayırdı bizdən.

***

Hər cümə Mətanət erkən dururdu.

İlyasın adına süfrə qururdu.

Bütün cümələrdə halva çalındı.

Halvası hər dəfə gözəl alındı.

Masada olurdu hər cürə nemət.

Təşkil eyləyirdi bunu Mətanət.

Elnurə hər şeyə yardım edirdi.

Çox işin dalınca özü gedirdi.

Cümənin birini o verdi özü.

Hər dəfə yaş ilə dolurdu gözü.

Həmişə deyirdi quda bu sözü,

Hörməti qazanıb İlyasın özü.

Xətrini istərdik dünyalar qədər.

Verməyib qızıma bir damla kədər.

Gəlinə hörmətlə baxıb həmişə.

Qoymayıb əlini vura bir işə.

İlayda ağlayır hər axşam, səhər.

Kiridə bilmirik onu birtəhər.

Deyir ki, küsmüşəm Mətiş nənəmdən.

Babamı gizlədib rayonda məndən.

Ürəyim istəyir onun səsini.

Niyə qucaqlamır mən nəvəsini?

Yaşar da dünyaya, vallah, vermir səs.

Başını qatammır onun heç bir kəs.

Özünü heç cürə ələ alammır.

İlyassız oraya baş da salammır.

Mətiş Elnurəyə razılıq etdi.

Sağ olsun, həmişə köməyə yetdi.

Nə vaxt biz düşmüşük çətinə, dara.

O, arxa olubdu, oğlum İlqara.

Vallah, ay Elnurə, qaralıb qanım.

Elə bil lərzəyə gəlib bu canım.

Heç yuxu gəlməyir mənim gözümə.

Ürəyim baxmayır daha sözümə.

Gecələr uzanır, açılır səhər.

Könülsüz gəzirəm evdə birtəhər.

Haraya baxsam da, görürəm onu.

Mənimçün gəlibdi həyatın sonu.

Ürəyim sıxılır qəmdən, kədərdən.

Boğulub, ölürəm daha qəhərdən.

Əlacsız baxıram gəldiyi yola.

Deyirəm, ay Allah, gələn o ola.

Getdikcə qırılır mənim inamım.

Peyğəmbər yoldaşım, mənim imamım.

Yox oldu dünyadan, tərk etdi bizi.

Ağlatdı ömürlük ailəmizi.

Təsəlli verirəm özüm-özümə.

Kaş ki, görünəydi bir gün gözümə.

Hər gündə min cürə xəyal edirəm.

Bu dərdlə bilmirəm hara gedirəm.

Deyirəm, bir yuxu olaydı bu, kaş!

Evinə dönəydi yenə də sirdaş!

Ay Allah, nə olar möcüzə yarat.

Bu dərdi sinəmdən, gəl, qopart, sən at.

Uşaqlar sağ olsun, neynəyim yenə.

Onlara gələnlər gəlsinlər mənə.

***

Əsaynan gəzirdi evdə Xuraman.

Yadından çıxmırdı İlyası bir an.

Deyirdi, ay bala, mən gündüz, gecə,

İstəyirəm səni, biləydin, necə?

Nə qədər yumuram tez-tez gözümü,

Yuxuya verirəm bəzən özümü.

Yuxuda olsa da, deyirəm ki, mən,

Səni görərəmmi, ay oğul, görən?

Bıımirəm, küsmüsən, ya incimisən?

Qızılsan, yoxsa ki, sən bir incisən?

Nədən gəlməyirsən heç yuxuma sən?

Həsrətlə yolunu gözləyirəm mən.

Mən indi yuxuda gəzirəm səni.

Həmişə ümidsiz edirsən məni.

Heç zaman küsməzdin mənim özümdən.

Doymazdın nə də ki, söhbət-sözümdən.

Sanki bir yuxudur, həmin olanlar.

Kədər tək qəlbimə gəlib dolanlar.

Qəlbimə yuxutək bunlar dolaydı.

Ay Allah, kaş balam bizlə olaydı!

Aradan keçmişdi azca bir zaman.

Belə bir yuxunu gördü, Xuraman.

İlyasın şəklini aldi əlinə.

Həmin bu sözləri gəldi dilinə.

Xəyalınla yatıb yuxu gördüm mən.

Gördüm ki, cənnətdə ev qurubsan sən.

Cənnət də cənnətdir, deyirəm, sənə.

Nə qədər xoş gəldi oralar mənə.

Hər tərəf geyinib yam-yaşıl libas.

Sayım gözəlliyi sən də qulaq as.

Burda çağırırlar hər güllər gülü.

Güllər əzizləyir gözəl bülbülü.

Quşlar cəh-cəh vurub tez-tez oxuyur.

Mələklər çiçəkdən çələng toxuyur.

Hər yerdə şırhaşır şəlalə axır.

İlyasım boylanıb hər yerə baxır.

Tələsik mən yumdum, açdım gözümü.

Balamın dalınca atdım özümü.

Nə qədər qışqırdım, çıxmadı səsim.

Az qala kəsilsin quru nəfəsim.

Ayıldım, gördüm, yoxudur sirdaşım.

Aləmlə bir idi mənim gözyaşım.

Qayıtdım yenə də yumdum gözümü.

Yenidən yuxuya verdim özümü.

İstədim yenidən mən görəm səni.

Ancaq sən heç orda görmədin məni.

Nə etdim, neynədim, görmədim yenə.

Kaş yuxu olsa da, gələydin mənə.

Deyirdim mən sənsiz yaşayammaram.

Sənsizlik yükünü daşıyammaram.

Bu səhər oyanıb baxdım özümə.

Gördüm düz çıxmadım, axı, sözümə.

Ehmalca güzgüyə yaxınlaşdım mən.

Diqqətlə baxdım ki, mənəmmi görən?

Gördüm ki, doğurdan mən hələ sağam.

Bu dərdə doy gələn bir daşam, dağam!

Deyirlər, İlyasım dönübdü daşa.

Bu dərdə tab gələn daşam birbaşa.

Daşların fərqini mən seçəmmədim.

Balamın dalıyca heç köçəmmədim.

Deməli, bulağam, olmamışam daş!

Çünki gözlərimdən hey süzülür yaş.

Hər gün şəlalətək mən çağlayıram.

Gecə də, gündüz də hey ağlayıram.

Getdikcə soyuyur isti havalar.

Fəsillər içində düşür davalar.

Onlar bir-birini əvəz edirlər.

Növbə ilə gəlirlər, sonra gedirlər.

Artıq payız gəlib yerini alır.

Ehmalca hər yerə o lövbər salır.

İndi yavaş-yavaş küləklər əsir.

Soyuq qılınc kimi adamı kəsir.

Göydən narın-narın yağışlar yağır.

Ay bala, yanına məni də çağır.

Həmişə yanında istərdin məni.

Mən orda soyuqdan gözlərdim səni.

Sanki, o yağışlar yağır belimə.

İstərəm bir yorğan alım əlimə.

O təzə mənzildə örtüm üstünü.

Görəydin təpəmdən çıxan tüstünü.

Payızın sonundan qarlı qış gəlir.

Bu fikir canımı ox kimi dəlir.

Soyuqlar olacaq, bax, onda sənə.

Bu dərddən öləcəm o zaman yenə.

Soyuqla yoxuydu heç sənin aran.

Kor olsun qoy səni ora aparan.

Elə ki, gələcək soyuq, qarlı qış,

Bax, onda edəcəm o ki, var qarğış.

Mübarək olmasın təzə məkanın.

Çünki ağrıyacaq soyuqdan canın.

İstəyirəm deyəm, gəlməsin heç qış.

Əsməsin küləklər, yağmasın yağış.

Heç zaman sən soyuq mənzil almazdın.

Havasız yerdə sən bir an qalmazdın.

Axı nə istədi Əzrayıl səndən?

Dincəldimi, səni ayırdı məndən?

***

Rəna çox ağlayıb yatmışdı gecə.

Qardaşı yadına düşmüşdü necə?

Yuxudan durmuşdu nəsə erkəndən.

Oğluna söylədi narahatam mən.

Ay Aqil, vaxt elə sən bir anlğa.

Gəl gedək mənimlə qəbirstanlığa.

Dayının qırxına çox az qalıbdı.

Bu yağış dayını yada salıbdı.

Heç baxma sən mənim bu göz yaşıma.

İstəyirəm, baxam, həm də daşına.

Qurbanam mən onun gülən gözünə.

Deyirlər bənzəmir şəkil özünə.

Narahat olmuşam bunu biləndən.

Mətanət deyir ki, neynəyirsən sən?

O daşdan adammı olacaq, görən?

Əgər gör, yoxdursa, İlyasın özü,

Daşın nə fərqi var, necədir üzü?

Nəhayət, gəldilər həmin məkana.

Kədərlə boylandı Rəna hər yana.

Gördü ki, qoyulub İlyasın daşı.

Hamıdan gözəldir yenə qardaşı.

Başını söykədi həmin o daşa,

Söylədi sözünü, dedi qardaşa.

Məni tər basıbdı, əsir ürəyim.

Götürmür bu yükü heç cür kürəyim.

Çünki çox ağırdır, gücüm çatmayır.

Nə də ki, doy gəlib yerə atmayır.

Gəldim görüşünə, qardaşım, oyan.

Yenə də bizimlə birlikdə dayan.

Açıb qollarını qucaqla məni.

Gör necə istəyir ürəyim səni.

Sən ancaq dayanıb mənə baxırsan.

Elə bil canımı şişə taxırsan.

Yoxsa küsübsənmi, qardaşım, məndən?

Heç zaman doymazdıq, axı, biz səndən.

Gəldim görüşünə dur, qalx ayağa.

Şəkiltək baxma sən, bir çıx qabağa.

Minnətə gəlmişəm, rəhm elə bizə.

Nə olar bizimlə dön evimizə!

Yağışın səsinə mən oyanmışam.

Pəncərə önündə tez dayanmışam.

Dedim ki, bu nədi gəldi başıma?

Yəqin ki, soyuqdu öz qardaşıma.

Yağışın səsinə bəlkə oyana.

Pəncərə yoxdu ki, orda dayana.

Bəs onda neynəsin onun bacısı?

Bax, onu öldürər bunun acısı.

Allahım, bu yükü çəkmək olmayır.

Qardaşın öz yeri heç vaxt dolmayır.

Nə qədər acizəm, yoxdur əlacım.

Dağdan da böyükdür mənim bu acım.

Ancaq o qoymazdı mən orda qalam.

Torpağın altında yerimi salam.

Ordan çıxardardı dişiylə məni.

Qoruya bilmədim, qardaşım səni.

Elə ki, gün çıxır sevinirəm mən.

Yəqin ki, bir azca isinərsən sən.

Soyuq olanda da kədərlənirəm.

Əlimdə bir yorğan hey hərlənirəm.

Bilmirəm nə edim, neynəyim daha?

İşlərin sonrası qalıb Allaha.

Ay Allah, buludtək yaman dolmuşam.

Elə bil şikəstəm, topal olmuşam.

Heç nəyə çatmayır gücüm, imkanım.

Yanında qalıbdı, elə bil, canım.

Elə ki, yeməyin gəlir zamanı,

Hamıya deyirəm, bəs İlyas hanı?

Çünki sən sevərdin ləziz yeməyi.

Xoşlayardın həmi deyib-gülməyi.

Həmişə pürrəngi olardı çayın.

Bəs indi hardasan, çəkilmir payın?

Getmişdim mən sənin öz ocağına.

Baxırdım evinin künc-bucağına.

Çəkilib evindən səsin-səmirin.

Heç yandan gəlməyir daha hənirin.

Sənsiz nə ləzzəti həmin məkanın?

Evində qalardı həmişə canın.

İndi səs vermirsən sən səsimizə.

Fikir də vermirsən heç birimizə.

Dayandım qapının kandarında mən.

Ay Allah, bilirmi gəlmişəm görən?

Hər zaman çıxardın qarşıma özün.

Nə qədər xoş idi söhbətin, sözün.

Ancaq sən çıxmadın mənim qarşıma.

Nə olub, görəsən, bu qardaşıma?

Kor-peşman dayanıb gözləyirdim mən.

Yalvarıb, deyirdim kaş gələydin sən!

Boylandım o yana, gah da bu yana.

Düşündüm yatıbdı, bəlkə oyana.

Nə qədər ağırdı yoxluğun bizə.

Kaş dönə biləydin öz evimizə!

İnana bilmirəm, yenə gözümə.

Mən sual edirəm özüm-özümə.

Görəsən, doğrudan ölüb qardaşım?

İnana bilmirəm, partlayır başım.

Təsəvvür etmirəm heç yoxluğunu.

Gəzirəm, adamın mən çoxluğunu.

Onların içində gəzirəm səni.

Nə olar, naümid eyləmə məni.

Kaş görə biləydim qardaş özünü.

Bağrıma basardım öpüb gözünü.

Başqadır həyatda qardaşın dadı.

Bəs edir adama quruca adı.

Arxadır, dayaqdır, qardaş bacıya.

Dözə bilməyirsən belə acıya.

Adamlar içində göstər özünü.

Bir dəfə qoy görək gülən üzünü.

Qurbanam mən sənin gülən gözünə.

Çox həsrət qalmışam, vallah, özünə.

Titrəyir qəlbimin incə telləri.

Bir daha əsməsin qara yelləri.

***

Günlər bir-birini əvəz edirdi.

Hamısı ömürdən, gündən gedirdi.

Artıq gəlib çatdı qırxın zamanı.

Topladı Tovuza bir çox adamı.

Qohumlar axşamdan gəlib-gedirdi.

Sabahkı ehsana yardım edirdi.

Onlar işlədilər sabaha qədər.

Hər yeri bürüdü hüzünlə kədər.

Yenidən həyətdə çadır quruldu.

Çadırın içinə xalça vuruldu.

Yenə də qonşular haraya çatdı.

Ən ağır işlərə onlar əl atdı.

Qəndafla, Qənirə, bir də ki, Almaz.

Üç gözəl xanımdan heç yerdə olmaz.

Dovğanı bişirib, halva çaldılar.

Günayla İlhamə süfrə saldılar.

Axşamdan hər şeyi hazır etdilər.

Qəbirin üstünə erkən getdilər.

***

Mətanət çatantək qəbirstanlığa,

Özünü itirdi tez bir anlığa.

İlyas dayanmışdı, ona baxırdı.

Mətişin gözündən yaşlar axırdı.

Mən gəlib yanına, deyirəm, yenə.

Minnətə gəlmişəm, ay İlyas sənə.

Yalvarıb deyirəm, qayıt evinə.

Qoyma ki, Əzrayıl baxa, sevinə.

Nə olar, Allahım, eylə möcüzə.

Qaytar yoldaşımı sən evimizə.

Gəl, göstər bizlərə mərhəmətini.

Sevindir sən onun öz külfətini.

Böyükdən kiçiyə kövrəlir hamı.

Sənsizlik məhv edir bu gün adamı.

Yoxluğun hamıya vurubdu yara.

Hamımız düşmüşük, elə bil, dara.

Sıxılır bu dərddən lap ürəyimiz.

Alovla odlanır düz kürəyimiz.

Tüstümüz lap çıxır öz təpəmizdən.

Heç bir şey gəlməyir əllərimizdən.

Elə ki, gün batır, toran qarışır.

Elə bil canımda manqal alışır.

Görmürəm nə vaxtdı mən yoldaşımı.

Bu dərddən itirdim, yaman, başımı.

Hardasan, ay İlyas, səs ver səsimə?

Kaş qüvvət gələydi gül nəfəsinə.

Nə olar, Allahım, mözüzə yarat.

Sağalt yoldaşımı cərgələrə qat.

Cansıza can verən qüvvə olaydım.

Kaş onun qəlbinə özüm dolaydım.

Baxıram yollara, gəlib-gedənə.

Yoxuşu çıxana, diki enənə.

Deyirəm ,onlardan axı mənə nə?

Mən səni gəzirəm hər yerdə yenə.

Öyrəşə bilmirəm sənsizliyə mən.

Yoldaşım öyrəşə bilibmi, görən?

Ay Allah, qırx gündür gəlməyir səsi.

Kədərə bürüdü, görən hər kəsi.

Kor olub gözlərim görməyir onu.

Kəfəndən biçilib köynəyi, donu.

O gözəl gözündən nurlar saçardı.

Bütün çöhrəsində güllər açardı.

Qırx gündür görünmür gözəl qaməti.

Bizləri çox üzür onun həsrəti.

Bu həsrət bir közdü düşüb canıma.

Sənsizlik yayılıb bütün qanıma.

Axı sənsizliyin yoxdu dərmanı.

Bu dərddən üzülür insanın canı.

Dərmansız bir dərdə olmuşuq düçar.

Bu dərdin əlacı, görən, harda var?

Kiridə bilmirəm mən heç İlqarı.

İşdən gələn kimi qalxır yuxarı.

Hər yeri bürüyür hönkürtü səsi.

Az qala kəsilsin onun nəfəsi.

Atamı istəyir deyir ürəyim!

O, arxam olubdu, həm də gərəyim.

Könlümə düşübdü o gözəl səsi!

Ölməsin heç kimin həyatda kimsəsi.

Atamsız heç nəyin yoxdu ləzzəti.

Mən indi bilmişəm bu həqiqəti...

***

Pakizə yenə də coşub çağladı.

O ki var, dil deyib, yaman ağladı.

Qırılıb qanadım, qırılıb qolum.

İndi məzarlığa düşübdü yolum.

Baxıram hamının ağarıb başı.

Sel kimi tökülür gözündən yaşı.

Artıq bu qırx günü gəlibdi başa.

Qardaşım, deyərək, yalvarım daşa.

Yox, axı bu daşın çıxmayır səsi.

Qar olub, buz olub onun nəfəsi.

Baxıram, doğrudan, vallah, bu, daşdır.

Mənə lazım olan canlı qardaşdır.

Daşlamı dəyişdim mən qardaşımı?

Daşamı söykəyim indi başımı?

İstəmirəm daşa mən deyim qardaş.

Çünki bu doğurdan daşdı,vallah, daş!

Yenidən gələydi o, dünyaya kaş!

Yenə də olaydı mənimlə sirdaş!

***

Gözlərim yoldadı, qulağım səsdə.

Bu dərddən, bilirəm, var, hər bir kəsdə.

Hamının evindən çıxır bu tüstü.

Yandırır adamı ordakı isti.

Ayrılıq qəmindən alovlanırlar.

İşıqlı dünyada onlar yanırlar.

Ölən heç hay vermir, baxmayır dala.

Xiffətdən çatlayır, qalan, az qala.

Qardaşım səs vermir mənim səsimə.

Bir kəlmə deməyir heç bir kəsimə.

Məndən yox, deyəsən, küsüb hamıdan.

Yoxsa o, danışıb, gülərdi hər an.

Bizləri yığardı hər gün başına.

Qurbanam mən onun o başdaşına.

Hansı ki, o daşa qoyub başını.

Mən orda gəzirəm öz qardaşımı.

Bir cüt qardaşımı soxdun gözünə.

İndi nə deyirsən özün-özünə?

Yəqin ki, işinlə fəxr eləyirsən.

Nə olsun, onsuz da sən Əzrayılsan.

Heç yerdə yoxdur ki, sənin hörmətin.

Bir kimsə bilməyir qədir-qiymətin.

Allahım, de, səni nədən yaratmış?

Əzrayıl adıyla ortaya atmış.

İnsanın kəsirsən hər an yanını.

Alırsan hamının bir-bir canını.

Bilmək istəyirəm, ay Allah, görən,

Dünyaya gələrmi onu öldürən?

Allahım, nə olar, yox eylə onu.

Qoy gəlsin onun da bir anda sonu.

Əlindən qurtarsın hamının canı.

Kaş görə biləydik biz həmin anı!

Heç yuxu getmədi gecə gözümə.

Nə qədər düşündüm özüm-özümə.

Suallar baş alıb gedirdi hara?

Düşürdüm daha da çətinə-dara.

Axı, bu dünyanın nədir mənası?

Hamının sinədə vardır yarası.

Həmin o yaralar dərddən bağlanır.

Bu dərdlər növbəylə elə ağlanır.

Köç edir dünyadan adamlar bir-bir.

Hamını gözləyir sonunda qəbir.

Nə qədər olsa da, çox imarətin.

Sonunda qəbirdir sənin qismətin.

Anlaya bilmədim heç bu dünyanı.

Axtarım haranı, mən hansı yanı?

www.kitabxana.net Milli Virtual-Elektron
Kitabxananın təqdimatında

Dünyanın sirrini bilməyirəm mən.

Bunları bilənlər heç varmı görən?

www.kitabxana.net Milli Virtual-Elektron
Kitabxananın təqdimatında

Kitabın rəqəmsal variantını hazırlayan: YYSİB
– Kitabxana.net portalı